ISSN: 3104-4670
e-ISSN: 2789-6919

# ELM VƏ TƏHSİL TƏDQİQATLARI
# XII RESPUBLİKA ELMİ KONFRANSI
## *“Elmi Tədqiqat”* jurnalının xüsusi buraxılışı

# FUNDAMENTALS OF SCIENCE AND EDUCATION
# XII RESPUBLICAN SCIENTIFIC CONFERENCE
## Special issue of the journal *«Scientific Research»*

Bakı, Azərbaycan
12 fevral 2026

# ELM VƏ TƏHSİL TƏDQİQATLARI
# XII RESPUBLİKA ELMİ KONFRANSI
***"Elmi Tədqiqat"* jurnalının xüsusi buraxılışı**

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

# RESEARCH IN SCIENCE AND EDUCATION
# XII RESPUBLICAN SCIENTIFIC CONFERENCE
**Special issue of the journal *«Scientific Research»***

**12 fevral 2026**

## Beynəlxalq indekslər / International Indices

ISSN: 3104-4670
e-ISSN: 2789-6919
DOI: 10.36719

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© tedqiqat.rek@aem.az
© aem.az

## TƏŞKİLAT KOMİTƏSİ

**Sədr**

**Assoc. Prof. Dr. Elnarə MEHBALIYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Sədr müavinləri**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa

**Məsul katib**

**Assos. Prof. Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**ÜZVLƏR**

**Prof. Dr. Vaqif ABBASOV**, ARETN Akademik Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Əziz SANCAR**, Çapel-Hill Şimali Karolina Universiteti / ABŞ
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya Tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Səyyarə İBADULLAYEVA**, ARETN Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Cihan ÖZDEMİR**, Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Leyla İMAMƏLİYEVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Prof. Dr. Təranə HACIYEVA**, Bakı Mühəndislik Universiteti / Azərbaycan

**Prof. Dr. Hacı HƏSƏNOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan

**Prof. Dr. Dünya BABANLI**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan

**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə

**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Prof. Dr. Leyla VƏZİROVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Prof. Dr. Əkbər AĞAYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbacan

**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Prof. Dr. Juliboy ELTAZAROV**, "İpək Yolu" Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan

**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan

**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya

**Prof. Dr. Yaqub BABAYEV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan

**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan

**Prof. Dr. Yasin BABAYEV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

**Prof. Dr. Turhan ÇETİN**, Qazi Universiteti / Türkiyə

**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan

**Prof. Dr. Andrei VOLODIN**, Regina Universiteti / Kanada

**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Prof. Dr. Anar KAZIMOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan

**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan

**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Prof. Dr. Uuganbayar MYAGMARSUREN** / Monqolustan Dövlət Universiteti / Monqolustan

**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya

**Prof. Dr. Yaqut HACIYEVA,** Azərbaycan Tibb Universiteti / Azərbaycan

**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Prof. Dr. Zahid MƏMMƏDOV,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan

**Prof. Dr. İntiqam CƏBRAYILOV,** Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan

**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ

**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan

**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya

**Assoc. Prof. Dr. Könül HƏSƏNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Urfan HƏSƏNOV,** Gəncə Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Əliş AĞAMİRZƏYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Universiteti / Qazaxıstan

**Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya

**Assoc. Prof. Dr. Leyla ƏLİYEVA,** Qarabağ Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti Azərbaycan

**Assoc. Prof. Dr. Sadıq QARAYEV,** ETN, Botanika İnstitutu / Azərbaycan

**Assoc. Prof. Dr. İradə KƏRİMOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu / Azərbaycan

**Assoc. Prof. Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti / Özbəkistan

**PhD Tomas SMEDLEY,** Cenevrə Kolleci, Pensilvaniya / ABŞ

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Assoc. Prof. Dr. Elnara MEHBALIYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan

### Deputy chairmen

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland

### Executive secretary

**Assoc. Prof. Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan

### MEMBERS

**Prof. Dr. Vagif ABBASOV**, Institute of Petrochemical Processes named after Academician Y.H.Mammadaliyev of MSERA / Azerbaijan
**Prof. Dr. Aziz SANJAR**, University of North Karolina at Chapel Hill / USA
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Garib MURSHUDOV**, Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Sayyara IBADULLAYEVA**, Institute of Botany of MSERA / Azerbaijan
**Prof. Dr. Nikolay BRIKO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Arzu SARDARLI**, First Nations University of Canada / Canada
**Prof. Dr. Nadir ILHAN**, Ahi Evran University / Turkey
**Prof. Dr. Jihan OZDEMIR**, Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Leyla IMAMALIYEVA**, Baku Slavic University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA**, Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan
**Prof. Dr. Tarana HAJIYEVA**, Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Haji HASANOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS/ Azerbaijan
**Prof. Dr. Dunya BABANLI**, Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Maharram MAMMADLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Leyla VAZIROVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Akbar AGHAYEV**, Sumgayit Statet University / Azerbaijan

**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Juliboy ELTAZAROV**, "Silk Road" International University of Tourism and Cultural heritage / Uzbekistan
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Yagub BABAYEV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Faxraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Yasin BABAYEV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Turhan CHETIN**, Gazi University / Turkey
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Andrei VOLODIN**, Regina University / Canada
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Anar KAZIMOV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN**, Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Yagut HAJIYEVA,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Irada HUSEYNOVA,** Baku State University / Azerbaijan
**Prof. Dr. Zahid MAMMADOV,** Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, Institute of History and Ethnology named after A.A.Bakikhanov of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Konul HASANOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj RUINTAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Urfan HASANOV,** Ganja State University / Azerbaijan
**Assoc. Prof. Dr. Alish AGAMIRZEYEV,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan

**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministryof Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Leyla ALIYEVA**, Karabakh University / Azerbaijan
**Assoc. Prof. Dr. Zabita TEYMURLU**, Baku Engineering University / Azerbaijan
**Assoc. Prof. Dr. Sadiq GARAYEV**, Institute of Botany of MSERA/ Azerbaijan
**Assoc. Prof. Dr. Irada KARIMOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Animal Husbandry Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Garanfil GULIYEVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**PhD Thomas SMEDLEY**, Geneva College in Beaver Falls, Pennsylvania / USA

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**Vaqif Qurbanov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə elmlər doktoru
https://orcid.org/0000-0003-2762-1301
qurbanov43@mail.ru

## Filologiya təlimində ənənəvilik, qeyri-standartlıq və müasirlikdən inteqrativ nəticələrə

***Açar sözlər:*** *ənənəvi təlim, yeni təlim, qeyri-standart təlim, müasir təlimdə inkişafetdiricilik, ifadə, inşa, ədəbi tələffüz, tətbiqi elm, qiymətləndirmə*

***Keywords**: Traditional training, new training, non-standard training, development in modern training, expression, essay, literary pronunciation, applied science, assessment*

Ənənəvilik anlayışını yalnız köhnəlik, yaramazlıq kimi düşünmək olmaz. Ənənəvini məlum olan kimi, müasiri naməlumun dərk edilməsi kimi başa düşmək lazımdır. Hazırda çalışan təcrübəli müəllimlərin əksəriyyəti ənənəvi təlimdən yetişənlər və müasirliyə köklənərək fəaliyyət göstərənlərdir.

Ənənəvi odur ki, tarixdə Nizami Gəncəvi məktəbinin davamçıları olmuş və Nizaminin yazdığı mövzularda əsərlər yazıb özlərini qəbul etdirə və tanıtdıra bilmişlər.

Müasir təlim metodları isə uzun bir tarixi inkişaf keçmiş metodlardır və bu gün uğurla fəaliyyət göstərirlər. Azərbaycan dili təlimində də məhz belədir.

*Qeyd olunan məsələlər barədə tezislərimiz:*

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

1.Aristotel dövründə də ənənəvilikdən və müasir təlimdən bəhs olunmuşdur. Ancaq necə?

2.XI əsr Bağdad Nizamiyyə mədrəsəsində Xətib Təbrizi və hətta ondan da fenomenal yaddaşa malik olan Cəlaləddin Məərrilər çalışırdılar. Halbuki o dövrün təlim metodları indi ənənəvi metodlar sayılır.

3.Təhsilin güclü olması fənn proqramlarının güclü olması ilə şərtlənir. Elm inkişaf etdikcə onun öyrədilməsi, yəni didaktik nəzəriyyələri də (məs: Pestalotsi, Komenski, Uşinski nəzəriyyələri kimi) yaranmışdır.

4.Müasir elm kainatın daha dəqiq və optimallıqla dərk edilməsidirsə, təlim də elmi nailiyyətlərin tətbiqi məqsədi ilə inkişafetdirici xarakterə malik şəkildə qurulmalıdır. Müasir Avropa təhsili dünya təhsili üçün inteqrasiyaedici güc mərkəzidir.

5.Boloniya təhsili çərçivəsində yaradılmış Azərbaycan dili təhsili 4 məzmun xətti əsasında, hər məzmun xətti də həm fəndaxili–məzmundaxili və həm də fənlərarası inteqrasiyalarda fəaliyyət göstərir.

6.Azərbaycan dili və ədəbiyyatının tədrisini ənənəvi ilə müasirliyin əlaqə və vəhdətində qurmaq olar. Çünki bu iki fənnin strategiyası nitq və təfəkkür inkişafı dialektikasına əsaslanır.

7.Ənənəvidən fərqli olaraq, müasir ana dili təlim məqsədləri və standartları əsasında öyrədilir. Bununla da ənənəvidən üstünlüyü ilə seçilir.

8.Klassik metodikadan başlayaraq ifadə və inşa təlimi məntiqin qanunlarına uyğun şəkildə aparılmır.

9.Mətn üzərində aparılan metodik işlər ifadənin inşaya, yaxud esseyə və yaxud da hekayəyə çevrilməsi ilə tamamlanmalıdır. Bu da öz tətbiqi nəticəsinə görə summativ qiymətləndirilməlidir.

**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

10.Dil və ədəbiyyat fənlərinin standartlarının heç birində (I-XI siniflər üzrə) "əzbər söyləyir", "bir parçanı əzbərdən deyir" kimi nə meyar, nə də standart var. Ümumiyyətlə, fənn kurikulumlarında belə bir təlim məqsədi nəzərdə tutulmursa, dərsliklərdə nəzm əsərlərindən ibarət mətnləri öyrətməyin nə mənası olur ?

11.Filoloji fənlərin məzmununda mətn oxusu var; "ədəbi tələffüzlə oxuyur" standartının reallaşdırılmasına əhəmiyyət verilmir (Bax: 1; 2). Ənənəvi təlimdə isə bunlar var idi. Əzbər öyrənmək və söyləmək gələcəyin hafizlərini, şairlərini yetişdirirdi. Bəs indi necə etməli? Standartlara yaradıcı yanaşmaq, ənənəni inteqrasiya etmək lazım deyilmi?

12.Qeyri-standart təlimdən innovasiya kimi istifadə olunur. Kütləviləşməsinə ehtiyac var (Bax:3). Fənn kurikulumunda olmayan zəruri detallardan istifadə etmək, təlim işini ənənəviləşmiş ardıcıllıqdan daha zərurisinə çevirməklə çox şeyə nail olmaq mümkündür. Məsələn, standartlarda "əzbər söyləyir" yoxdur, nəzmlə verilmiş mətni: "Qaranquş balaları", "Ayı və şir", "Qarğa və bülbül", "Az danışmağın gözəlliyi" və s. kimi mətnləri əzbər söyləməyə görə qiymətləndirmək də MMV-lərdəki mövcud ardıcıllıqdan fərqli olaraq, qeyri-standart detaldır.

Həmkarlarımız qarşısında bu tezislərimizi faktiki nümunələrlə şərh etməklə biz sadalanan problemlər barədə onları düşündürməyi nəzərdə tutmuşuq.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

**Həcər Hüseynova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə elmlər doktoru
https://orcid.org/0000-0002-3223-427X
hacerhuseynova@mail.ru

# Azərbaycan dili dialekt və şivələrinin funksional cəhətləri

***Açar sözlər:*** *dil, region, coğrafiya, əlaqə, sosial, tarix*
***Keywords:*** *language, region, geography, connection, social, history*

Nəzəri dilçiliyin ən aktual məsələlərindən biri dialektologiya, dialektoloji tədqiqatlardır. Dialektologiya müəyyən bir dilin yerli-məhəlli danışığını, şivələrini, onların mənşəyini, dil sistemindəki mövqeyini, regional və sosial xüsusiyyətlərini, funksional cəhətlərini və digər məsələlərini tədqiq edir.

Altay dilinin türk dilləri ailəsinə daxil olan Azərbaycan dilinin də müxtəlif dialekt və şivələri vardır. Həmin nitq formaları ədəbi dili tamamlayan, xalqın nitq mədəniyyətini əks etdirən, eyni zamanda, ədəbi dili qidalandıran rəngarəng sistemə malikdir. Çünki ədəbi dildə müəyyən anlayışı ifadə etmək üçün tapa bilmədiyimiz söz və ya ifadə hər hansı bir dialektdə mütləq qaydada mövcud olur. Onu arayıb tapmaq və ədəbi dilə daxil etmək olar. Hətta 2025-ci ilin noyabr ayında AMEA-nın 80 illik yubiley tədbirində Cənab Prezident İlham Əliyevin çıxışında da xüsusilə diqqətə çatdırıldı ki, “...dilimizdə olmayan bir söz və ya ifadə dialekt və şivələrimizdə mütləq ki, vardır. Onu tapıb ədəbi dilə daxil etmək lazımdır. Dialekt-şivə materiallarında belə bir söz tapılmadıqda qohum olduğumuz digər türk dillərinə

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

müraciət etmək lazımdır. Əgər orada da olmasa, o zaman əcnəbi dillərə müraciət etmək olar."

Prezidentin çıxışında Azərbaycanda elmin inkişaf etdirilməsi dövlətin əsas inkişaf strategiyasının tərkib hissəsi olduğu vurğulanıb. Dilin dövlətin strateji məsələsi olduğu diqqətə çatdırılıb və alınma söz məsələsində diqqətli davranmağın zəruriliyi fikri səsləndirilib. Dilin öz sözünün olması şəraitində əcnəbi sözlərin işlədilməsi "ya səhvdir, ya təxribatdır" adlandırılıb.

Məlumdur ki, dialekt daha geniş ərazini əhatə edir. Şivə isə dialektin tərkibində kiçik bölgəyə məxsus spesifik danışıq tərzidir. Lakin hər bir halda bu dil vahidləri özündə mənsub olduğu xalqın tarixini, etnoqrafiyasını, mədəniyyətini, uzaq keçmişini əks etdirir. Bəzən bir neçə şivə birləşərək dialekt qrupu yarada bilir. Eyni zamanda dilin inkişafında baş verən fonetik, leksik, qrammatik inkişaf, dəyişikliklər dialektlərdə daha aydın şəkildə izlənilir. Qrammatik sistemin müxtəlifliyi, dilin derivatoloji cəhətləri, müxtəlifliyi burada daha aydın müşahidə edilir. Ədəbi dillə dialektlərarası kontaktın anlaşılması üçün imkanlar yaranır.

Dialekt və şivələrin dildə ilk funksiyası kommunikativlik funksiyasıdır, identikliyidir. Ünsiyyət prosesində dialekt və şivələr sosial və regional kimliyi, həmin ərazidə doğulub böyüyən insanların sosial mənsubiyyətini formalaşdıran element kimi çıxış edir. Ədəbi-bədii nümunələrdə bir çox hallarda yerli sosial həyatı, milli-mədəni dəyərlərin ifadə edilməsi vasitəsi olur, yəni hadisələri daha canlı təsvir edir. Dialektoloji materiallar ağız ədəbiyyatının, etnoqrafiyanın ifadəçisi kimi çıxış edir.

Bundan başqa, dialektlərdə dilin, dil vahidlərinin qədim variantları da qorunub saxlanılır ki, bu da sinonimiyanın inkişafına səbəb olur, variasiyalar yaradır və dili zənginləşdirir.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

Dilimizin tarixi keçmişini dialektləri tədqiq edərkən tapmaq mümkündür. Elə məhz belə mühafizəkarlıq xüsusiyyətlərinə görə getdikcə dialektoloji tədqiqatlar genişləndirilir.

Ədəbi dil və regional dillər arasında daim əlaqələr yaranır, biri digərinin inkişafına səbəb olur. Ədəbi dildən dialektlərə, yaxud da əksinə leksik vahidlər keçərək qarşı tərəfin leksikasını zənginləşdirir. Bu qarşılıqlı təsir dialektologiyanın praktik əhəmiyyətini təmin edir. Ədəbi dil və dialektlərin arasındakı funksional və sosial sərhədlərin təyin edilməsinə yardım edir.

Dilimizin dialekt və şivələrinin sosial funksiyaları şoxşaxəlidir və coğrafi-regional ünsiyyətə, milli kimlik məsələsinə, mədəni irsin qorunmasına, dilin tarixi inkişafının izlənməsinə, ədəbi dil ilə qarşılıqlı əlaqənin öyrənilməsinə yönəlmiş ciddi addımlardır. Bu funksiyalar yalnız dilin coğrafi dəyişkənliyi deyil, eyni zamanda, sosial-mədəni cəhətlərini ehtiva edir.

Çağdaş dialektoloji araşdırmalar bu sahəyə yeni yanaşmalar tələb edir, müasir üsulların, metodların tətbiqini aktuallaşdırır. Bu zaman dialektlərin dilin ümumi sistemindəki rolu, mövqeyi də müəyyənləşir. Dialekt və şivələrin dərin, sistemli tədqiqi Azərbaycan dilçiliyinin gələçək inkişafı üçün aktualdır.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

**Sevinc Sadıqova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-8720-3262
sevincsadigova@gmail.com

# İşgüzar kommunikasiyanın spesifik cəhətləri

***Açar sözlər:*** *işgüzar, effektiv, dil, kommunikasiya*
***Keywords:*** *business, effective, language, communication*

Məzmun və məqsədindən asılı olaraq, kommunikasiya işgüzar və qeyri-işgüzar kommunikasiya kimi səciyyələndirilir. *Qeyri-işgüzar kommunikasiya* şəxsi ünsiyyətdir, insanın daxili aləmi ilə bağlıdır; insanı əhatə edən mühitdə baş verənləri müzakirə edərək öz münasibətini bildirməsi, insanlarla fikirlərini bölüşməsi, həyatı dərketmə ilə bağlı mülahizələri və s. bura aiddir. *İşgüzar kommunikasiya* peşəkar fəaliyyətin tərkib hissəsi olmaqla, onun keyfiyyətini, effektivliyini artırmağa istiqamətləndirilir. N.Məmmədli qeyd edir: "İşgüzar kommunikasiya işgüzar münasibətlərin qarşılıqlı təzahürüdür, informasiyanın müxtəlif forma və məzmununda insanları və xidmətləri əlaqələndirən nitq sözünün sinonimi və texnologiyasının komponentidir. Lakin kommunikasiya bir informasiya ötürücüsündən məlumatın qəbul edən tərəfdən alınmasıdırsa, işgüzar kommunikasiya insanlar arasında nitq mübadiləsidir". *Məzmununa görə* kommunikasiyanı aşağıdakı kimi qruplaşdırmaq olar: maddi – iş fəaliyyətinə aid əşya və məhsul mübadiləsi; koqnitiv – bilik mübadiləsi; motivasiyaedici – məqsədlərin, maraqların, motivlərin, tələbatların mübadiləsi; fəaliyyətyönümlü – hərəkətlərin, bacarıqların, vərdişlərin mübadiləsi. *Ünsiyyət vasitələrinə görə* kommunikasiyanı belə qruplaşdırmaq olar: bilavasitə – canlı

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

varlığa məxsus orqanlar vasitəsilə (əllər, baş, bədən, səs telləri və s.) həyata keçirilən kommunikasiya; bilvasitə – məxsusi vasitələr və alətlərin istifadəsilə əlaqədar olan kommunikasiya; birbaşa – ünsiyyət aktında iştirak edən şəxslərin bir-biri ilə şəxsi əlaqələri və bilavasitə qavrayışlarını nəzərdə tutan kommunikasiya; dolayı – başqa şəxslərin vasitəçiliyi ilə həyata keçirilən kommunikasiya. İşgüzar kommunikasiya adi, qeyri-işgüzar ünsiyyətdən müəyyən əlamətlərinə görə fərqlənir və bu fərqləri müəyyənləşdirən bir sıra spesifik cəhətlər mövcuddur. İşgüzar kommunikasiyanın spesifik cəhətlərindən biri iqtisadi maraqların qarşılıqlı əlaqəsinin və sosial tənzimləmənin *hüquqi çərçivədə* həyata keçirilməsidir. İnsanlar bu və ya digər sahədə qarşılıqlı əməkdaşlıqlarını hüquqi cəhətdən rəsmiləşdirmək üçün əksər hallarda işgüzar ünsiyyətə daxil olurlar. İşgüzar ünsiyyətin digər spesifik xüsusiyyəti onun *reqlamentləşdirilməsi*, yəni müəyyənləşdirilmiş qaydalara və məhdudiyyətlərə tabe olmasıdır. Bu qaydalar işgüzar ünsiyyətin tipinə, formasına, rəsmiyyət dərəcəsinə və ünsiyyətdə olanların qarşısında dayanan konkret məqsədlərə görə müəyyənləşdirilir. Milli-mədəni ənənələr, ictimai davranış normaları da bu qaydaların müəyyənləşdirilməsində rol oynayır. Onlar protokol qaydaları şəklində qeydə alınır, sosial davranışın ümumməqbul normaları kimi, etiket tələbləri kimi, ünsiyyətin məhdud zaman çərçivəsində mövcud olur. İşgüzar ünsiyyətin xüsusiyyətlərinə iştirakçıların nəticələrə görə yüksək *cavabdehliyi* də aiddir. Uğurlu işgüzar əməkdaşlıq bir çox hallarda seçilmiş ünsiyyət strategiyası və taktikası ilə, yəni danışığın məqsədini düzgün formalaşdırmaq, iş ortaqlarının maraqlarını təyin etmək, öz şəxsi mövqeyini əsaslandırmaq bacarığı ilə müəyyənləşir. Əgər işgüzar ünsiyyət qeyri-effektiv olarsa, bu, işin özünün uğursuzluğuna gətirib çıxara bilər. işgüzar ünsiyyətdə məsuliyyət, mütəşəkkillik, mənəvi-etik norma və prinsiplərə riayət edilməsi böyük əhəmiyyət kəsb edir.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

**Məsmə İsmayılova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-8225-451X
ismayilovamasma@gmail.com

# Dialoqlar ünsiyyət forması kimi

***Açar sözlər***: *dialoq, ünsiyyət, kommunikasiya, diskurs, qarşılıqlı təsir*
***Keywords:*** *dialogue, community, communication, discourse, speech activity*

Müasir dilçilikdə və kommunikasiya nəzəriyyəsində *dialoq ünsiyyətin ən əsas və universal formalarından biri* kimi qəbul olunur. İnsanların sosial qarşılıqlı əlaqəsi, fikir mübadiləsi və emosional münasibətləri məhz dialoji ünsiyyət vasitəsilə reallaşır. Dialoq təkcə informasiyanın ötürülməsi prosesi deyil, eyni zamanda, *adresant və adresat arasında qarşılıqlı təsirə əsaslanan mürəkkəb kommunikativ aktdır.* Bu prosesdə nitqin referensial, emosional, praqmatik və sosial komponentləri vəhdət təşkil edir.

Dialoji ünsiyyət nitqin monoloji formalarından fərqli olaraq, dinamiklik, qarşılıqlı reaksiya, situativlik və subyektivlik xüsusiyyətləri ilə seçilir. Dialoqda danışan və dinləyən rolları daim dəyişir, bu isə ünsiyyətin canlı və çevik xarakter almasına səbəb olur. Məhz bu xüsusiyyətlər dialoqu dilin funksional imkanlarını ən dolğun şəkildə üzə çıxaran ünsiyyət forması kimi səciyyələndirir.

Funksional və kommunikativ dilçilik nümayəndələri – Ş.Balli, R.Yakobson, E.Benvenist, eləcə də diskurs nəzəriyyəsinin əsas simalarından biri olan T.van Deyk – dialoji nitqi

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

*ünsiyyətin psixoloji, sosial və idraki aspektləri ilə əlaqəli şəkildə* araşdırmışlar. Bu yanaşmalar dialoqu yalnız dil vahidlərinin ardıcıllığı kimi deyil, *konkret situasiyada, müəyyən məqsəd və niyyətlə reallaşan kommunikativ fəaliyyət* kimi izah etməyə imkan verir.

Bu baxımdan, dialoqların ünsiyyət forması kimi tədqiqi dilin funksional mahiyyətinin, insan münasibətlərinin və sosial qarşılıqlı təsirin daha dərindən anlaşılması üçün mühüm əhəmiyyət daşıyır. Mövzunun araşdırılması həm nəzəri dilçilik, həm də praqmatika, diskurs analizi və kommunikasiya elmi üçün aktual məsələlərdən biridir.

Ünsiyyət fenomeni humanitar elmlər sistemində fundamental kateqoriyalardan biri kimi çıxış edir və insanın sosial-mədəni varlıq kimi formalaşmasının əsas determinantlarından hesab olunur. Dilin funksional təbiəti, onun sosial şüurun ifadə vasitəsi kimi çıxış etməsi və intersubyektiv münasibətlərin qurulmasındakı rolu ünsiyyət anlayışının çoxaspektli şəkildə araşdırılmasını zəruri edir. Bu kontekstdə dialoq ünsiyyətin yalnız struktur forması deyil, eyni zamanda, semantik qarşılıqlılığa, praqmatik məqsədyönlülüyə və diskursiv dinamizmə əsaslanan mürəkkəb kommunikativ akt kimi dəyərləndirilir.

Dialoq anlayışının elmi-nəzəri əsasları antik fəlsəfi düşüncəyə gedib çıxır. Sokratik dialoq modeli idrak prosesinin interaktiv xarakterini ön plana çıxararaq biliklərin monoloji ötürülməsindən imtina edir. Platonun dialoqları dialoqu ontoloji və qnoseoloji problematika ilə əlaqələndirərək onu həqiqətin axtarış metodu kimi təqdim edir. Sonrakı mərhələlərdə dialoq anlayışı Hegel fəlsəfəsində dialektik qarşıdurma və inkişaf prinsipi ilə əlaqələndirilmiş, bu isə dialoqun yalnız ünsiyyət forması deyil, düşüncə mexanizmi kimi də şərh olunmasına zəmin yaratmışdır.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

XX əsrdə dialoq anlayışı humanitar elmlərdə yeni metodoloji status qazanmışdır. M.M.Baxtinin dialogizm konsepsiyası dialoqu dilin və mədəniyyətin ontoloji mövcudluq forması kimi əsaslandırmışdır. Baxtinə görə, dil mahiyyət etibarilə dialojidir və hər bir söz əvvəlki və sonrakı sözlərlə semantik qarşılıqlı əlaqə şəraitində mövcud olur. Bu yanaşma dialoqu ayrıca nitq forması deyil, diskursiv reallığın təşkilati prinsipi kimi təqdim edir. Eyni zamanda, Y.M.Lotmanın semiotik konsepsiyasında dialoq mədəniyyətlərarası ünsiyyətin əsas mexanizmi kimi izah olunur və məna yaradılmasının başlıca şərti hesab edilir. Dilçilik baxımından dialoji nitq monoloji nitqdən struktur, funksional və praqmatik xüsusiyyətlərinə görə fərqlənir. Ş.Balli, R.Yakobson, E.Benvenist kimi alimlərin funksional dilçilik və kommunikativ akt nəzəriyyələri dialoji nitqin adresant–adresat münasibətləri, referensial və emosional komponentləri, həmçinin, nitq aktlarının qarşılıqlı asılılığı kontekstində təhlilinə imkan yaratmışdır. Xüsusilə J.Ostin və J.Sörlün nitq aktları nəzəriyyəsi dialoqu praqmatik fəaliyyət kimi dəyərləndirərək onun illokutiv və perlokutiv təsir mexanizmlərini ön plana çıxarır. Psixolinqvistik aspektdən dialoq insan təfəkkürünün və şüurunun formalaşmasında mühüm rol oynayır. L.S.Vıqotskinin mədəni-tarixi nəzəriyyəsinə əsasən, fərdin idrak fəaliyyəti ilkin olaraq sosial müstəvidə, yəni dialoji ünsiyyət şəraitində təşəkkül tapır və sonradan daxili nitq formasına transformasiya olunur. Bu baxımdan dialoq təkcə ünsiyyət aktı deyil, həm də koqnitiv strukturlaşdırma mexanizmidir. A.R.Luriya və A.A.Leontyevin fəaliyyət nəzəriyyəsi də dialoji nitqin psixoloji əsaslarının izahında mühüm elmi baza yaradır. Sosioloji və fəlsəfi kontekstdə dialoq J.Habermasın kommunikativ fəaliyyət nəzəriyyəsində rasional anlaşmanın və sosial konsensusun əsas şərti kimi təqdim olunur. Habermasa görə, dialoji ünsiyyət normativ legitimliyin və demokratik icti-

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

mai münasibətlərin formalaşmasında həlledici rol oynayır. Eyni zamanda, E.Husserl və M.Buberin intersubyektivlik və "Mən–Sən" münasibətləri haqqında ideyaları dialoqu insan münasibətlərinin ekzistensial əsası kimi şərh edir. Müasir diskurs nəzəriyyəsi çərçivəsində dialoq kontekstual, situativ və interaktiv xüsusiyyətləri ilə xarakterizə olunur. T.Van Deyk və N.Fairklounun diskurs analizinə dair tədqiqatları dialoqu sosial praktikaların dil vasitəsilə reallaşması kimi dəyərləndirir. Bu yanaşma dialoji ünsiyyətin ideoloji, institusional və mədəni faktorlarla qarşılıqlı əlaqəsini üzə çıxarır. Rəqəmsal kommunikasiya mühitində dialoqların transformasiyası isə M.Kastelsin şəbəkə cəmiyyəti nəzəriyyəsi kontekstində xüsusi aktuallıq qazanır. Tədqiqat mövzusunun aktuallığı dialoqların müasir kommunikativ mühitdə artan funksional yükü ilə müəyyən olunur. Qloballaşma, multikulturalizm və rəqəmsallaşma şəraitində dialoji ünsiyyət sosial inteqrasiya, mədəni qarşılıqlı təsir və identiklik formalaşması proseslərinin əsas mexanizmlərindən birinə çevrilmişdir. Bu reallıq dialoqların ünsiyyət forması kimi kompleks, multidissiplinar yanaşma əsasında araşdırılmasını zəruri edir. Tədqiqatlar göstərir ki, dialoqların funksional xüsusiyyətləri aşağıdakı prinsiplər üzərində qurulur: 1.*Qarşılıqlı təsir və dinamika* – danışan və dinləyən rolları daim dəyişir, bu da ünsiyyətin canlı və adaptiv xarakterini təmin edir. 2.*Rasional anlaşma və konsensus* – J.Habermasın nəzəriyyəsi göstərir ki, dialoq vasitəsilə iştirakçılar ortaq anlaşma və sosial konsensus yarada bilirlər. 3.*Mədəni-tarixi kontekst* – L.Vıqotskiyə görə, dialoq və sosial ünsiyyət fərdi şüurun və daxili nitqin formalaşmasında həlledici rol oynayır. 4.*Funksional və emosional aspektlər* – Ş.Balli və R.Yakobsonun əsərlərində vurğulandığı kimi, dialoq həm ifadəedici, həm də informativ funksiyaları özündə əhatə edir.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

Beləliklə, dialoqlar *ünsiyyətin mərkəzi vasitəsi* olmaqla, həm fərdi, həm də sosial inkişaf üçün vacibdir. Onlar dilin funksional, sosial və koqnitiv aspektlərini birləşdirir, qarşılıqlı anlaşma və əməkdaşlıq üçün zəmin yaradır. Dialoqların öyrənilməsi *funksional dilçilik, kommunikativ nəzəriyyə, psixologiya və pedaqogika* sahələrində praktiki və nəzəri əhəmiyyət kəsb edir.

Yekun olaraq, dialoqlar ünsiyyətin yalnız vasitəsi deyil, həm də sosial, mədəni və koqnitiv münasibətlərin tərkib hissəsi kimi qiymətləndirilməli və tədqiq olunmalıdır. Dialoqların ünsiyyət forması kimi tədqiqi dilçilik, fəlsəfə, psixologiya və sosiologiyanın kəsişməsində yerləşən mühüm elmi problemdir. Dialoqun struktur-semantik, praqmatik və diskursiv xüsusiyyətlərinin sistemli şəkildə öyrənilməsi ünsiyyət nəzəriyyəsinin inkişafına, eləcə də müasir sosial-kommunikativ proseslərin daha dərindən anlaşılmasına mühüm töhfə verə bilər.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

**Aynurə Quliyeva**
Naxçıvan Dövlət Universiteti
sənətşünaslıq üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0009-4292-2701
aynurequliyeva8887@gmail.com

# Asəf Zeynallının yaradıcılığına bir nəzər

***Acar sözlər:*** *musiqi, milli, xalq, bəstəkar, muğam, əsər*
***Keywords****: music, national, folk, composer, mugham, work*

XX əsri Azərbaycan musiqi mədəniyyəti tarixində yeni inkişaf istiqamətinin formalaşdığı dövr kimi xarakterizə etmək olar. Həmin dövrdə xüsusilə neft sənayesinin paytaxtı olan Bakı Avropanın bir sıra dövlətlərinin və Rusiya İmperiyasının diqqət mərkəzində idi. Bu öz-özlüyündə Bakının Qafqazın mədəniyyət mərkəzinə çevrilməsini şərtləndirən vacib ictimai-siyası hadisə idi. Bakının XX əsrin ilk onilliklərində belə bir statusa malik olması musiqi mədəniyyətinə də təsir edir. Bütün bunlar digər mədəni nailiyyətlərlə yanaşı, 1908-ci ildə Z.Tağıyev teatrında Ü.Hacıbəylinin yazmış olduğu "Leyli və Məcnun" operasının səhnələşməsi ilə nəticələnir. "Leyli və Məcnun" operası Avropa klassik musiqisində bilinən forma və janrların tez bir zamanda milli nümunələrinin yaranmasının zəminini hazırladı. Bu bir tək milli bəstəkarlıq məktəbi nümayəndələrinin yaradıcılığında opera kimi mürəkkəb inkişafa malik musiqili səhnə dramlarının forma janr xüsusiyyətlərinin mənimsənilməsi deyil, Avropa musiqisindən bilinən bütün janrların ilk milli nümunələrinin yaranması prosesinin əsasını qoydu, ən başlıcası isə bu əsərlərdə milli təfəkkrün ifadə formalarının meydana gəlməsinə böyük təkan verdi. Digər janrlar kimi fortepiano musiqisi janrında yazılan əsərlərdə milli təfəkkürün ifadəsi xalq musiqisi, milli

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

lad-məqam əsaslarına istinadı yetişdirdi ki, bu da bəstəkar yaradıcılığında milli üslub və ona xas cəhətlərin təzahürü demək idi.

Məlum olduğu kimi milli fortepiano musiqisinin yaranması görkəmli bəstəkar A.Zeynallının adı ilə bağlıdır. A.Zeynallı xalq musiqisi sahəsində dərin biliklərə malik sənətkarlardan olmuşdur. Müəllimi Ü.Hacıbəylinin yaradıcılıq yolunu davam etdirən, onun kimi xalq musiqisi və milli lad intonasiyalarından yaradıcı formada bəhrələnən A.Zeynallı yazmış olduğu fortepiano əsərlərində bu istiqamətdən çıxış etmiş və xalq musiqisi, milli lad qanunauyğunluqları vasitəsilə əsərlərinin məzmununu zənginləşdirməyi bacarmışdır. Bəstəkarın xalq musiqisi nümunələri və muğam elementlərindən bəhrələnməsi fərdi yaradıcılıq üslubundan irəli gəlib, onun yaradıcılığının əsasına çevrilmişdir. Təsadüfi deyil ki, bu haqda R.Rzaquliyeva yazır: “A.Zeynallı öz yaradıcılığında Azərbaycan məqamlarına istinad etmişdir, amma yanlış təcrübə mənasında yox, o, bəzən məqamların adlarından və bölmələrindən çıxış edərək öz bəstələrinə adlar verirdi”. Buna misal olaraq fortepiano üçün yazılan “Çahargah” pyesini göstərmək olar. Pyesdə bəstəkar eyni adlı məqamın həyəcanlı, ehtiraslı xarakterini açmağı bacarmışdır. Əsər xalq musiqi nümunələri əsasında yazılmış fortepiano əsərlərinin ilk ən parlaq nümunələrindəndir.

A.Zeynallının “9 fuqa”sı həmin janrın özünəməxsus qanuna-uyğunluqlarını daşıyan maraqlı məcmuədir. Burada fuqaların əsasını milli lad-məqam elementləri təşkil edir. A.Zeynallı silsilədə “Rast”, “Bayatı-Şiraz” məqamlarının səs sırası və inkişaf prinsipindən bəhrələnmişdir.

9 fuqa Asəf Zeynallının polifonik ustalığının ən gözəl nümunələridir. Bu əsərlərdə bəstəkar Avropa musiqisinin mükəmməl forma xüsusiyyətlərinin daşıyıcı olan fuqa janrında

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

klassik prinsiplərlə Azərbaycan xalq musiqisi cəhətlərini qovuşdurmuşdur.

A.Zeynallının şəxsi arxivində olan fuqalardan ilki üçsəslidir. O, "Rast" məqamına əsaslanır. Ölçüsü 2/4-dür. Burada sual cavab T-D münasibətində özünü nümayiş etdirir. Mövzu "re" mayəli "Rast"da təqdim olunur. Ona cavab isə "lya" mayəli "Rast"da keçir. Lakin mövzu ilə cavab arasında, yəni mövzunun ikinci dəfə keçidi verilməzdən əvvəl intermediyalar var. İşlənmə bölməsində isə modulyasiyalar keçidi yaranır və mövzu "fa diyez", "si", "mi" mayəli "Rast" məqamında verilir. Reprizada yenidən ilk təqdimatdakı lad-məqam əsasına qayıdılır.

Göründüyü kimi, İ.S.Bax ənənələrindən yola çıxaraq fuqa janrında klassik inkişaf prinsipi izləyən bəstəkar elə ilk fuqadan major-minor əlaqəsini milli lad-məqam əsasları ilə əvəz edir.

A.Zeynallının fuqaları arasında yalnız daha mükəmməl olan iki fuqası nəşr olunub. Buna görə də, əslində, onun III fuqası nəşr olunan fuqalardan I olaraq təqdim edilir. Pyes "Qoyunlar" xalq mahnısına işləmədir. Bu mahnı bəstəkarın fortepiano üçün yazılmış "Uşaq süitası"nda da özünün musiqili ifadəsini tapmışdır. I fuqada isə o, həmin xalq mahnısı əsasında milli polifonik üslublu maraqlı əsər yaratmışdır. Beləliklə, A.Zeynallı bu fuqada təkcə lad-məqam əsası milli prinsiplərə tabe etmir, eyni zamanda xalq melosunun incəliyindən də bəhrələnir.

Göründüyü kimi, A.Zeynallının 9 fuqasından yalnız birində "Rast" məqamı ilə qarşılaşırıq. Digər 8 fuqada isə o, "Bayatı-Şiraz" məqamından istifadə etmişdir. "Bayatı-Şiraz" məqamının özünəməxsus xarakteri, insanda qəmgin hisslər oyatması bəstəkar üçün öz hiss və duyğularını ifadə etməkdə əsas vasitə olub. "Rast" məqamı isə gümrah, mərdlik ifadə edən xarakteri ilə onun diqqətini cəlb etmişdir. Beləliklə, A.Zeynallı milli polifonik üslubun gözəl nümunələrindən olan 9 fuqasında milli lad-məqam əsası ilə zəngin musiqili lövhələr yaratmışdır. Bu

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

vasitə ilə də musiqili təfsirdə milli təfəkkürün ifadə imkanlarını özünəməxsus yaradıcılıq üslubu ilə diqqətə çatdırmışdır.

A.Zeynallı eyni zamanda "Uşaq süitası" fortepiano silsiləsi ilə Azərbaycanda uşaq musiqisi repertuarının da banisi kimi çıxış edir. Azərbaycanda fortepiano ifaçılarının repertuarında əhəmiyyətli yer almış "Uşaq süitası" silsiləsi milli fortepiano musiqisinin ən gözəl nümunələrindən biridir. Süita özündə miniatür xarakterli 6 pyesi birləşdirir. Bunlar "Kuklaların yürüşü", "Uşaq və buz", "Rəqs", Oyun", "Qoyunlar", "Deyişmə" pyesləridir. Göründüyü kimi, pyeslər proqram başlığına malikdir. Bu proqram başlıqları hər bir pyesin məzmununun mahiyyətini açır, eyni zamanda, pyeslərin quruluşu, melodiyası, inkişaf istiqaməti bəstəkarın məzmunda ifadə etmək istədiyi düşüncələr zəncirini dinləyiciyə düzgün şəkildə çatdırır. Silsilədə toplanan pyeslər müxtəlif xarakterlidir. Vahid kompozisiyada birləşən silsilənin əsas cəhəti hər pyesdə lad əsası kimi çıxış edən xalq musiqisi elementlərindən istifadə olunmasıdır. Hər bir pyes parlaq obrazlı olub, xalq musiqisinin xarakterik çizgilərini özündə təcəssüm etdirir.

"Uşaq süitası" silsiləsinə daxil olan pyeslərdə bəstəkar təsvirçilik prinsipindən məharətlə bəhrələnmişdir. Bu prinsip obrazlar dairəsinin dinləyici tərəfindən düzgün qavranılmasına şərait yaradır.

Silsilənin mərkəzinə doğru pyeslər rəngarəng xarakter alır. III pyes olan "Rəqs"də artıq janrın xarakterik xüsusiyyətləri özünü nümayiş etdirir. Pyes Azərbaycan xalq rəqsi ruhunda yazılmışdır. Burada bəstəkar sırf xalq rəqsi melodiyalarından bəhrələnməmiş, özünün fərdi yaradıcılıq təxəyyülü ilə milli rəqs nümunəsi yaratmışdır. Silsilənin "Oyun" adlandırılan IV nömrəsində A.Zeynallı xalq yaradıcılığında əhəmiyyətli sahələrdən olan aşıq musiqisi intonasiyalarından bəhrələnmişdir. Obrazın açılmasında bu cəhət xüsusi olaraq diqqət cəlb edir.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

Təsadüfi deyil ki, S.Qasımova bu haqda deyir: "Oyun" adlanan dördüncü miniatür-skertso-rəqs xarakterli zərif pyesdir. Burada obrazın açılması aşıq instrumental yaradıcılığı üçün səciyyəvi olan ifadə vasitələri kompleksi ilə əldə olunur". "Uşaq süitası" silsiləsinə daxil olan bütün pyeslər özündə milli ruh, Azərbaycan xalq melosunun incə intonasiyalarını daşıyır. Bu silsilədə bəstəkar xalq musiqisi elementlərini Avropa klassik musiqisi ənənələri ilə uzlaşdırmışdır.

A.Zeynallı Azərbaycan musiqi mədəniyyətində fortepiano janrında ilk əsərlərin müəllifi olduğu qədər bu janrda yazılacaq əsərlərdə xalq musiqisi və muğam elementlərindən istifadə olunması məsələsini də yaradıcı təfəkkürlə həll etmişdir.

Ümumiyyətlə, Azərbaycan musiqi mədəniyyəti tarixində yaradıcılıq axtarışları ilə zəngin dövr kimi xarakterizə olunan XX əsrin 20-50-ci illərdə əsası Ü.Hacıbəyli tərəfindən qoyulmuş milli bəstəkarlıq məktəbinin gənc nümayəndələri yaradıcılıq sahəsində artıq öz əsərləri ilə yaradıcılıq yollarında ilk nailiyyətlərini əldə etmişlər. A.Zeynallı da milli bəstəkarlıq məktəbinin peşəkar səviyyədə təhsli almış ilk nümayəndəsi kimi müxtəlif janrlarda yazdığı əsərlərində "formaca dünyəvi məzmunca milli"lik istiqamətindən çıxış etmiş və müxtəlif ideya məzmununa malik əsərlər məcmusunu özündə birləşdirən fortepiano musiqisində Avropa klassik musiqisi ənənələri ilə mill lad-məqam ünsürləri, xalq musiqisi elementlərini məharətlə sintez etmişdir. Onun bu istqamətdən çıxışı fortepiano musiqisi janrında yazdığı əsərlərində milli lad-məqam ünsürləri xalq musiqisi, muğam elementlərindən məharətlə istifadə olunması ilə özünün təzahür etdirib, yaradıcılıqda milli üslubun zəngin tərtəflərinin və bu yaradıcılıqda mili təfəkkürün ifadə olunmasının təzahürüdür.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

**Yaqub Səmədov**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ağcabədi filialı
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-1584-9317
yaqub.semedov 63@ mail.ru

# Tədris prosesində tərbiyə işinin təşkilinin əhəmiyyəti

***Açar sözlər:*** *Azərbaycan, tədris prosesi, təlim, texnologiya, tərbiyə işi*
***Keywords:*** *Azerbaijan, educational process, training, technology, educational work*

Azərbaycan təhsilinin Qərb təhsil sisteminə inteqrasiyası, təlim prosesində baş verən yeni keyfiyyət dəyişiklikləri tərbiyə sahəsində də fəaliyyətin müasir dövrün tələblərinə cavab verən səviyyəyə yüksəldilməsini pedaqogika elminin qarşısına mühüm vəzifə kimi qoyur. Unutmaq olmaz ki, müasir təlim texnologiyalarının tələblərinə uyğun tərbiyə işinin təşkili (Bədiyev, 2023) bilik və bacarıqların yaradıcı şəkildə mənimsənilməsini də stimullaşdırır.

Tərbiyə ("tərbiyə" sözü ərəbcə "əl-tərbiyə" sözündən əməl gəlsə də, bu sözün kökündə "rəbb" dayanır. "Rəba" sözünün açıqlamalarından biri də doğru yol göstərmək deməkdir) olduqca mürəkkəb bir prosesdir və yalnız onun prinsiplərinə əməl olunduğu təqdirdə təhsildə uğur əldə etmək mümkündür. Digər tərəfdən də tərbiyə işinin təşkilində ailə ilə məktəbin birgə fəaliyyətini də inkar etmək olmaz. Bütövlükdə, təlim prosesində tərbiyə işin mahiyyətindən bəhs edərkən qeyd etmək yerinə düşər ki, təhsil, təlim və tərbiyə qarşılıqlı vəhdətdədir.

Tərbiyənin əsasını tədris prosesində qazanılan bilik, bacarıq və vərdişlər təşkil edir. Tədris prosesində tərbiyə işinin təşkilində şagirdlərin biliyinin obyektiv qiymətləndirilməsi (Dadaşova, 2025, s. 8) də mühüm əhəmiyyət kəsb edir. Görkəmli psixoloq S.A.Rubinşteyn tərbiyəyə yüksək qiymət verərək yazırdı ki, "tərbiyə və inkişaf bir vahid prosesin iki tərəfidir. Uşaq təlim-tərbiyə ala-ala inkişaf edir və inkişaf edə-edə təlim və tərbiyə alır" (Əsayeva, 2023, s. 14).

Tədris prosesində tərbiyə işinin sistemli şəkildə təşkilində müəllimin də üzərinə mühüm və məsul vəzifələr düşür. Belə ki, şagirdlər tərəfindən qavranılan biliyin müntəzəm izlənilməsi, onların idrak fəaliyyətinə nəzarət birbaşa tərbiyə ilə bağlıdır və bu istiqamətdə əldə edilən uğurlar müəllimin ustalığından asılıdır (Cəbrayılov, 2023, s. 193).

Təhsil sahəsində yeni texnologiyaların, məsələn, modul, multimedia, əməkdaşlıq, oyun, layihə (Zeynallı, 2024, s. 15) və sairənin tətbiqi biliklərin mənimsənilməsində xüsusi yeri olan tərbiyəedici təlim prinsiplərinə də yaradıcı yanaşmağı tələb edir. Elmi mənbələrdə tərbiyəedici təlim prinsipləri aşağıdakı şəkildə qruplaşdırılır: 1.İlkin tərbiyə; 2.Yenidəntərbiyə; 3.Özünütərbiyə (Sadıqov, 2008, s. 203).

Beləliklə, tərbiyə tədris prosesində biliklərin mənimsənilməsinin ən mühüm vasitələrindən biridir və onun təlimlə birgə vəhdəti elmi biliklərin mənimsənilməsində baza rolunu oynayır.

## Ədəbiyyat

1. Bədiyev, S. (02.02.2023). Yeni təlim texnologiyalarının tətbiq olunduğu dərslərdə tərbiyə işinin təşkili. https://tehsiljurnali. az/ sagxeberler/ 3208-yeni- tlim-texnologiyalarnn- ttbiq olunduu-drslrd-trbiy-iinin-tkili.html
2. Cəbrayılov, İ. (2023). *Ümumtəhsil məktəblərində tərbiyə*

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

*işinin təşkili*. "CN Poliqrafiya".
3. Dadaşova, Q. (2025). *Tədris prosesində yeni pedaqoji texnologiyaların tətbiqi istiqamətləri.* ADPU-nun nəşriyyatı.
4. Əsayeva, T. (2023). Tərbiyə və şəxsiyyətin inkişafı. *Elmi Tədqiqat. Beynəlxalq elmi jurnal, 3*(1), 12–15.
5. Sadıqov, F. (2008). *Pedaqogika*. Təhsil.
6. Zeynallı, A. (2024). *Müasir təlim texnologiyaları magistrantların müəllimlik fəaliyyətinə hazırlanmalarının vasitəsi kimi*. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı.

**Fidan Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0002-4935-0645
fa.mammadova@adpu.edu.az

# Gənc nəsil və dünyagörüşü

This issue is also reflected in the Decision of the Plenum of the Constitutional Court of the Republic of Azerbaijan on the interpretation of Article 483 of the Code of Administrative Offenses in conjunction with Article 208 of the Criminal Code of the Republic of Azerbaijan. In that Decision, it is emphasized that limiting the range of subjects in the disposition of Article 208 of the Criminal Code to *"heads of organizations"* excluded natural persons engaged in entrepreneurial activity without establishing a legal entity from the scope of subjects of the offense. This, in turn, demonstrated that holding such persons criminally liable under Article 208 of the Criminal Code of the Republic of Azerbaijan could not be considered permissible from the standpoint of the principles of legality and legal certainty. For this reason, the aforementioned position of the Constitutional Court brings to the forefront the principle that criminal liability may arise only on the basis of a corpus delicti expressly provided for by law. This principle is enshrined both in Article 71, paragraph VIII, of the Constitution of the Republic of Azerbaijan and in Article 7 of the European Convention on Human Rights, emphasizing the necessity of defining the boundaries of criminal liability in a clear, precise, and unambiguous normative manner. Thus, pursuant to Article 71, paragraph VIII, of the Constitution of the Republic of Azerbaijan, *"no one shall be held liable for an act which did not constitute an offense at the time it was committed"*. An equivalent safeguard is also expressed in Article 7 of the European Convention on Human Rights: *"No one shall be held guilty of any criminal offence on account of any act or omission which did not constitute a criminal offence under national or*

*Elm və Təhsil Tədqiqatları* **XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 51-56**
*Research in Science and Education* **XII Republican Scientific Conference / 12 february 2026 / 51-56**
**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

*international law at the time when it was committed"*. These constitutional and Convention-level safeguards function as a legal framework preventing the extension of criminal liability to situations not provided for by law. This approach is also reflected in national criminal legislation. Specifically, pursuant to Article 10.4 of the Criminal Code of the Republic of Azerbaijan, "no criminal law shall have retroactive effect in determining whether an act (action or omission) constitutes a crime, in establishing a penalty for such act, in aggravating the penalty, or in otherwise worsening the legal situation of the person who committed the crime".

This provision ensures the principle of legal certainty by establishing that criminal liability can arise only in cases clearly and precisely defined by law in advance, and it precludes any subsequent expansion of criminal responsibility.

The correct determination of the subject in the crime of non-repatriation of foreign currency funds is of critical importance for the proper criminal-legal qualification of the act. This offense falls within the category of crimes with a special subject, based on the characteristics of the subject.

The nature of the object and the social relations protected under Article 208.1 of the Criminal Code of the Republic of Azerbaijan indicates that criminal liability is determined not by a person's formal position, organizational role, or status, but by whether they are the direct bearer of the repatriation obligation. Such liability arises only when the person has really legal and factual capabilities to fulfill the obligation and intentionally evades it.

**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

The amendment to Article 208.1 of the Criminal Code of the Republic of Azerbaijan, dated 26 April 2022, together with the legal position formed by the Constitutional Court of the Republic of Azerbaijan on this matter, confirms that expanding criminal liability through interpretation in the application of theprovision is impermissible. In this regard, the principles of legal certainty and legality are of decisive importance.

*Elm və Təhsil Tədqiqatları* **XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 57-59**
*Research in Science and Education* **XII Republican Scientific Conference / 12 february 2026 / 57-59**
**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

**Nərmin Qocayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0000-9181-4509
narminqojayeva23@gmail.com

# Müstəqillik dövründə Azərbaycan bədii nəsrində xrononimlərin işlənmə xüsusiyyətləri

***Açar sözlər:*** *müstəqillik dövrü, nəsr əsərləri, xrononimlər, semantik xüsusiyyətlər, emosional-ekspressiv təsir*
***Keywords:*** *independence period, prose works, chrononyms, semantic features, emotional-expressive impact*

XX əsrin sonlarında Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi ölkənin ictimai-siyasi, mədəni və ədəbi həyatında əsaslı dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklər bədii ədəbiyyatda, xüsusilə də nəsr janrında zaman anlayışının yeni kontekstdə təqdim olunmasını zəruri etmişdir. Müstəqillik dövrü bədii nəsrində tarixi hadisələr, ictimai transformasiyalar və milli yaddaşın bədii ifadəsi zamanı bildirən xüsusi adlar – xrononimlər vasitəsilə əks olunmuşdur. Xrononimlər müəyyən bir dövrün, tarixi hadisənin adlarını bildirir. Bura əlamətdar günlər, bayramlar, hüzn günləri, ay, həftə, il, fəsil, təqvim adları daxildir. Ktematonimlərin arasında tarixi hadisələri öyrənmək baxımından ən vacib olanı xrononimlərdir. Bədii nəsrdə xrononimlərin əsas funksiyaları zaman-məkan dəqiqliyi yaratmaq, müəllifin əsas ideyasını gücləndirmək, dövrün ruhunu açmaq, emosional-ekspressiv təsir yaratmaqdır. Müstəqillik dövründə bədii nəsr əsərlərində tarixi hadisələrlə bağlı olan günlərin əsas məğzi xrononimlərin məna dairəsində ifadə olunur. Məsələn, *Novruz bayramı, Gül bayramı*, *Qurban bayramı.*

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 57-59
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 57-59
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

Xrononimlərin yaranmasının özünə aid əsasları var. Onomastik vahidlərin bu növünün yaranmasında saylar, isimlər və sifətlər iştirak edir. Sifətlərlə formalaşan xrononimlər: "Qara Yanvar". İsimlərlə yaranan xrononimlər əsasən bayram və gün kimi aydınlaşdırıcı sözlərin köməyilə formalaşıb: "Novruz bayramı", "Gül bayramı", "Qurban bayramı", *"Qurtuluş günü" və s.* Saylarla formalaşan xrononimlərə nümunə olaraq: *1905, 1918-ci il mart, 1920-ci il aprel, 1921 Xiyabani hərəkatının tar-mar edilməsi, 1937, 1946-cı il 21 Azər, 1990-cı il Qara yanvar və s.* Müstəqillik illərinə aid nəsr əsərlərindən Anarın "Ağ qoç, qara qoç" romanından verilən nümunəyə nəzər yetirək: *"Dağın 20 Yanvar, Qarabağ şəhidləri və 1918-ci il mart qurbanları cərgələrindən aşağıda yerləşən Şəhidlər muzeyinin eksponatları, şəkilləri, fotoları, sənədləri XX əsrdə xalqın başına gətirilən bütün müsibətləri əks etdirirdi"*. Məlumdur ki, 20 Yanvar faciəsi xalqımızın yaddaşında hüzn, kədər, qürur və qəhrəmanlıq səhifəsi kimi qalıb. Bu hadisədən sonra müstəqilliyimiz bərpa olundu və xalqımız öz azadlığına qovuşdu. Yazıçı romanda XX əsrdə baş verən digər hadisələr haqqında da məlumat vermiş, tarixi günləri xüsusilə qeyd etmişdir. "Haçansa 26-lar bağı adlanan bu yerdə *1918-ci ilin mart günlərində* minlərlə azərbaycanlı qırmışdılar". Müəllif əsərin əvvəlində Novruz bayramının təntənəli şəkildə keçirilməsini təsvir edir. Burada yazıçı məqsədli şəkildə bu xrononimdən istifadə etmişdir. Çünki Novruz bayramı milli-mənəvi dəyərləri özündə yaşadan milli xalq bayramıdır. *"Oğuz" günlüyü Novruz ərəfəsində türk dünyasından məlumatlar verirdi"*. Elxan Elatlının "Niyə susursan, polkovnik?" romanında da bu xrononimlə qarılaşırıq: *"Əziz oxucularımız, sizi, bütün Azərbaycan xalqını, bütün Türk dünyasını Novruz bayramı münasibətilə təbrik edirik... Arzu edək ki, Azərbaycan xalqı növbəti Novruz bayramını Qarabağda – Cıdır düzündə qeyd etsin"*. Bu nümunələrdə yazıçıların milli

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 57-59
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 57-59
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

bayramımız olan Novruzu xatırlatması xalqımızın inam və düşüncələrini, öz köklərinə bağlılığını əks etdirir.

E.Elatlının əsərində *Gül bayramı* xrononimi ilə qarşılaşırıq. Bu bayram Ulu Öndər Heydər Əliyevin doğum günü münasibətilə təşkil olunurdu. Əsərdə müəllifin bu xrononimdən istifadə etməkdə əsas məqsədi hadisələrin dəqiq tarixini verməklə əsərin daha inandırıcı, real olmasına oxucunu inandırmaqdır. Aqşin Yeniseyin "Tarix və tale" romanında da xrononimlərə rast gəlinir: *"Həm Qurban bayramında qollarını çırmayıb qoç kəsdi, həm də həmin qoçun əti ilə araq içdi".* Bildiyimiz kimi, Qurban bayramı dini bayramdır və tarixi çox qədimdir. Azərbaycanda islam dininin yayılmasından sonra onun ənənəviləşməsi xüsusi hal aldı.

Maraqlı məqamlardan biri də bədii nəsr nümunələrində xrononimlər vasitəsilə yaranan toponimlərdir: *20 Yanvar Prospeki, 15 Eylül Meydanı.* "Mürsəl Paşa prospektiylə *15 Eylül Meydanı*na üz tutdu".

Tədqiqat nəticəsində müəyyən olunur ki, bu dövrün bədii nəsrində xrononimlər emosional-ekspressiv yük daşımaqla oxucunun tarixi hadisələrə münasibətini formalaşdırır, hadisələrin ideya-məzmun dərinliyini artırır və obrazların daxili dünyasının açılmasına xidmət edir. Beləliklə, xrononimlərin funksional və semantik xüsusiyyətlərinin araşdırılması müstəqillik dövrü Azərbaycan nəsrində zaman anlayışının bədii şəkildə mənalandırılmasını daha aydın şəkildə üzə çıxarır və onomastik vahidlərin ədəbi prosesdəki rolunu təsdiqləyir.

*Elm və Təhsil Tədqiqatları* **XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 60-64**
***Research in Science and Education*** **XII Republican Scientific Conference / 12 february 2026 / 60-64**
**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

**Nigar Qasımova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org//0000-0002-2458-2469
gasimovanigar90@gmail.com

# Viktor Hüqonun "Səfillər" əsərinin qısa təhlili

***Açar sözlər:*** *monumental əsər, sosial tənqid, tarixi hadisələr, ədalət və mənəviyyat problemləri, sosial ədalətsizlik, sevgi və fədakarlıq*
***Keywords:*** *monumental work, social criticism, historical events, problems of justice and morality, social injustice, love and sacrifice*

Viktor Hüqonun "Səfillər" əsəri XIX əsr dünya ədəbiyyatının ən mühüm və təsirli romanlarından biri hesab olunur. İlk dəfə 1862-ci ildə nəşr olunan bu monumental əsər həm sosial tənqid, həm tarixi hadisələr, həm də dərin psixoloji insan dramını özündə birləşdirir. Hüqo roman vasitəsilə Fransada cəmiyyətin müxtəlif təbəqələri arasındakı uçurumu, ədalət və mənəviyyat problemlərini, insan ləyaqətinin tapdanmasını və insanın yenidən "insan" olmağa doğru yüksəlişini göstərir.

Əsərin əsas mövzusu sosial ədalətsizlikdir. "Səfillər" romanının əsas ideya xətlərindən biri cəmiyyətdəki sosial ədalətsizliklərdir. Hüqo yoxsulluğu yalnız maddi çatışmazlıq kimi deyil, həm də mənəvi və sistematik bir problem kimi təqdim edir.

Fantina obrazı bunun ən bariz nümunəsidir: cəmiyyət tərəfindən haqsızlıqla kənarlaşdırılmış, övladını böyütmək üçün ən ağır təhqirlərə qatlanan bu qadın, sosial sistemin acımasızlığını və biganəliyini simvolizə edir. Hüqo göstərir ki,

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

cəmiyyət öz zəiflərini müdafiə etmədikcə əsl ədalət bərqərar ola bilməz.

Bu əsərdə Jan Valjan dəyişimin və mənəvi yenilənmənin həqiqi simvoludur.

Romanın əsas personajı Jan Valjan bədii ədəbiyyatda ən təsirli transformasiya nümunələrindən biridir. O, əvvəlcə çörək oğurladığı üçün uzun illər məhbus həyatı yaşamış, sərtləşmiş, cəmiyyətə kin bəsləyən bir insandır. Lakin Müqəddəs Yepiskop Miriel onun həyatında dönüş nöqtəsinə çevrilir. Yepiskopun mərhəməti Valjanın dünyagörüşünü dəyişdirir və o, bir daha cinayətə əl atmamağa, insanlara yardım etməyə qərar verir. Hüqo bu surət vasitəsilə göstərir ki: İnsanı dəyişdirən cəza deyil, mərhəmət və anlayışdır. Jan Valjanın Fantinanı qoruması, Kozettəyə atalıq etməsi, Mariusu xilas etməsi onun mənəvi ucalığının sübutudur.

Əsərin mövzusuna aid olan əsas məsələlərdən biri qanun və mənəviyyat arasındakı qarşıdurmadır. Jan Valjanla Komissar Javert arasındakı qarşıdurma romanda qanunla vicdan, sərtliklə mərhəmət, sistemlə insanlıq arasında gedən mübarizənin simvoludur. Javert üçün qanun mütləqdir — o, düşünür ki, cinayətkar həmişə cinayətkardır və dəyişə bilməz. Valjan isə göstərir ki, insan dəyişir və dəyişə bilər. Bu konflikt çox mühüm sualı gündəmə gətirir: Ədalət nədir – qanunun sərtliyi, yoxsa insanlığın mərhəməti? Sonda Javert Valjanın yaxşılığını qəbul edə bilmir və daxili ziddiyyətlə mübarizə apara bilməyərək intihar edir. Bu, Hüqonun hüquq sisteminin mənəviyyatsız sərtliyinə yönəltdiyi tənqiddir.

Əsərdə sevgi və fədakarlıq mövzusu mühüm yer tutur. Romanda sevgi müxtəlif obrazlarda təcəssüm edir: Kozette – saf və təmiz sevginin, Marius – vətənə və insana bağlı romantik sevginin, Eponina – qarşılıqsız sevginin və fədakarlığın rəmzidir. Eponinanın öz sevgisini gizlədərək Mariusun

xoşbəxtliyi uğrunda fədakarlıq etməsi, romandakı ən təsirli epizodlardan biridir. Hüqo göstərir ki: sevgi insanı yaxşılığa yönəldən, fədakarlıq yaradan ən güclü hissdir.

Əsərdə tarixi və siyasi kontekst vacib rol oynayır. Əsər XIX əsr Fransasında baş verən mühüm hadisələr fonunda yazılıb. Xüsusilə 1832-ci il İyun Üsyanı romanın dramatik kulminasiya nöqtələrindən biridir. Gənc inqilabçılar – Enjolras və onun dostları – azadlıq, bərabərlik uğrunda mübarizə aparan idealist gənclərin simvoludur. Hüqo bu tarixi epizod vasitəsilə göstərir ki, inqilab təkcə siyasi hadisə deyil, həm də gəncliyin ədalət arzusu və idealizmidir.

Əsərin ədəbiyyat və mədəniyyətə çox böyük təsiri olmuşdur. "Səfillər" romanı nəinki yazıldığı dövrdə böyük səs-küy yaradıb, həm də bu günə qədər dünya ədəbiyyatının ən çox oxunan və ən çox səhnələşdirilən əsərlərindən biridir. Roman əsasında çəkilmiş filmlər, seriallar və məşhur musiqili tamaşa (Les Misérables musical) əsərin populyarlığını daha da artırıb. Əsər bu gün də aktualdır, çünki: kasıblıq, sosial bərabərsizlik, ədalət və insan ləyaqəti kimi mövzular hər cəmiyyətdə mövcuddur.

Bədii əsər bizə məlum olan həyat hadisələrinin bədii obraz, bədii təsvir və ifadə vasitələri ilə əksidir, bədii əsər insanlara güclü tərbiyəvi təsir göstərir, onları həyatlarını düzgün qurmağa istiqamətləndirir. Məhz bu cəhətdən "Səfillər" əsəri çox güclü təsir gücünə malikdir. Bu romanda müəyyən dövrə aid zəngin tarixi təsvir və məlumatlar obrazların xarakterinin açılmasına, hadisələrin bir-birini tamamlamasına xidmət edir. Viktor Hüqonun müasiri tənqidçi Küvilye Fleri deyirdi ki, "Səfillər", əslində roman deyil, sosial traktatdır. "Səfillər"də Fransa cəmiyyətində kapitalizm ictimai quruluşunun törətdiyi cinayət, dilənçlik, səfillik, sadə xalqın məşəqqətli, iztirablı həyatı olduqca dolğun və təsirli şəkildə təsvir edilmişdir. Romanın baş

qəhrəmanı Jan Valjan, əslində, keçmiş məhkum olan fransız iş adamı Egen Fransua Vidokun prototipidir. Halbuki əsəri oxuyarkən bu dərəcədə xeyirxah, cəsarətli, fədakar insanın mövcudluğuna inanmaq olmur. Jan Valjan olduqca mərhəmətli, mərd, sevgi dolu ürəyə sahib olan bədii obrazdır. Bu obraz yazıçının yüksək ideyalarından, sənətin bədii-estetik prinsiplə.-rindən irəli gəlir, əsərin tərbiyəvi təsir qüvvəsini artırır. Jan Valjan obrazı insanlarda, xüsusilə gənclərin qəlbində özünütərbiyə rüşeymlərini inkişaf etdirmək gücündə olan bir obrazdır.

"Səfillər" romanını XIX əsr Fransa cəmiyyətinə tutulmuş güzgü hesab edirlər ki, buna görə, vaxtilə Viktor Hüqo çox tənqid edilmişdir. O öz ölkəsini başqa xalqların gözündən salması ilə qınanırdı. Hüqonun bu əsərdə xalqın eyiblərini açıb göstərməsi onun maarifçilik ideyalarından irəli gəlirdi. Hüqo hesab edir ki, cəmiyyətdə müşahidə olunan hər cür çatışmazlıqlar, yaramazlıqlar, nöqsanlar, problemlər tənqid olunmalıdır ki, bunlar düzəlsin, insanlar islah oluna bilsinlər. Çünki ali varlıq sayılan insan və onun cəmiyyəti insan adına layiq olmalıdır. Hüqoya ən çox təsir edən tənqidlərdən biri dostu yazıçı-şair Lamartinin fikirləri olub. O, əsərin adını bəyənməyib, qeyd edib ki, bu roman "Səfillər" deyil, "Günahkarlar" adlandırılmalı idi. O, Viktor Hüqonu hadisələri, faciələri, ümumilikdə insan hisslərini şişirtməkdə günahlandırıb. Bu roman bəzi oxuculara yorucu gələ bilər, çünki əsərin su kimi axdığı yerlərdə kəsilib hansısa tarixi hadisə, kəşflər haqqında danışılır. Ancaq oxucuya yorucu gələn, ağır oxunan hissələr, əslində, hadisələrin sonrakı inkişafına zəmin yaratmaq məqsədi güdür. Məsələn, Parisin yeraltı kanalizasiya sisteminin yorucu təsviri Mariusun başına gələn hadisələr və Jan Valjanın onu məhz həmin kanalizasiyadan çıxartması ilə əlaqədar təsvir edilmişdir.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

Romantizm cərəyanının məhsulu olan bu bədii əsərin əsas məqsədi oxucunu maarifləndirmək, ona tərbiyəvi təsir göstərməkdir. İnsan ali varlıq olsa da, xarakteri mürəkkəb və zidiyyətlidir. İnsanın ahəngdar tərbiyəsi dövrün əsas tələbi kimi meydana çıxmışdır. "Səfillər" romanının insanda geniş dünyagörüşün, müsbət əxlaqi keyfiyyətlərin formalaşmasında müstəsna rolu və əhəmiyyəti vardır. Vicdan, yoxsa qanunlar məsələsi romanda müəllif tərəfindən heyrətamiz şəkildə verilmişdir. Viktor Hüqo Tenardye obrazı ilə pula hərisliyin insanı necə rəzil vəziyyətə saldığını özünəməxsus bədii ustalıqla qələmə almışdır. Parisi küçə-küçə lağımına, binasına, kilsəsinə, hətta sakinlərin üzlərindəki ifadəsinə qədər təsvir edən "Səfillər" romanını eyni zamanda "Fransa paytaxtının ən dəqiq rəsm tablosu" da adlandırırlar. Bu da Viqtor Hüqonun realist movqeyi ilə bağlıdır. Əsərin bəzi hissələri bir çox ölkələrdə ayrıca kitab şəklində buraxılmışdır. Xüsusən də, Kozetta, Qavroşla, xeyirxah insan kimi təsvir edilən yepiskop Miriel haqqında fəsillər ayrıca kitab kimi çap edilmişdir. Bu kitablar böyüməkdə olan nəsil üçün mənəvi hisslər, bilgilər, tərbiyəvi məzmun baxımından çox faydalıdır.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

**Tamara Dərziyeva**
Bakı Dövlət Universitetinin Qazax filialı
https://orcid.org/0009-0007-0770-0121
tderziyeva@mail.ru

# Fizika tədrisində STEM/STEAM yanaşmasının tətbiqi: fizika ilə digər fənlərin inteqrasiyasının imkanları və çağırışları

***Açar sözlər:*** *STEM təhsili, STEAM yanaşması, fizika tədrisi*
***Keywords****: STEM education, STEAM approach, physics teaching*

Qloballaşmanın və texnoloji inkişafın sürətlənməsi nəticəsində təhsil sistemlərinin qarşısında duran əsas vəzifə-lərdən biri şagirdlərin XXI əsr bacarıqları ilə təmin edilməsidir. Bu kontekstdə STEM və STEAM yanaşmaları mühüm rol oynayır. STEM fənlərarası əlaqəni elm, texnologiya, mühəndislik və riyaziyyat vasitəsilə təmin etdiyi halda, STEAM modeli bu struktura incəsənəti əlavə edərək yaradıcılıq və estetikanı ön plana çıxarır. Fizika isə bu yanaşmaların mərkəzində duran əsas fundamental sahələrdən biri kimi çoxşaxəli inteqrasiyalara geniş imkan yaradır.

*Fizika tədrisində STEM/STEAM yanaşmasının mahiyyəti.* Fizika tədrisi ənənəvi olaraq təcrübi və nəzəri biliklərin öyrənilməsinə əsaslansa da, STEM/STEAM konseptləri fənnin daha geniş kontekstdə, real həyatda tətbiq oluna bilən layihələr ilə əlaqələndirilməsinə imkan verir. Bu yanaşmaların tətbiqi nəticəsində: -Şagirdlər fiziki qanunları praktik olaraq tətbiq edir; -Multidissiplinar layihələr vasitəsilə mühəndislik düşüncə tərzi formalaşır; -Modelləşdirmə, kodlaşdırma və eksperiment

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 65-67
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 65-67
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

dizaynı kimi bacarıqlar inkişaf edir; -İncəsənət elementlərinin əlavə olunması ilə yaradıcılıq stimullaşdırılır.

*Fizika ilə digər fənlərin inteqrasiyasında imkanlar:*

1. Fizika–riyaziyyat inteqrasiyası. Fizikanın riyazi modellərə əsaslanması bu iki fənnin inteqrasiyasını zəruri edir. Diferensial tənliklərin, funksiyaların, statistik təhlilin tətbiqi şagirdlərin həm fiziki prosesləri, həm də riyazi alətləri daha dərindən mənimsəməsinə səbəb olur.

2. Fizika–mühəndislik inteqrasiyası. STEM yanaşmasının mühüm komponenti mühəndislik dizaynıdır. Fizika dərslərində enerjiyə qənaət edən modellərin qurulması, mexaniki konstruktorların hazırlanması, elektrik dövrələrinin layihələndirilməsi mühəndislik baxış bucağını inkişaf etdirir.

3. Fizika–texnologiya inteqrasiyası. Rəqəmsal alətlərdən (sensorlar, simulyasiyalar, roboto-texnika) istifadə fiziki hadisələrin daha dəqiq müşahidəsini və analizini təmin edir. Bununla şagirdlər həm proqramlaşdırma, həm də data emalı bacarıqları əldə edir.

4. Fizika–incəsənət inteqrasiyası (STEAM). İncəsənət elementləri fizika mövzularının öyrənilməsini daha intuitiv və vizual edir. Məsələn: -Optika mövzularında rəng və işıq sənəti; -Akustika dərslərində musiqi alətlərinin quruluşu; -Mexanika mövzularında kinetik skulpturlar. Bu yanaşma biliklərin estetik və yaradıcı aspektlərini önə çıxarır.

*Fizika tədrisində STEM/STEAM tətbiqinin pedaqoji üstünlükləri:*

1. Şagirdlər real problemləri analiz edərək fiziki qanunları tətbiq etməyi öyrənir. Bu isə onların elmi tədqiqat bacarıqlarını inkişaf etdirir.

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 65-67
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 65-67
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

2. Layihə əsaslı fəaliyyətlər şagirdlərin fənnə marağını artırır və onların fizikanı gündəlik həyatla əlaqələndirməsinə şərait yaradır.

3. İnteqrativ layihələr qrup şəklində aparıldığı üçün sosial bacarıqlar, əməkdaşlıq və liderlik keyfiyyətləri formalaşır.

STEM/STEAM yanaşmasının effektiv tətbiqi üçün müəllimlər multidissiplinar biliklərə malik olmalıdır. Araşdırmalar göstərir ki, müəllimlərin çoxu bu model üçün xüsusi təlim almamışdır.

Laboratoriya cihazları, robototexnika dəstləri, sensorlar və digər texnologiyalar olmadan bu yanaşmaların tətbiqi çətinləşir. Hazırkı tədris planlarının çoxu inteqrativ layihələr üçün kifayət qədər vaxt ayırmır. Daha çevik kurikulumlara ehtiyac var. Komanda işi, yaradıcılıq və dizayn bacarıqlarının ölçülməsi ənənəvi testlər vasitəsilə mümkün deyil. Bu səbəbdən yeni qiymətləndirmə metodları tələb olunur.

Fizika tədrisində STEM və STEAM yanaşmalarının tətbiqi XXI əsr tələblərinə cavab verən, innovativ təfəkkürə malik, analitik və yaradıcı şagirdlərin formalaşdırılması üçün mühüm əhəmiyyət daşıyır. Fizikanın digər fənlərlə inteqrasiyası təlim prosesini daha praktik, əlaqəli və məqsədyönlü edir. Bununla yanaşı, uğurlu tətbiq üçün müəllim hazırlığının gücləndirilməsi, məktəblərin maddi-texniki bazasının inkişaf etdirilməsi və kurikulum islahatlarının aparılması vacibdir.

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 68-71
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 68-71
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

**İlahə Əsgərli**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0005-6053-5546
ilahe.asgerli1992@gmail.com

# İngilis dilinin inkişafında müasir texnologiyaların rolu

***Açar sözlər:*** *ingilis dili, müasir texnologiya, dil öyrənmə, onlayn təhsil, kompüter texnologiyaları*
***Keywords:*** *English language, modern technology, language learning, online education, computer technologies*

Müasir dövrdə texnologiyanın sürətli inkişafı xarici dillərin, xüsusilə də ingilis dilinin öyrənilməsi və tədrisi prosesinə əhəmiyyətli təsir göstərmişdir. İnformasiya-kommunikasiya texnologiyaları dil bacarıqlarının formalaşdırılmasında yeni imkanlar yaratmış, ənənəvi tədris metodlarını tamamlayaraq daha effektiv öyrənmə mühiti formalaşdırmışdır.

Son illərdə həm ölkəmizdə, həm də qlobal miqyasda köklü dəyişikliklər baş vermişdir. Texnologiyanın sürətli inkişafı nəticəsində hər gün yeni innovativ vasitələr meydana çıxır ki, bu da müxtəlif sahələrə, o cümlədən təhsil sisteminə əhəmiyyətli təsir göstərir. Təhsil sahəsində aktual məsələlərdən biri ingilis dilinin tədrisi prosesində müasir texnologiyaların tətbiqidir. Belə ki, texnoloji vasitələr hazırda təhsil mühitində geniş və sistemli şəkildə istifadə olunur. Tezisdə müasir texnologiyaların ingilis dilinin inkişafındakı rolu, onların üstünlükləri və tədris prosesinə təsiri araşdırılır.

İngilis dili beynəlxalq elmi, iqtisadi, siyasi və mədəni münasibətlərdə aparıcı ünsiyyət vasitəsi kimi çıxış edir. Bu

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 68-71
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 68-71
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

səbəbdən onun öyrənilməsi qlobal miqyasda prioritet məsələlərdən biri hesab olunur. Son illərdə təhsil sahəsində tətbiq edilən müasir texnologiyalar ingilis dilinin öyrədilmə metodikasında mühüm dəyişikliklərə səbəb olmuşdur. Rəqəmsallaşma və texnoloji innovasiyalar dil öyrənməni daha çevik və fərdiləşdirilmiş prosesə çevirmişdir.

Müasir texnologiyalar ingilis dilinin tədrisində interaktiv və tələbəyönümlü yanaşmanın formalaşmasına şərait yaradır. Onlayn təhsil platformaları, elektron dərsliklər və mobil tətbiqlər vasitəsilə öyrənənlər istənilən vaxt və məkanda bilik əldə edə bilirlər. Bu texnologiyalar öyrənənlərin müstəqil işləmə bacarıqlarını inkişaf etdirir və tədris prosesinin davamlılığını təmin edir.

İngilis dilinin tədrisində müasir texnoloji vasitələrdən istifadə şagird və tələbələrin dərs prosesinə marağını və motivasiyasını əhəmiyyətli dərəcədə artırır. Müasir tədris mühitində müəllim artıq yalnız ənənəvi dərsliklərlə kifayətlənmir. Müxtəlif proqram təminatları, onlayn tədris kursları, audio və video materiallar, sosial media resursları, rəqəmsal platformalar, mobil tətbiqlər və interaktiv lövhələrin tətbiqi dil öyrənmə prosesini daha cəlbedici və dinamik edir, eyni zamanda, təlimin səmərəliliyini və əlçatanlığını yüksəldir.

Multimedia vasitələri - audio və video materiallar, podkastlar, interaktiv tapşırıqlar - ingilis dilinin real kommunikativ mühitdə mənimsənilməsinə şərait yaradır. Bu yanaşma dilin yalnız nəzəri deyil, həm də praktik aspektlərinin inkişafına xidmət edir. Nəticədə öyrənənlərin dinləmə və danışıq bacarıqları daha effektiv şəkildə formalaşır.

Dil tədrisi prosesində müasir texnologiyalardan və informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadə dərslərin daha dinamik və cəlbedici təşkilinə imkan yaradır, eyni zamanda, tələbələrin motivasiya səviyyəsini yüksəldir və onla-

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 68-71
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 68-71
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

rın dil öyrənməsində müstəqil, fəal iştirakını təşviq edir. Dil tədrisi metodikasında əsas yanaşmalardan biri dili kəşf etmə yolu ilə mənimsəmək prinsipi hesab olunur. Müasir texnologiyalara əsaslanan dil tədrisində isə dilin əsasən yerli dil daşıyıcıları ilə birbaşa ünsiyyət vasitəsilə öyrənilməsi prioritet istiqamət kimi qiymətləndirilir. Bu kontekstdə tələbələr internet üzərindən sinxron və qeyri-sinxron kommunikasiya vasitələrindən istifadə etməklə öz dil bacarıqlarını daha effektiv şəkildə inkişaf etdirə bilərlər.

İnteraktiv texnologiyalar müəllim və şagird arasında dialoqa əsaslanan qarşılıqlı ünsiyyət mühitini formalaşdırır və bu da təlim prosesində bütün tələbələrin idraki fəaliyyətə fəal şəkildə cəlb olunmasını təmin edir. Belə təlim mühitində fikir, bilik və təcrübə mübadiləsi həyata keçirilir. İnteraktiv fəaliyyətlərdə iştirak edən tələbələr qarşılıqlı əməkdaşlıq bacarıqlarını inkişaf etdirir, məntiqi düşünmə, informasiyanın təhlili və problem həll etmə vərdişlərini formalaşdırırlar. Bu baxımdan təhsil müəssisələrində xarici dil müəllimlərinin əsas vəzifələrindən biri tələbələrin təlim prosesində iştirak səviyyəsini yüksəltmək və onların dil öyrənməyə marağını artıran səmərəli üsullar tətbiq etməkdir.

Tədris prosesində interaktiv texnologiyalardan istifadə şagirdlərin yaradıcılıq potensialının və təxəyyülünün inkişafına, xarici dillərin öyrənilməsinə yönəlmiş idraki marağın artmasına və ünsiyyət bacarıqlarının təkmilləşdirilməsinə şərait yaradır. İngilis dili dərslərində bu texnologiyaların tətbiqi yaş qrupundan və dil bilik səviyyəsindən asılı olmayaraq bütün tələbələr üçün yüksək effektivliyə və motivasiyaedici təsirə malikdir. İnteraktiv fəaliyyətlərə öyrəşməyən tələbələr üçün ilkin mərhələdə müzakirə və dialoqlarda iştirak müəyyən çətinliklər yaratsa da, zaman keçdikcə onlar bu prosesə uyğunlaşır və dərslərdə daha fəal iştirak etməyə başlayırlar.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

Yeni təlim texnologiyalarına əsaslanan yanaşmanın əsas məqsədi xarici dilin mənimsənilməsi prosesində kommunikativ səriştənin internet əsaslı tədris materialları vasitəsilə inkişaf etdirilməsidir. Dərslərin daha maraqlı və dinamik təşkili, təlim prosesinə canlılıq gətirilməsi, tələbələrin motivasiyasının artırılması və onların müstəqil öyrənmə bacarıqlarının formalaşdırılması üçün dil tədrisində müasir texnologiyalardan və informasiya-kommunikasiya texnologiyalarından geniş şəkildə istifadə olunması zəruridir. Dil tədrisi metodikasında əsas tendensiyalardan biri isə dili kəşf edərək öyrənmə yanaşması hesab olunur.

Aparılan təhlil göstərir ki, müasir texnologiyalar ingilis dilinin inkişafında və tədrisində mühüm rol oynayır. Texnologiyanın təhsil prosesinə inteqrasiyası dil öyrənməni daha səmərəli, əlçatan və innovativ edir. Gələcəkdə texnoloji yeniliklərin artması ingilis dilinin öyrənilməsi sahəsində daha geniş imkanlar yaradacaqdır.

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 72-79
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 72-79
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

**Elvin Məmmədov**
Bakı Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0004-1813-4637
emmmdov64@gmail.com

# Azərbaycanda turizmin inkişafının mövcud vəziyyəti və dinamikası

***Açar sözlər***: *turizm, iqtisadi inkişaf, qeyri-neft sektoru, dövlət proqramları, turizm potensialı*
***Keywords:*** *tourism, economic development, non-oil sector, state programs, tourism potential*

Son illərdə turizm sektoru qlobal miqyasda iqtisadi artımın, məşğulluğun və sosial rifahın əsas hərəkətverici qüvvələrindən birinə çevrilib. Turizm təkcə müstəqil iqtisadi sektor deyil, həm də nəqliyyat, ticarət, ictimai iaşə, xidmət, əyləncə və mədəniyyət kimi bir çox əlaqəli sektorların inkişafını stimullaşdıran mürəkkəb bir sistem kimi çıxış edir. Dünya təcrübəsi göstərir ki, turizm iqtisadiyyatın şaxələndirilməsində, regionların inkişafında və ölkələrin beynəlxalq imicinin formalaşmasında mühüm rol oynayır. Əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri, qədim tarixi irsi və mədəni müxtəlifliyi ilə Azərbaycan regionda perspektivli turizm istiqamətlərindən biri kimi seçilir. Bu potensialın effektiv şəkildə reallaşdırılması turizm sektorunda sahibkarlığın inkişafı, investisiya mühitinin gücləndirilməsi və dövlət dəstəyi mexanizmlərinin effektiv tətbiqi ilə birbaşa bağlıdır. Bu baxımdan, turizm sektorunda sahibkarlığın rolu getdikcə artır və bu sektorun inkişaf perspektivlərinin elmi əsasda qiymətləndirilməsi aktuallaşır.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

Hazırda ölkəmizdə həyata keçirilən məqsədyönlü dövlət siyasəti turizmin qeyri-neft sektorunun prioritet sahələrindən biri kimi inkişafı üçün əlverişli şərait yaratmışdır. Dövlət tərəfindən turizmin iqtisadiyyatın perspektivli bir istiqaməti kimi tanınması, tənzimləyici və hüquqi bazanın təkmilləşdirilməsi, infrastruktur layihələrinin genişləndirilməsi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi milli turizmin rəqabət qabiliyyətinin artmasına əhəmiyyətli dərəcədə töhfə vermişdir. Azərbaycanın beynəlxalq arenada turizm üçün cəlbedici ölkə kimi təqdim edilməsi xarici turist axınının artması və investisiya imkanlarının genişləndirilməsi üçün şərait yaratmışdır.

Ümumiyyətlə, qlobal iqtisadi çətinliklər, pandemiyadan sonrakı bərpa mərhələsi və beynəlxalq turizm bazarında rəqabətin güclənməsi turizm sektorunun rəqəmsallaşdırılmasını, innovativ yanaşmaların tətbiqini və davamlı inkişaf modelinin formalaşdırılmasını zəruri edir. Turizmin bərpası və modernləşdirilməsi təkcə bu sektorun inkişafına deyil, həm də ümumilikdə davamlı artım hədəflərinə çatmağa əhəmiyyətli töhfə verə bilər. Xüsusilə Azərbaycanın şimal-qərb bölgəsi ölkənin ən çox turist cəlb edən bölgələrindən biri kimi diqqəti cəlb edir və bu ərazilərdə turizmin inkişafına yönəlmiş investisiyaların həcmi artır. Yeni turizm məkanlarının açılması, bölgələrdə infrastrukturun təkmilləşdirilməsi və yerli sahibkarlığın təşviqi bütün ərazidə turizmin tarazlı inkişafı üçün şərait yaradır. Bununla yanaşı, turizmin davamlı və uğurlu inkişafı üçün yerli icmaların bu sahəyə münasibətini öyrənmək, turizmin sosial-iqtisadi təsirlərini qiymətləndirmək və ictimai iştirakçılığı artırmaq böyük əhəmiyyət kəsb edir.

*1.Azərbaycanda turizm sektorunun iqtisadi əhəmiyyəti.* Son illərdə turizm sektoru Azərbaycanın iqtisadi inkişaf strategiyasında prioritet sahələrdən birinə çevrilmişdir. Qeyri-neft sektorunun gücləndirilməsi məqsədilə turizmin rolu artmaqda,

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

bu sahə ölkə iqtisadiyyatının şaxələndirilməsində mühüm vasitə kimi çıxış etməkdədir. Turizm yalnız xidmət sahəsi kimi deyil, eyni zamanda, regionların iqtisadi aktivliyini artıran, məşğulluğu genişləndirən və sosial rifahın yüksəlməsinə töhfə verən kompleks iqtisadi mexanizm kimi qiymətləndirilir. Turizmi regionların iqtisadi dirçəlişinə təkan verən çoxtərəfli inkişaf platforması kimi xarakterizə edərək, onun iqtisadi təsirlərinin digər sahələrlə qarşılıqlı əlaqədə formalaşdığını vurğulayır.

Qloballaşma prosesləri bir daha sübut edir ki, turizm beynəlxalq ticarət və iqtisadi əməkdaşlığın əsas istiqamətlərindən biri olmaqla yanaşı, dövlət büdcəsinə gəlirlərin artırılması, valyuta axınının təmin edilməsi və əhalinin məşğulluq səviyyəsinin artırılması baxımından strateji əhəmiyyət kəsb edir. Turizm obyektlərinin yaradılması və genişləndirilməsi əlavə kapital qoyuluşlarının cəlb edilməsinə, qeyri-dövlət maliyyə resurslarının artırılmasına və yeni sahibkarlıq formalarının inkişafına imkan verir. Xüsusilə, birgə müəssisələr, uzunmüddətli icarə və yenidənqurma layihələri turizm sektorunda sahibkarlığın strukturunun təkmilləşdirilməsində və onun davamlı inkişafının təmin edilməsində mühüm rol oynayır. Bu baxımdan, Azərbaycanda turizm sektorunun mövcud vəziyyətinin və inkişaf dinamikasının təhlili, sahibkarlığın bu sahədəki rolunun qiymətləndirilməsi və gələcək inkişaf perspektivlərinin müəyyən edilməsi elmi və praktik baxımdan xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan təcrübəsi göstərir ki, turizmin inkişafı ölkənin ÜDM-nin artmasına, yeni iş yerlərinin yaradılmasına və regionlarda biznes fəallığının yüksəlməsinə müsbət təsir göstərmişdir. Xüsusilə Bakı şəhəri beynəlxalq konfransların, idman yarışlarının və mədəni tədbirlərin keçirildiyi regional mərkəzə çevrilərək ölkəyə gələn turist axınının artmasına şərait yaratmışdır. Bu proses həm xidmət sektorunun genişlənməsinə, həm də yerli sahibkarlığın inkişafına təkan vermişdir. Azərbay-

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

canlı iqtisadçı Məmmədov (2018) qeyd edir ki, turizmin inkişafı ölkədə investisiya cəlbediciliyini artırmaqla yanaşı, regionların sosial-iqtisadi tarazlığının qorunmasına da mühüm töhfə verir. Turizm sektorunun inkişafında dövlət siyasəti həlledici rol oynayır. Azərbaycanda turizmin inkişafı dövlətin strateji prioritetlərindən biri kimi müəyyən edilmiş və bu sahədə normativ-hüquqi baza ardıcıl şəkildə təkmilləşdirilmişdir. Dövlət proqramları çərçivəsində turizm infrastrukturunun modernləşdirilməsi, regionlarda yeni istirahət zonalarının yaradılması, nəqliyyat və kommunikasiya şəbəkələrinin genişləndirilməsi istiqamətində mühüm layihələr həyata keçirilmişdir. C.Cooper turizmin davamlı inkişafı üçün dövlətin institusional dəstəyinin, hüquqi tənzimləmə mexanizmlərinin və strateji planlaşdırmanın vacibliyini ön plana çəkir.

Azərbaycanda yeni hava limanlarının tikilməsi, yol-nəqliyyat infrastrukturunun yenilənməsi, mehmanxana və turizm obyektlərinin sayının artırılması dövlət siyasətinin praktiki nəticələrindən biri kimi qiymətləndirilə bilər. Bakı–Şamaxı və Bakı–Xaçmaz yollarının yenidən qurulması regionlara turist axınının artmasına və yerli iqtisadi fəallığın güclənməsinə müsbət təsir göstərmişdir. Bununla yanaşı, informasiya-kommunikasiya texnologiyalarının turizm sahəsində tətbiqi xidmət keyfiyyətinin yüksəldilməsinə və beynəlxalq bazarda rəqabət qabiliyyətinin artırılmasına şərait yaratmışdır. R.Əliyev vurğulayır ki, turizm sektorunda rəqəmsallaşmanın genişləndirilməsi xidmətlərin əlçatanlığını artırmaqla yanaşı, bazar subyektləri üçün yeni biznes imkanları yaradır. Azərbaycanın turizm potensialı zəngin təbii, tarixi və mədəni resurslara əsaslanır. Xəzər dənizi sahilləri, Quba, Qəbələ, Şəki, İsmayıllı, Şamaxı və Masallı kimi bölgələr dağ turizmi, sağlamlıq turizmi, kənd turizmi və ekoturizm üçün geniş imkanlara malikdir.

*Elm və Təhsil Tədqiqatları* **XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 72-79**
***Research in Science and Education*** **XII Republican Scientific Conference / 12 february 2026 / 72-79**
**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

R.Butler (1980) turizm bölgələrinin inkişaf dövrlərini izah edərək, turizm potensialından səmərəli istifadə olunması üçün uzunmüddətli və davamlı planlaşdırmanın vacibliyini qeyd edir. Bu yanaşma Azərbaycanın regional turizm siyasəti üçün də aktualdır. Son illərdə ölkədə ekoturizmin və sağlamlıq turizminin inkişaf etdirilməsi istiqamətində müxtəlif təşəbbüslər həyata keçirilmişdir. Termal sulara malik bölgələrdə spa və sağlamlıq mərkəzlərinin yaradılması, milli parkların və təbiət qoruqlarının turizm məqsədləri üçün daha effektiv istifadəsi bu sahənin genişlənməsinə imkan yaradır. Yerli tədqiqatçı F.Hüseynov qeyd edir ki, regional turizmin inkişafı yalnız iqtisadi deyil, həm də sosial və mədəni təsirlərə malik olmaqla yerli icmaların rifahının yüksəldilməsinə xidmət edir. Ümumilikdə, Azərbaycanda turizm sektorunun iqtisadi əhəmiyyəti onun qeyri-neft sektorunun aparıcı sahələrindən birinə çevrilməsi, dövlət dəstəyi ilə infrastrukturların təkmilləşdirilməsi və regionların sosial-iqtisadi inkişafına verdiyi töhfələrlə müəyyən olunur. Turizm potensialından səmərəli istifadə olunması ölkənin beynəlxalq turizm bazarındakı mövqeyini gücləndirə, yeni investisiya imkanları yarada və uzunmüddətli iqtisadi artımı təmin edə bilər.

*2.Azərbaycanda turizm və sahibkarlığın qarşılıqlı əlaqəsi.* Azərbaycanın turizm strategiyasında sahibkarların fəal iştirakı prioritet kimi müəyyən olunub. “Azərbaycan Respublikasında turizmin inkişafı üzrə 2022–2026-cı illər üçün Strategiya” sənədində yerli və xarici sahibkarlara dəstək, investisiya təşviqləri və turizm zonalarının yaradılması xüsusi qeyd olunur. Sahibkarlar həm mehmanxana və iaşə obyektlərinin açılması, həm də innovativ turizm xidmətlərinin təqdim olunması baxımından mühüm rol oynayırlar. Azərbaycan həm Qafqazın, həm də İpək Yolunun kəsişməsində yerləşərək unikal mədəni müxtəlifliyə və turizm marşrutlarına malikdir. Bu amil

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 72-79
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 72-79
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

regionlarda kənd turizmi, eko-turizm və etnoqrafik turizm kimi alternativ sahələrin inkişafına imkan yaradır.

Azərbaycanın dağlıq mənzərələri, gölləri və milli parkları təbiət turizmindən ötrü geniş imkanlar yaradır. Dağa dırmanma, gəzinti turları, velosiped turları və təbiət fotoşəkilləri kimi təbiət yönümlü turizm fəaliyyətləri üçün infrastruktur inkişaf etdirilməli və tanıtım tədbirləri həyata keçirilməlidir. Yerli sahibkarlar təbiət turizmi üçün bələdçilər, yerləşdirmə və digər xidmətlər təklif etməklə bu sahədə inkişaf imkanlarına malik ola bilərlər. Ölkəmizdə termal suları və sağlamlıq potensialı olan bölgələr var. Ona görə də sağlamlıq turizmi üçün infrastruktur inkişaf etdirilməli, termal spa mərkəzləri, spa kimi obyektlərin sayı artırılmalıdır. Yerli sahibkarlar sağlamlıq və termal turizm xidmətləri təklif etməklə bu sahədə böyümə və diversifikasiya imkanlarına malik ola bilərlər.

Azərbaycanın kənd rayonları ənənəvi həyat tərzi, təbii gözəllikləri və kənd təsərrüfatı turizm potensialı ilə diqqəti cəlb edir. Yerli sahibkarlar yaşayış, təsərrüfat turizmi və yerli istehsal təcrübələri kimi kənd turizmi məhsulları və xidmətləri təklif etməklə bu sahədə inkişaf imkanlarına malik ola bilərlər. Eyni zamanda, yerli əhalinin turizmə inteqrasiyası və turizm təhsili də təşviq edilməlidir. Bu gözləntilərə uyğun olaraq, Azərbaycan hökuməti və müvafiq maraqlı tərəflər turizm sektorunun inkişafı üçün müvafiq siyasət, təşviq proqramları və infrastruktur yaratmalıdır. Yerli sahibkarların dəstəklənməsi və turizm sektorunda innovativ ideyaların təşviq edilməsi də vacibdir. Turizm xidməti bazarının gəlirləri az olan rayonlarda sahibkarlığın inkişafının təşkili mövcud ehtiyatlardan maksimum istifadə etməyə imkan verən turizmin yeni növ və formalarının inkişafına əsaslanmalıdır. Bunun üçün mövcud ehtiyatların təhlili, ərazinin potensialının qiymətləndirilməsi və turizm kompleksində biznes mühiti üçün lazımi şəraitin yaradılması zərurəti əsaslandırılmalıdır.

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 72-79
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 72-79
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

Turizm iqtisadi fəaliyyət forması kimi respublikanın iqtisadi inkişafının intensivləşdirilməsi üçün stimullaşdırıcı və milli miqyasda yeni yaradılmış dəyərin artırılması hədəfilə multiplikator rolunu oynayır, milli iqtisadiyyatın əksər sahələri ilə ahəngdar şəkildə birləşir.

Apardığımız təhlillər göstərir ki, turizm sektoru Azərbaycanın qeyri-neft iqtisadiyyatında getdikcə daha çox əhəmiyyət kəsb edir və ölkənin sosial-iqtisadi inkişafında strateji rol oynayır. Dünya Turizm və Səyahət Şurasının proqnozlarına görə, 2027-ci ilə qədər Azərbaycana gələn turistlərin sayının 4 milyonu keçəcəyi və turizmdən əldə edilən illik gəlirin təxminən 6 milyard ABŞ dollarına çatacağı gözlənilir. Turizmin iqtisadi təsiri yalnız turist sayının artması ilə məhdudlaşmır, həm də məşğulluğun genişlənməsi, regionların inkişafı və xidmət sektorunun böyüməsi ilə müşayiət olunur. Hazırda on minlərlə insanın turizm və əlaqəli sahələrdə çalışması bu sektorun əmək bazarına verdiyi töhfəni əyani şəkildə nümayiş etdirir. Eyni zamanda, turizmin ÜDM-də payının tədricən artması bu sektorun uzunmüddətli iqtisadi potensiala malik olduğunu göstərir. Gələcək perspektivlər baxımından Azərbaycanın turizm sektoru üçün əhəmiyyətli inkişaf imkanları mövcuddur. Ekoturizm, sağlamlıq turizmi, kənd turizmi və mədəni turizm kimi istiqamətlərin genişləndirilməsi ölkənin turizm məhsulunu şaxələndirmək və mövsümi asılılığı azaltmaq üçün fürsət yarada bilər. Xüsusilə termal suları olan bölgələrdə sağlamlıq turizminin inkişafı və milli parklardan və qorunan ərazilərdən ekoturizm məqsədləri üçün daha səmərəli istifadə yeni iqtisadi imkanlar yarada bilər. Azərbaycanın turizm sektoru həm iqtisadi, həm sosial, həm də regional inkişaf baxımından böyük potensiala malikdir. Mövcud inkişaf imkanlarından səmərəli istifadə və strateji planlaşdırmanın gücləndirilməsi ölkənin beynəlxalq turizm bazarındakı mövqeyini gücləndirə, dövlət

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

büdcəsinə daxilolmaları artıra və ümumilikdə milli iqtisadiyyatın davamlı inkişafına əhəmiyyətli töhfə verə bilər.

Fikrimizcə, turizm sektorunun davamlı inkişafı üçün infrastrukturun daha da təkmilləşdirilməsi, xidmət keyfiyyətinin yaxşılaşdırılması, rəqəmsal texnologiyaların geniş tətbiqi və beynəlxalq turizm bazarında marketinq fəaliyyətinin gücləndirilməsi zəruri hesab olunur. Dövlət və özəl sektorlar arasında əməkdaşlığın genişləndirilməsi, yerli icmaların turizm proseslərinə fəal cəlb edilməsi və insan kapitalına investisiyaların artırılması sektorun uzunmüddətli dayanıqlığını təmin edə bilər.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

**Rəfail Həsənli**
Bakı Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0004-1242-8933
rafaelhesenli444@gmail.com

# Azərbaycanda qeyri-neft sektorunda investisiyaların maliyyələşdirilməsi

***Açar sözlər:*** *qeyri-neft sektoru, investisiyalar, maliyyələşmə strukturu, regional inkişaf, iqtisadi diversifikasiya*
***Keywords:*** *non-oil sector, investments, financing structure, regional development, economic diversification*

Uzun illərdir ki, Azərbaycan iqtisadiyyatının formalaşması və inkişafı əsasən neft və qaz sektorundan əldə edilən gəlirlərə əsaslanır. Enerji resurslarının ixracı ölkəyə böyük miqdarda valyuta axını təmin etmiş, büdcə gəlirlərinin artmasına və makroiqtisadi sabitliyin qorunmasına əhəmiyyətli töhfə vermişdir. Bu gəlirlər infrastruktur layihələrinin həyata keçirilməsinə, sosial sahələrdə irəliləyişlərə və iqtisadi artım tempinin qorunmasına imkan vermişdir. Lakin qlobal enerji bazarlarında kəskin qiymət dəyişiklikləri, artan geosiyasi risklər və məhdud təbii ehtiyatlar uzunmüddətli perspektivdə neft gəlirlərindən həddindən artıq asılılığın iqtisadi təhlükəsizlik baxımından risklər yaratdığını göstərmişdir. Bu səbəbdən iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı dövlətin iqtisadi siyasətinin əsas strateji istiqamətlərindən birinə çevrilmişdir. Qeyri-neft sektorunun genişləndirilməsi daha davamlı iqtisadi artım, yeni iş yerlərinin yaradılması və regionlar arasında sosial-iqtisadi fərqlərin azaldılması üçün şərait yaradır.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

Bu kontekstdə qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir. İnvestisiyalar təkcə istehsal güclərini artırmağa deyil, həm də texnoloji yeniliklərin tətbiqinə, rəqabət qabiliyyətinin artırılmasına və iqtisadi strukturun modernləşdirilməsinə imkan verir. Qeyri-neft sektoruna investisiyaların maliyyələşdirilməsi mənbələrinin, onların strukturunun və istiqamətlərinin təhlili mövcud potensialın düzgün qiymətləndirilməsi və gələcək inkişaf prioritetlərinin müəyyən edilməsi baxımından son dərəcə vacibdir. İnvestisiya axınlarının səmərəli istiqamətləndirilməsi ölkədə iqtisadi artımın sürətləndirilməsinə, regional inkişafın gücləndirilməsinə və sosial rifahın yaxşılaşdırılmasına xidmət edir.

*1.Azərbaycanda investisiya mühitinin ümumi xüsusiyyətləri.*

Son illərdə Azərbaycanda investisiya fəaliyyəti iqtisadi inkişafın əsas hərəkətverici qüvvələrindən birinə çevrilib. Enerji ilə yanaşı, nəqliyyat, infrastruktur, turizm, sənaye və kənd təsərrüfatı kimi sahələrə də əhəmiyyətli investisiyalar yönəldilib. Xüsusilə də, iri nəqliyyat və logistika layihələrinin həyata keçirilməsi Azərbaycanın regional və beynəlxalq iqtisadi münasibətlərdəki rolunu gücləndirib və ölkəni mühüm tranzit mərkəzinə çevirib. Bakı-Tbilisi-Qars dəmir yolu, avtomobil yollarının yenidən qurulması, limanların və logistika mərkəzlərinin yaradılması kimi layihələr investisiya siyasətinin prioritet sahələrini təşkil edir. Bu layihələr iqtisadi fayda yaratmaqla yanaşı, regionların inkişafına, daxili bazarların genişlənməsinə və sahibkarlıq fəaliyyətinin canlanmasına müsbət təsir göstərir. Turizm və xidmət sahələrinə investisiyalar gəlir mənbələrinin şaxələndirilməsinə və qeyri-neft sektorunda məşğulluğun artmasına şərait yaradır. S.Abbasov maliyyə resurslarının idarə olunmasının iqtisadi inkişafda həlledici rol oynadığını vurğulayaraq qeyd edir ki, investisiya resurslarının düzgün formalaşdırılması və səmərəli bölgüsü real sektorun inkişaf

tempinə birbaşa təsir göstərir. Müəllifə görə, dövlət və özəl maliyyə mənbələri arasında optimal balansın təmin edilməsi qeyri-neft sektorunda istehsal potensialının artırılması və dayanıqlı iqtisadi artımın formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Dövlət investisiya mühitini yaxşılaşdırmaq üçün müxtəlif təşviq mexanizmlərini tətbiq edir. Vergi güzəştləri, investisiya layihələri üçün kreditlər üzrə faiz subsidiyaları, dövlət zəmanətləri və institusional dəstək tədbirləri investorlar üçün daha əlverişli şərait yaradır. Bu mexanizmlər beynəlxalq təcrübəyə uyğun olmaqla yanaşı, ölkədə biznes mühitinin şəffaflığının və etibarlılığının artırılmasına xidmət edir. Eyni zamanda, investisiya mühitinin inkişafı yalnız maliyyə təşviqləri ilə məhdudlaşmır. Tənzimləyici və hüquqi çərçivənin təkmilləşdirilməsi, inzibati maneələrin azaldılması, investorların hüquqlarının etibarlı qorunması və institusional idarəetmənin gücləndirilməsi də investisiya fəaliyyətinin artırılmasında mühüm rol oynayır. Bu amillərin kompleks tətbiqi qeyri-neft sektoruna investisiyaların cəlbediciliyini artırır və ölkə iqtisadiyyatının uzunmüddətli, davamlı inkişafını təmin edən əsas şərtlərdən biri kimi çıxış edir.

*2.Azərbaycanda qeyri-neft sektoruna investisiyaların maliyyələşdirilməsi: mövcud vəziyyət və çətinliklər.*

Azərbaycanda qeyri-neft sektoruna investisiyaların maliyyələşdirilməsi çoxmənbəlidir və əsasən dövlət investisiyaları, bank kreditləri, özəl sektor vəsaitləri və xarici kapital hesabına formalaşır. Bu maliyyə mənbələri arasında dövlət vəsaitləri hələ də dominant mövqeyə malikdir və qeyri-neft sektorunun inkişafında əsas və istiqamətləndirici rol oynayır. Dövlət investisiyaları əsasən nəqliyyat və kommunal infrastrukturun yenilənməsinə, sosial yönümlü layihələrin həyata keçirilməsinə və regionların iqtisadi aktivliyinin artırılmasına yönəldilir. Eyni

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

zamanda, bu investisiyalar özəl kapital üçün müəyyən stimullaşdırıcı mühit yaradır və bazara inamı artırmağa xidmət edir. Özəl sektorun investisiya fəaliyyəti əsasən sənaye, ticarət, xidmət və kənd təsərrüfatı sahələrində cəmləşib. Bu sahələr investisiyaların nisbətən tez qaytarılması və daha aşağı risklərə görə investorlar üçün daha cəlbedici hesab olunur. Lakin yüksək texnologiyalı istehsal, emal sənayesi və innovasiya yönümlü sektorlara özəl investisiyaların payı hələ də məhdud olaraq qalır. İqtisadçı J.Şumpeterin vurğuladığı kimi, uzunmüddətli iqtisadi artımın əsas mənbəyi məhz innovasiya və texnoloji yenilənmədir. Bu baxımdan, investisiyaların strukturunda istehsal və innovasiya yönümlü sektorların zəif təmsil olunması müəyyən dərəcədə qeyri-neft sektorunun tarazlı inkişafını məhdudlaşdırır.

2024-cü ilin statistik göstəriciləri bu tendensiyaları daha aydın şəkildə əks etdirir. Ümumiyyətlə, əsas kapitala qoyulan investisiyaların ümumi həcmi 21,4 milyard manat təşkil edib və əvvəlki illə müqayisədə cüzi azalma olsa da, qeyri-neft sektoruna qoyulan investisiyalar təxminən 3,3% artıb. Bu fakt neft sektoruna qoyulan investisiyaların azalması fonunda qeyri-neft sektorlarının nisbi cəlbediciliyinin artdığını göstərir. 2024-cü ildə investisiyaların təxminən yarısının istehsal sahələrinə, 38 faizdən çoxunun isə xidmət sektoruna yönəldilməsi real sektorun iqtisadi artımda artan rolunu təsdiqləyir. Xarici investisiyaların strukturunda da müəyyən müsbət dəyişikliklər müşahidə olunur. 2024-cü ildə ölkəyə cəlb edilən birbaşa xarici investisiyaların təxminən 12-13 faizi qeyri-neft sektoruna yönəldilib. İqtisadçı D.Nortun institusional iqtisadiyyat yanaşmasına görə, investor marağının artması təkcə iqtisadi deyil, həm də institusional mühitin nisbi sabitləşməsi ilə izah olunur. Bu baxımdan, qeyri-neft sektoruna yönəldilən xarici kapitalın artması uzunmüddətli perspektiv üçün müsbət siqnal kimi qiymətləndirilə bilər. Bank kreditləri qeyri-neft sektorunun

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 80-87
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 80-87
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

maliyyələşdirilməsində mühüm rol oynasa da, onların strukturunda ciddi məhdudiyyətlər qalmaqdadır. Sənaye və istehsal sektorlarında kredit investisiyalarının 2019-2024-cü illərdə 706 milyon manatdan 1,059 milyard manata qədər artması müsbət tendensiya kimi qiymətləndirilə bilər. Lakin bu artımın ümumi kredit portfelindəki payı hələ də aşağıdır və kreditlərin əsas hissəsi istehlak və qısamüddətli dövriyyə məqsədlərinə yönəldilir. Məşhur iqtisadçı J.Keynesin qeyd etdiyi kimi, maliyyə resurslarının uzunmüddətli və məhsuldar sahələrə yönəldilməsi real sektorun davamlı inkişafı üçün çox vacibdir.

Fikrimizcə, mövcud kreditləşmə strukturu qeyri-neft sektorunun uzunmüddətli istehsal potensialının formalaşdırılması baxımından kifayət qədər effektiv deyil. Uzunmüddətli investisiyaların məhdudlaşdırılması bank sektorunun riskdən yayınma meyli və kapital bazarlarının qeyri-kafi inkişafı ilə sıx bağlıdır. Bu səbəbdən innovasiya, emal sənayesi və yüksək əlavə dəyər yaradan layihələrin maliyyələşdirilməsində boşluqlar yaranır. 2024-cü il üçün göstəricilər göstərir ki, qeyri-neft sektoruna investisiya axınları artır və iqtisadi diversifikasiya siyasəti müəyyən nəticələr verir. Lakin bu prosesin davamlı olması üçün bank sektorunu uzunmüddətli kreditləşmə təmin etməyə, kapital bazarlarını dərinləşdirməyə və istiqrazlar, investisiya fondları və vençur kapitalı kimi alternativ maliyyə alətlərini inkişaf etdirməyə təşviq etmək lazımdır. Yalnız bu halda qeyri-neft sektoru ölkə iqtisadiyyatının aparıcı və davamlı inkişaf mənbəyinə çevrilə bilər.

*3.Regional investisiya siyasətinin rolu.*

Azərbaycanda investisiya fəaliyyətinin regionlar üzrə bölgüsü bərabər deyil və bu sahədə ciddi bir disbalans müşahidə olunur. İnvestisiyaların əhəmiyyətli bir hissəsi Bakı şəhərində və Abşeron iqtisadi rayonunda cəmləşsə də, ölkənin bir sıra

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 80-87
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 80-87
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

regionlarında investisiya axınları nisbətən zəif olaraq qalır. Bu fərqlər birbaşa regionların mövcud iqtisadi potensialı, nəqliyyat və istehsal infrastrukturu, insan kapitalının səviyyəsi, eləcə də yerli biznes mühitinin cəlbediciliyi ilə bağlıdır. İnfrastruktur baxımından daha inkişaf etmiş və bazarlara daha geniş çıxışı olan regionlar investorlar üçün daha əlverişli mövqedədir. Regional investisiya siyasətinin əsas məqsədi bu fərqləri tədricən azaltmaq, regionların iqtisadi potensialını reallaşdırmaq və yerli məşğulluğu artırmaqdır. Bu məqsədlə dövlət regionların sosial-iqtisadi inkişafı üçün dövlət proqramları çərçivəsində müxtəlif maliyyə və institusional dəstək mexanizmlərini tətbiq edir. Vergi və gömrük güzəştləri, subsidiyalar, güzəştli kreditlər və dövlət zəmanətləri regionlara yönəlmiş investisiyalar üçün vacib stimullaşdırıcı amillər kimi çıxış edir. Bu alətlər investisiya risklərini nisbətən azaltmaqla özəl sektorun regionlarda fəaliyyət göstərməyə marağını artırmağa xidmət edir. Regionlarda investisiyaların artması yalnız yeni istehsal sahələrinin yaradılması ilə məhdudlaşmır, həm də mövcud istehsal strukturunun modernləşdirilməsinə və yeni texnologiyaların tətbiqinə imkan verir. Xüsusilə də, qeyri-neft sektorunda regionlarda kənd təsərrüfatı, emal sənayesi, turizm və logistika kimi sahələrin inkişafı iqtisadi artımın daha balanslı və inklüziv xarakter daşıması üçün şərait yaradır.

Fikrimizcə, regional investisiya siyasətinin effektivliyi yalnız maliyyə resurslarının həcmi ilə deyil, həm də onların necə və hansı istiqamətlərdə istifadə olunması ilə ölçülməlidir. Bu baxımdan, investisiya layihələri seçilərkən regionların spesifik üstünlüklərini və ixtisaslaşma imkanlarını nəzərə almaq xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, həyata keçirilən layihələrin icrası üçün davamlı monitorinq və qiymətləndirmə mexanizmlərinin tətbiqi maliyyə resurslarının səmərəsiz istifadəsinin

qarşısını almağa və dövlət-investor münasibət-lərində şəffaflığı artırmağa imkan verir.

Nəticə etibarilə, qeyri-neft sektoruna investisiyaların maliyyələşdirilməsində bank kreditləri və dövlət investisiyaları ilə yanaşı, regional investisiya siyasətinin düzgün qurulması həlledici rol oynayır. Lakin bu mexanizmləri daha çox uzunmüddətli, innovasiya yönümlü və yüksək əlavə dəyər yaradan layihələrə yönəltmək lazımdır. Belə bir yanaşma regionların iqtisadi potensialının tam reallaşmasına, qeyri-neft sektorunun davamlı inkişafına və ölkə iqtisadiyyatının ümumi struktur cəhətdən sağlam formalaşmasına əhəmiyyətli dərəcədə töhfə verə bilər. Təhlil göstərir ki, Azərbaycanda qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın şaxələndirilməsi birbaşa investisiya siyasətinin effektivliyi ilə əlaqədardır. Son illərdə bu sahəyə yönəldilən investisiyaların həcmi artsa da, dövlət investisiyaları və qısamüddətli bank kreditləri maliyyələşdirmə mənbələrinin strukturunda hələ də üstünlük təşkil edir. Bu isə, qeyri-neft sektorunda uzunmüddətli, innovasiya yönümlü və yüksək əlavə dəyərli layihələrin maliyyələşdirilməsində müəyyən məhdudiyyətlər yaradır. Xüsusilə, investisiya axınlarının regionlar üzrə qeyri-bərabər paylanması iqtisadi inkişafda fərqlərə səbəb olur.

Regional investisiya siyasəti qeyri-neft sektorunun genişləndirilməsi üçün vacib vasitə olmaqla yanaşı, daha məqsədyönlü və sistemli şəkildə həyata keçirilməlidir. Müəllifin mövqeyinə görə, investisiya resurslarının bölüşdürülməsi zamanı regionların iqtisadi ixtisaslaşması, yerli resurs potensialı və əmək bazarının xüsusiyyətləri nəzərə alınmalıdır. Eyni zamanda, dövlət tərəfindən təmin edilən güzəştlər və təşviq mexanizmləri yalnız investisiyaların həcminin artmasına deyil, həm də onların keyfiyyətinin yaxşılaşdırılmasına xidmət etməlidir. Bu baxımdan, qeyri-neft sektoruna investisiyaların maliyyələşdirilməsini

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

yaxşılaşdırmaq üçün bank kreditlərinin uzunmüddətli layihələrə yönləndirilməsini təşviq etmək, kapital bazarlarının inkişafını və alternativ maliyyə alətlərinin tətbiqini genişləndirmək lazımdır. Regionlarda həyata keçirilən investisiya layihələri üçün davamlı monitorinq və qiymətləndirmə mexanizmlərinin gücləndirilməsi maliyyə resurslarından istifadənin səmərəliliyini artıracaqdır.

Beləliklə, dövlət, bank sektoru və özəl investorlar arasında koordinasiyanın gücləndirilməsi qeyri-neft sektorunun davamlı inkişafını təmin etməklə yanaşı, ölkə iqtisadiyyatının uzunmüddətli sabitliyinə və rəqabət qabiliyyətinin artırılmasına əhəmiyyətli töhfə verə bilər.

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 88-89
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 88-89
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

**Nəzrin Məmmədova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0009-3075-902X
memmedovahnezrin@gmail.com

# Təlim prosesində 3-4-cü sinif şagirdləri üçün dəstəkləyici mühitin pedaqoji-psixoloji əsasları

***Açar sözlər:*** *dəstəkləyici mühit, pedaqoji-psixoloji əsaslar, ibtidai təhsil, sosial-emosional dəstək, fərdiləşdirilmiş təlim*
***Keywords:*** *supportive environment, pedagogical-psychological foundations, primary education, social-emotional support, personalized learning*

İbtidai təhsilin 3-4-cü sinif mərhələsi şagird şəxsiyyətinin formalaşmasının intensiv dövrü hesab olunur və bu müddət ərzində təlim prosesində dəstəkləyici mühitin yaradılması şagirdin idrak, emosional və sosial inkişafına birbaşa təsir göstərir. Dəstəkləyici mühit dedikdə, şagirdlərin özünü təhlükəsiz, dəyərli və motivasiyalı hiss etdiyi, müəllim-şagird və şagird-şagird münasibətlərinin qarşılıqlı hörmət və əməkdaşlıq üzərində qurulduğu pedaqoji şərait başa düşülür. Bu mühitdə şagirdin yaş xüsusiyyətləri, fərdi maraqları və öyrənmə tərzi nəzərə alınır, eləcə də onun özünütənzimləmə, məsuliyyət və sosial adaptasiya bacarıqları inkişaf etdirilir. Bu yaş dövründə şagirdin özünə inamının möhkəm-lənməsində müəllim davranışı aparıcı rol oynayır. Müəllimin müsbət gücləndirmə (positive reinforcement) tətbiqi, şagirdə yanlış cavab verdikdə belə hədəflənmiş dəstəyi təqdim etməsi, cəza yönümlü deyil, inkişaf yönümlü yanaşması təlim prosesinin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Sosial-emosional dəstək modeli əsasında

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

müəllim hər bir şagirdin duyğusal ehtiyaclarını nəzərə alaraq, interaktiv sual-cavab, qrup işi, oyun fəaliyyətləri kimi fəaliyyətlərdən istifadə edir və bununla həm idrak fəallığını, həm də sosial ünsiyyət bacarıqlarını gücləndirir. Dəstəkləyici mühitin formalaşmasının mühüm komponentlərindən biri sinifdaxili münasibətlərin korrekt təşkili və münaqişəsiz mühitin yaradılmasıdır. 3-4-cü sinif şagirdləri sosial qarşılıqlı əlaqələrdə hələ də formalaşma mərhələsində olduğundan, mühitin təhlükəsiz və psixoloji sabit olması şagirdin özünüifadə və öyrənmə motivasiyasını artırır. Müəllim tərəfindən müsbət ünsiyyət mədəniyyətinin təşviqi, şagirdlərin bir-biri ilə əməkdaşlıq tapşırıqlarında iştirakı, birgə məsuliyyətin bölüşdürülməsi sinifdə dəstəkləyici atmosfer yaradır. Bu atmosfer şagirdlərin həm akademik nəticələrinə, həm də sosiallaşmasına təsir edən əsas faktorlardandır. Təlim prosesində fərdiləşdirilmiş dəstəyin verilməsi də dəstəkləyici mühitin vacib aspektidir. Şagirdlərin idrak səviyyələri, öyrənmə sürətləri və maraqları müxtəlif olduğundan, müəllim təlim materiallarını diferensiallaşdırmalı, ehtiyac duyulan şagirdlərə əlavə motivasiya və izah təmin etməlidir. Bu, şagirdin özünü geri qalmış hiss etməsinin, eqo zədələnməsinin və öyrənməyə qarşı motivasiya itkisinin qarşısını alır. Fərdiləşdirilmiş yanaşma tətbiq edilən siniflərdə şagirdlər daha aktiv, təşəbbüskar və məsuliyyətli davranış nümayiş etdirirlər.

Nəticə olaraq, 3-4-cü sinif şagirdləri üçün dəstəkləyici mühitin formalaşdırılması pedaqoji, psixoloji və sosial factorların qarşılıqlı inteqrasiyasına əsaslanır. Belə mühitin yaradılması yalnız təlimin akademik keyfiyyətini artırmaqla kifayətlənmir, həm də şagird şəxsiyyətinin harmonik inkişafına şərait yaradır. Dəstəkləyici mühitin müəyyən olunmuş prinsiplərə əsasən qurulması ibtidai məktəbdə təlim-tərbiyə prosesinin daha effektiv, şagird yönümlü və inklüziv şəkildə təşkilinə imkan yaradır.

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 90-97
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 90-97
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

**Gəray Əsədov**
Azərbaycan Universiteti
magistrant
https://orcid.org/0009-0009-6827-3201
esedov20202020@gmail.com

# Kredit resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi

***Açar sözlər:*** *kredit resursları, bank sistemi, kredit siyasəti, faiz dərəcəsi, likvidliyin idarə edilməsi, iqtisadi artım*
***Keywords:*** *credit resources, banking system, credit policy, interest rate, liquidity management, asset and liability management, economic growth*

Müasir dövrdə iqtisadiyyatın davamlı inkişafı və maliyyə sisteminin sabitliyi bank sektorunun səmərəliliyi ilə birbaşa əlaqəlidir. İqtisadi sistemdə maliyyə vasitəçiləri kimi çıxış edən banklar sərbəst nağd pulu toplayır, kredit resursları şəklində real sektora yönəldir və bununla da istehsalın, investisiya fəaliyyətinin və məşğulluğun artması üçün şərait yaradır. Bu baxımdan, kredit resurslarından səmərəli istifadə məsələsi həm banklar, həm də bütövlükdə iqtisadiyyat üçün xüsusi aktuallıq kəsb edir.

Təsərrüfat subyektlərinin maliyyə ehtiyaclarının artması, istehsal xərclərinin artması, texnoloji innovasiyalara tələbat və bazar şəraitinin dəyişkənliyi kredit resurslarının düzgün idarə olunmasını zəruri edir. Bank kreditləri müəssisələrin cari və qeyri-cari aktivlərinin maliyyələşdirilməsində mühüm rol oynayır və məhdud daxili maliyyə imkanları olan subyektlər üçün əsas maliyyə mənbəyinə çevrilir. Lakin kredit resurslarından səmərəsiz istifadə bank risklərinin artmasına, likvidliyin

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

zəifləməsinə və maliyyə nəticələrinin pisləşməsinə səbəb ola bilər.

Qlobal maliyyə bazarlarında baş verən proseslər, makroiqtisadi qeyri-müəyyənliklər və artan rəqabət banklardan daha çevik və əsaslandırılmış kredit siyasətinə sahib olmağı tələb edir. Xüsusilə, faiz dərəcələrinin dəyişkənliyi, kredit risklərinin artması və likvidliklə bağlı problemlər bankların kredit resurslarından istifadəyə yanaşmasını daha da çətinləşdirir. Bu şəraitdə bankların aktiv və öhdəliklərinin tarazlı idarə edilməsi, faiz gəlirlərinin və xərclərinin optimallaşdırılması, eləcə də likvidliyin davamlı təmin edilməsi kredit resurslarından istifadənin səmərəliliyinin artırılmasında əsas istiqamətlər kimi çıxış edir. Eyni zamanda, kredit resurslarından səmərəli istifadə yalnız bank sektorunun maraqları ilə məhdudlaşmır. Kreditlərin real sektora yönəldilməsi istehsalın genişləndirilməsi, yeni iş yerlərinin yaradılması və ümumi iqtisadi artımın sürətləndirilməsi üçün şərait yaradır. Bu baxımdan, kredit siyasətinin düzgün qurulması və investisiya yönümlü yanaşmaların tətbiqi ölkənin sosial-iqtisadi inkişaf strategiyasının vacib tərkib hissəsidir.

Beləliklə, kredit resurslarından istifadənin səmərəliliyinin artırılması məsələsinin elmi şəkildə öyrənilməsi, bank idarəçiliyində tətbiq olunan əsas mexanizmlərin təhlili və mövcud problemlərin müəyyən edilməsi müvafiq və zəruri tədqiqat istiqaməti kimi çıxış edir.

*1.Kredit resurslarının formalaşmasının iqtisadi mahiyyəti və mənbələri.* Kredit resursları bank sisteminin fəaliyyətinin əsas bazasını təşkil edən və bankların öz kapitalı, cəlb edilmiş əmanətlər və müxtəlif borc mənbələri hesabına formalaşan maliyyə resurslarıdır. İqtisadi ədəbiyyatda kredit resursları maliyyə vasitəçiliyinin əsas elementi hesab olunur və onlardan səmərəli istifadə bank sektorunun sabitliyini müəyyən edən əsas amillərdən biri hesab olunur. F.Mişkin kredit resurslarını maliy-

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

yə bazarlarında vəsaitlərin səmərəli bölüşdürülməsini təmin edən əsas mexanizm kimi xarakterizə edir və bankların kredit resursları vasitəsilə iqtisadi subyektlər arasında kapital axınını tənzimlədiyini qeyd edir.

İqtisadi subyektlər üçün kredit resursları istehsal fəaliyyətinin davamlılığının təmin edilməsində mühüm rol oynayır. Müəssisələrin cari və qeyri-cari aktivlərinin maliyyələşdirilməsi əsasən ya daxili əmanətlər hesabına, ya da cəlb edilmiş kredit resursları hesabına həyata keçirilir. Praktikada daxili maliyyə imkanları çox vaxt məhdud olduğundan, bank kreditləri istehsalın genişləndirilməsi, əsas vəsaitlərin yenilənməsi və texnoloji modernləşdirmə üçün əsas maliyyə mənbəyinə çevrilir. P.Rouza görə, bank kreditləri real sektorun investisiya potensialını artırmaqla iqtisadi artımın əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir.

Maliyyə resurslarının formalaşması prosesi ümumi daxili məhsulun bölüşdürülməsi ilə sıx bağlıdır. Bu prosesdə yaradılan dəyərin müəyyən bir hissəsi maliyyə resursları şəklində yenidən bölüşdürülür və təkrar istehsal mərhələsində istifadə olunur. Bu baxımdan, kredit resursları yalnız mövcud vəsaitlərin yenidən bölüşdürülməsi vasitəsi kimi deyil, həm də yeni dəyərin yaradılması üçün şərait yaradan iqtisadi vasitə kimi çıxış edir. Professor S.Abbasov isə bildirir ki, ölkənin real sektorunda investisiya layihələrinin reallaşmasında bank kreditləri əsas maliyyə mənbəyidir və düzgün kredit siyasəti olmadan iqtisadiyyatın şaxələnməsi mümkün deyildir. Bu isə, xüsusilə qeyri-neft sektorunun inkişafı baxımından aktualdır. Kredit resurslarının səmərəli istifadəsi biznes subyektlərinin maliyyə dayanıqlığını və investisiya imkanlarını artırır. Nəinki bankların kredit siyasəti, eləcə də müəssisələrin maliyyə planlaşdırması kredit resurslarının effektiv yönləndirilməsi nəticəsində gəlirlilik və rəqabət qabiliyyətinin yüksəldilməsinə səbəb olur.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

İ.Qarayevin yanaşmasına görə, kredit resursları iqtisadiyyatın real sektorunda kapital dövriyyəsini sürətləndirir və istehsal prosesində resurs çatışmazlığını aradan qaldırmaqla iqtisadi fəaliyyəti artırır. Kredit resurslarından səmərəli istifadə edildikdə, istehsal subyektlərinin maliyyə sabitliyi güclənir, gəlirlilik səviyyəsi artır və maliyyə risklərinin təsiri azalır. Əksinə, kredit resurslarından səmərəsiz istifadə borc yükünün artmasına, maliyyə balansının pozulmasına və nəticədə müəssisələrin ödəmə qabiliyyətinin zəifləməsinə səbəb ola bilər. Bu baxımdan, təkcə kredit resurslarının cəlb edilməsi deyil, həm də onların məqsədyönlü və iqtisadi cəhətdən əsaslandırılmış istifadəsi xüsusi əhəmiyyət kəsb edir.

Bizim fikrimizcə, kredit resurslarının iqtisadi mahiyyəti yalnız banklar üçün gəlir əldə etmək vasitəsi kimi qiymətləndirilməməlidir. Kredit resursları real sektorun inkişafına yönəldildikdə, onlar istehsalın genişlənməsini, məşğulluğun artırılmasını və iqtisadi artımın dayanıqlığını təmin edən strateji iqtisadi alət funksiyasını yerinə yetirir. Buna görə də, kredit resurslarının formalaşdırılması və istifadəsi prosesi bankların kommersiya maraqları, eləcə də ümumi iqtisadi inkişaf prioritetləri nəzərə alınmaqla həyata keçirilməlidir. Bu istiqamətdə kredit siyasətinin qurulması təkcə bank sektorunun sabitliyini qorumaqla yanaşı, həm də ölkə iqtisadiyyatının uzunmüddətli inkişafına əhəmiyyətli töhfə verə bilər.

*2.Kredit resurslarından istifadənin səmərəliliyinin kompleks idarə edilməsi.* Kredit resurslarından istifadənin səmərəliliyinin idarə edilməsi bankların dayanıqlı fəaliyyəti və maliyyə nəticələrinin yaxşılaşdırılması baxımından əsas istiqamətlərdən biridir. Bu proses yalnız kreditlərin verilməsi ilə məhdudlaşmır, həm də cəlb edilmiş maliyyə resurslarının düzgün bölüşdürülməsini, risklərin ilkin qiymətləndirilməsini və onların bankın gəlirlilik məqsədləri ilə uyğunlaşdırılmasını əhatə edir. İqtisadi

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

ədəbiyyatda, xüsusən də P.Rouz və F.Saunders kimi alimlərin yanaşmalarında vurğulandığı kimi, bank idarəetməsinin əsas məqsədi risk və gəlir arasında optimal balansı təmin etməkdir. Bu balans pozulduqda ya bankın maliyyə sabitliyi zəifləyir, ya da kredit fəaliyyəti real sektor üçün kifayət qədər stimullaşdırıcı olmur. Kredit resurslarından səmərəli istifadə birbaşa bankın kredit siyasətindən asılıdır. Bu siyasəti formalaşdırarkən banklar makroiqtisadi mühiti, bazar faiz dərəcələrini, borcalanların maliyyə intizamını və sektor risklərini nəzərə almalıdırlar. J.Sinkinin tədqiqatında qeyd edildiyi kimi, zəif risk qiymətləndirilməsi qısa müddətdə kredit portfelinin genişlənməsinə səbəb olsa da, uzun müddətdə problemli kreditlərin artmasına səbəb olur. Bu baxımdan, kredit resurslarının səmərəliliyi yalnız verilən kreditlərin həcmi ilə deyil, həm də onların geri ödəmə dərəcəsi və yaradılan iqtisadi dəyərlə ölçülməlidir.

Aktiv və passivlərin idarə edilməsi bu kontekstdə mühüm rol oynayır. Bank balansında aktivlər və passivlər arasında düzgün balansın yaradılması likvidliyin qorunması, faiz dərəcəsi riskinin azaldılması və tənzimləyici tələblərə riayət edilməsi üçün şərait yaradır. Ümumi fond metodu və fond konversiyası metodu klassik yanaşmalarda geniş istifadə olunsa da, müasir bankçılıqda daha çevik və dəqiq nəticələr verən optimallaşdırma modellərinə üstünlük verilir. Xətti proqramlaşdırma və ssenari təhlili banklara kredit resurslarını hansı sahələrə yönəltməyin daha uyğun olduğunu müəyyən etməyə imkan verir. Bizim fikrimizcə, bu cür riyazi modellərin, xüsusən də qeyri-sabit iqtisadi mühitdə tətbiqi subyektiv qərarların təsirini azaldır və idarəetmənin keyfiyyətini artırır.

Kredit resurslarından istifadənin səmərəliliyinə təsir edən əsas amillərdən biri faiz dərəcəsinin idarə edilməsidir. Faiz gəliri bankın əsas gəlir mənbəyidir, lakin faiz xərcləri ilə düzgün balanslaşdırılmadıqda, gəlirlilik risk altındadır. M.Heffernanın

qeyd etdiyi kimi, faiz spredinin optimal səviyyədə saxlanılması həm bankın maliyyə sabitliyini, həm də bazarda rəqabət qabiliyyətini təmin edir. Faiz dərəcəsi riskinin effektiv idarə olunması banklara dəyişən bazar şəraitində gəlirliliyi qorumağa imkan verir.

Nəticə etibarilə, kredit resurslarından istifadənin səmərəliliyinin idarə edilməsi mürəkkəb və çoxşaxəli bir prosesdir. Bu prosesdə düzgün kredit siyasəti, aktivlərin və öhdəliklərin balanslı idarə olunması, eləcə də faiz dərəcələrinin çevik tənzimlənməsi bir-birini tamamlamalıdır. Biz inanırıq ki, banklar yalnız qısamüddətli mənfəət məqsədlərinə deyil, həm də kredit resurslarının real sektora uzunmüddətli iqtisadi təsirlərinə diqqət yetirdikdə maliyyə sabitliyini gücləndirə və ümumi iqtisadi inkişafı dəstəkləyə bilərlər.

*3.Kredit resurslarının iqtisadi artıma təsiri.* Kredit resursları müasir iqtisadiyyatda iqtisadi artımın əsas maliyyə dayaqlarından biri kimi çıxış edir. Bank kreditləri istehsal müəssisələrinə mövcud kapital çatışmazlığını aradan qaldırmağa, dövriyyə vəsaitlərinin davamlılığını təmin etməyə və yeni investisiya layihələrini həyata keçirməyə imkan verir. İqtisadi tədqiqatlarda, xüsusən də Şumpeterin iqtisadi inkişaf nəzəriyyəsində qeyd edildiyi kimi, kredit mexanizmi sahibkarların innovativ fəaliyyətini stimullaşdırır, istehsalın genişləndirilməsi və yeni dəyərin yaradılması üçün şərait yaradır. Kapital strukturunda kredit vəsaitlərinin payının artması müəssisələrə maliyyə *leverage* vasitələrindən istifadə etməyə imkan verir ki, bu da düzgün idarə edildikdə istehsalın səmərəliliyini və gəlirliliyini artırır.

Kredit faiz dərəcələri ilə istehsal fəaliyyətindən əldə edilən gəlirlilik arasında müsbət fərqin olması kredit resurslarından iqtisadi cəhətdən səmərəli istifadənin əsas şərtidir. Müəssisə kreditlə cəlb etdiyi vəsaitlərdən daha yüksək gəlir əldə etdikdə

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

həm borcun ödənilməsi təmin edilir, həm də istehsal həcmi və maliyyə nəticələri yaxşılaşır.

Son illərin bank statistikası göstərir ki, kredit resurslarının artmasına baxmayaraq, bu artım bütün sektorlar üzrə eyni səviyyədə effektivlik təmin etmir. Ümumi kredit portfelinin artımı əsasən istehlak kreditləri və qısamüddətli kreditlər hesabına baş verir. Real sektorun, xüsusən də istehsal və emal sektorlarının kreditləşmədəki payı nisbətən aşağı olaraq qalır. Bu isə, həmçinin, kredit resurslarının iqtisadi artımı stimullaşdırmaq əvəzinə, mövcud tələbatı ödəməyə yönəldildiyini göstərir. Statistik göstəricilər də uzunmüddətli və investisiya yönümlü kreditlərin ümumi portfeldəki payının aşağı olduğunu təsdiqləyir. Lakin bu növ kreditlər istehsal gücünün genişləndirilməsi, yeni texnologiyaların tətbiqi və məhsuldarlığın artırılması baxımından daha böyük iqtisadi fayda gətirir. Qısamüddətli kreditlərin üstünlük təşkil etməsi kredit resurslarının dövriyyəsini artırsa da, uzunmüddətli inkişaf baxımından məhdud nəticələr verir. Eyni zamanda, problemli kreditlərin dinamikası kredit resurslarından istifadənin effektivliyini qiymətləndirmək üçün vacib bir göstəricidir. Statistik müşahidələr göstərir ki, kredit portfeli genişləndikcə problemli kreditlərin sayı da müəyyən dərəcədə artır. Bu, kreditlərin verilməsi zamanı risklərin kifayət qədər qiymətləndirilmədiyini və bəzi hallarda vəsaitlərin sui-istifadəsini göstərir.

Nəticə olaraq qeyd etmək olar ki, kredit resurslarından istifadənin səmərəliliyinin artırılması, bank sisteminin maliyyə sabitliyinin gücləndirilməsi ilə yanaşı, ölkə iqtisadiyyatının uzunmüddətli inkişafı üçün strateji əhəmiyyət kəsb edir. Aktivlərin və öhdəliklərin balanslı idarə edilməsi, faiz dərəcələrinin rasional səviyyədə saxlanılması və likvidliyin effektiv təmin edilməsi kredit mexanizminin sabit fəaliyyətini təmin

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

edən əsas istiqamətlərdir. Kredit siyasətinin investisiya yönümlü təkmilləşdirilməsi real sektorun maliyyələşdirilməsini genişləndirir, daha sabit və davamlı iqtisadi artım üçün şərait yaradır. Beləliklə, bank kredit resursları dövriyyədən çıxarılır və iqtisadi fəaliyyətə tam töhfə verə bilmir.

*Elm və Təhsil Tədqiqatları* **XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 98-100**
*Research in Science and Education* **XII Republican Scientific Conference / 12 february 2026 / 98-100**
**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

**Nərmin Bağırova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0002-9935-5014
nerminbagirovaa01@gmail.com

# Ailə-məktəb əməkdaşlığında münaqişələrin aradan qaldırılmasının pedaqoji yolları

***Açar sözlər:*** *ailə, məktəb, əməkdaşlıq, münaqişə, pedaqogika*
***Keywords:*** *family, school, cooperation, conflict, pedagogy*

Ailə-məktəb əməkdaşlığı müasir təhsil sistemində şagirdin hərtərəfli inkişafını təmin edən əsas amillərdən biri kimi çıxış edir. Bu əməkdaşlıq valideynlərin, müəllimlərin və məktəb rəhbərliyinin ortaq məqsədlər ətrafında birləşməsini, qarşılıqlı etimad və məsuliyyət əsasında fəaliyyət göstərməsini nəzərdə tutur. Lakin praktikada ailə ilə məktəb arasında müxtəlif səbəblərdən irəli gələn münaqişələr bu əməkdaşlığın səmərəliliyinə mənfi təsir göstərə bilir. Bu baxımdan ailə-məktəb əməkdaşlığında münaqişələrin yaranma səbəblərinin təhlili və onların aradan qaldırılmasının pedaqoji yollarının müəyyənləşdirilməsi aktual elmi-pedaqoji problem kimi qiymətləndirilir.

Ailə-məktəb münaqişələri, adətən, tərəflər arasında ünsiyyətin zəifliyi, gözləntilərin uyğunsuzluğu, pedaqoji yanaşmalara fərqli baxışlar, qiymətləndirmə məsələləri, intizam problemləri və ya şagirdin təlim nailiyyətləri ilə bağlı narazılıqlar fonunda meydana çıxır. Bəzi hallarda valideynlər məktəbin tərbiyəvi və təlim funksiyalarını düzgün anlamır, müəllimlərin peşəkar qərarlarını subyektiv şəkildə qiymətləndirir və ya təhsil

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

prosesinə həddindən artıq müdaxilə etməyə çalışırlar. Digər tərəfdən, müəllimlərin valideynlərlə ünsiyyətdə kifayət qədər pedaqoji takt nümayiş etdirməməsi, onların mövqeyini nəzərə almaması da qarşıdurmaların dərinləşməsinə səbəb ola bilər. Bu tip münaqişələr yalnız tərəflər arasında gərginlik yaratmır, eyni zamanda, şagirdin psixoloji vəziyyətinə, motivasiyasına və təlim nəticələrinə mənfi təsir göstərir. Münaqişələrin aradan qaldırılmasında pedaqoji yanaşma əsas rol oynayır. İlk növbədə, ailə-məktəb əməkdaşlığının mahiyyəti tərəflərə aydın şəkildə izah edilməli, valideynlər məktəbin məqsədləri, vəzifələri və fəaliyyət prinsipləri barədə mütəmadi məlumatlandırılmalıdır. Bu, yanlış təsəvvürlərin və əsassız gözləntilərin qarşısını almağa kömək edir. Pedaqoji baxımdan düzgün qurulmuş maarifləndirmə işi valideynlərin təhsil prosesinə daha şüurlu və konstruktiv yanaşmasına şərait yaradır.

Ünsiyyət münaqişələrin qarşısının alınması və həlli üçün əsas vasitələrdən biridir. Müəllim-valideyn ünsiyyəti açıq, səmimi və qarşılıqlı hörmət əsasında qurulmalıdır. Müəllimlər valideynlərin narahatlıqlarını diqqətlə dinləməli, onların fikirlərinə empatiya ilə yanaşmalı və problemin həllində valideynləri tərəfdaş kimi qəbul etməlidirlər. Eyni zamanda valideynlər də müəllimin peşəkar mövqeyinə hörmət etməli, məsələlərə emosional deyil, rasional yanaşma nümayiş etdirməlidirlər. Pedaqoji taktın qorunması, etik normalara riayət edilməsi münaqişənin eskalasiyasının qarşısını alır.

Münaqişələrin aradan qaldırılmasının mühüm pedaqoji yollarından biri də profilaktik tədbirlərin həyata keçirilməsidir. Məktəbdə valideyn iclaslarının, seminarların, treninqlərin təşkili valideynlərin pedaqoji biliklərinin artırılmasına xidmət edir. Bu cür tədbirlər vasitəsilə valideynlər uşaqların yaş və psixoloji xüsusiyyətləri, məktəb mühitinə adaptasiya, qiymətləndirmə meyarları və tərbiyəvi yanaşmalar barədə daha dolğun məlumat

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

əldə edirlər. Nəticədə, valideyn-müəllim münasibətlərində qarşılıqlı anlaşma güclənir və potensial münaqişələrin yaranma ehtimalı azalır.

Şagird mərkəzli yanaşma da ailə-məktəb münaqişələrinin həllində effektiv pedaqoji vasitə kimi çıxış edir. Bütün müzakirə və qərarların mərkəzində şagirdin maraqları, ehtiyacları və inkişafı dayanmalıdır. Tərəflər şəxsi mövqelərini və ambisiyalarını kənara qoyaraq, uşağın psixoloji rifahını və təlim uğurunu prioritet hesab etdikdə münaqişələrin konstruktiv həlli mümkün olur. Bu yanaşma ailə və məktəb arasında əməkdaşlıq ruhunu möhkəmləndirir.

Münaqişələrin həllində məktəb rəhbərliyinin rolu da xüsusi əhəmiyyət kəsb edir. Direktor və direktor müavinləri ailə-məktəb münasibətlərində vasitəçi kimi çıxış edərək gərgin vəziyyətlərin yumşaldılmasına kömək edə bilərlər. Onların obyektiv mövqeyi, pedaqoji və idarəetmə bacarıqları münaqişənin ədalətli və səmərəli həllinə şərait yaradır. Eyni zamanda, məktəbdə sağlam psixoloji iqlimin formalaşdırılması, müəllimlərin kommunikativ bacarıqlarının inkişaf etdirilməsi üçün şəraitin yaradılması rəhbərliyin əsas vəzifələrindəndir.

Nəticə etibarilə, ailə-məktəb əməkdaşlığında münaqişələrin aradan qaldırılması sistemli və məqsədyönlü pedaqoji fəaliyyət tələb edir. Bu prosesdə ünsiyyət mədəniyyəti, qarşılıqlı hörmət, empatiya, maarifləndirmə və şagird mərkəzli yanaşma əsas prinsiplər kimi çıxış edir. Münaqişələrə yalnız problem kimi deyil, eyni zamanda, əməkdaşlığın təkmilləşdirilməsi üçün imkan kimi yanaşmaq ailə və məktəb arasında daha möhkəm tərəfdaşlıq münasibətlərinin formalaşmasına şərait yaradır. Beləliklə, pedaqoji cəhətdən düzgün təşkil olunmuş ailə-məktəb əməkdaşlığı şagirdin uğurlu inkişafının, təhsil prosesinin səmərəliliyinin və məktəb mühitində sağlam münasibətlərin təmin edilməsində mühüm rol oynayır.

*Elm və Təhsil Tədqiqatları* **XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 101-104**
*Research in Science and Education* **XII Republican Scientific Conference / 12 february 2026 / 101-104**
**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

**Sima Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
https://orcid.org/0009-0000-0983-2012
simamemmeddova@gmail.com

# Oyunlaşdırma əsaslı öyrənmə modelinin təhsildə əhəmiyyəti

***Açar sözlər:*** *oyunlaşdırma əsaslı öyrənmə, təhsildə innovasiya, öyrənmə motivasiyası, rəqəmsal təhsil, interaktiv tədris, şagird nailiyyətləri*

***Keywords:*** *gamification-based learning, innovation in education, learning motivation, digital education, interactive teaching, student achievement*

Müasir dövrdə təhsil sistemləri sürətlə dəyişən sosial, texnoloji və iqtisadi şəraitə uyğunlaşmaq məcburiyyətindədir. Ənənəvi tədris metodları bir çox hallarda təhsilalanların maraq və motivasiyasını lazımi səviyyədə təmin etmir. Xüsusilə rəqəmsal mühitdə böyüyən yeni nəsil üçün passiv öyrənmə formaları effektivliyini itirməkdədir. Bu kontekstdə oyunlaşdırma əsaslı öyrənmə təhsildə innovativ və effektiv yanaşma kimi ön plana çıxır. Oyunlaşdırma əsaslı öyrənmə tədris prosesinə oyun elementlərinin inteqrasiya olunması yolu ilə öyrənənlərin motivasiyasını, iştirakçılığını və akademik nailiyyətlərini artırmağı hədəfləyir. Bu yanaşma öyrənməni yalnız bilik ötürülməsi kimi deyil, aktiv və maraqlı bir proses kimi formalaşdırır. Oyunlaşdırma anlayışı oyun olmayan mühitlərdə oyun mexanizimlərinin tətbiqini ifadə edir. Təhsil sahəsində bu yanaşma öyrənmə prosesini daha cəlbedici və interaktiv etməyə yönəlmişdir. Oyunlaşdırmanın əsasını

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

motivasiya nəzəriyyələri təşkil edir. Daxili motivasiya nəzəriyyəsinə görə insan fəaliyyətə maraq, zövq və özünü reallaşdırma ehtiyacı ilə qoşulduqda daha effektiv öyrənir. Oyunlaşdırma bu ehtiyacları təmin etməklə öyrənənlərin dərs prosesinə könüllü şəkildə cəlb olunmasına şərait yaradır. Oyunlaşdırmada ballar, nişanlar və sertifikatlar bu funksiyanı yerinə yetirir.

Oyunlaşdırma əsaslı öyrənmə bir neçə əsas komponent üzərində qurulur: Bal sistemi – Öyrənənlərin fəaliyyətinə dərhal reaksiya verərək onların irəliləyişini ölçməyə imkan yaradır. Səviyyələr və mərhələlər – Öyrənmə prosesini mərhələli şəkildə quraraq çətinlik dərəcəsini tədricən artırır. Mükafatlar və nişanlar – Nailiyyət hissini gücləndirir və motivasiyanı artırır. Rəqabət və əməkdaşlıq – Öyrənənlər arasında sağlam rəqabət yaradır və eyni zamanda, komanda işi bacarıqlarını inkişaf etdirir. Əks-əlaqə – Şagirdlərə səhvlərini dərhal anlamağa və düzəltməyə imkan verir.

Tədqiqatlar göstərir ki, oyunlaşdırma əsaslı öyrənmə təhsilalanların dərsə marağını və iştirak səviyyəsini əhəmiyyətli dərəcədə artırır. Oyun elementləri dərsləri monotonluqdan uzaqlaşdırır və öyrənənlərdə müsbət emosional mühit yaradır. Bu isə öyrənilən biliklərin daha uzunmüddətli yadda qalmasına səbəb olur. Bundan əlavə, oyunlaşdırma şagirdlərin problem həll etmə, tənqidi düşünmə və qərarvermə bacarıqlarını inkişaf etdirir. Oyun ssenariləri vasitəsilə real həyat problemlərinə bənzər situasiyalar yaradılır və şagirdlər bu problemləri həll etməyə təşviq olunur. Bu yanaşma yalnız akademik biliklərin deyil, eyni zamanda sosial və emosional bacarıqların formalaşmasına da töhfə verir.

Rəqəmsal texnologiyaların inkişafı oyunlaşdırma əsaslı öyrənmənin tətbiq imkanlarını xeyli genişləndirmişdir. Onlayn platformalar, mobil tətbiqlər və interaktiv alətlər vasitəsilə oyunlaşdırma elementləri dərslərə asanlıqla inteqrasiya olunur.

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 101-104
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 101-104
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

Bu, xüsusilə distant və hibrid təhsil modellərində oyunlaşdırmanın rolunu daha da artırır. Rəqəmsal oyunlaşdırma fərdiləşdirilmiş öyrənmə imkanlarını da genişləndirir. Hər bir şagirdin öyrənmə sürəti, maraqları və bacarıqları nəzərə alınaraq fərqli tapşırıqlar və səviyyələr istifadə oluna bilər. Bu yanaşma inklüziv təhsilin təmin edilməsində də mühüm rol oynayır.

Oyunlaşdırma əsaslı öyrənmənin üstünlükləri ilə yanaşı, müəyyən çətinlikləri də mövcuddur. Əgər oyun elementləri düzgün planlaşdırılmasa, tədrisin əsas məqsədi arxa plana keçə və oyun sadəcə əyləncə vasitəsinə çevrilə bilər. Bu səbəbdən oyunlaşdırma tədris məqsədlərinə uyğun şəkildə dizayn edilməlidir. Digər bir problem müəllimlərin bu yanaşmaya hazır olmaması və metodiki biliklərin yetərsizliyidir. Oyunlaşdırmanın effektiv tətbiqi üçün müəllimlərin pedaqoji və texnoloji bacarıqlarının inkişaf etdirilməsi vacibdir. Bundan əlavə, texniki resursların məhdudluğu bəzi məktəblərdə oyunlaşdırmanın tətbiqini çətinləşdirə bilər.

Azərbaycan təhsil sistemində oyunlaşdırma əsaslı öyrənmənin tətbiqi şagird nailiyyətlərinin artırılması üçün böyük potensiala malikdir. Xüsusilə beynəlxalq qiymətləndirmə proqramlarının nəticələri göstərir ki, şagirdlərin problem həll etmə bacarıqlarının inkişafına ehtiyac vardır. Oyunlaşdırma bu bacarıqların formalaşdırılmasında effektiv alət ola bilər. Müəllim hazırlığı proqramlarında oyunlaşdırma metodlarının öyrədilməsi, tədris prosesində interaktiv metodların tətbiqinin artırılması bu yanaşmanın geniş tətbiqinə şərait yarada bilər.

Nəticə etibarilə oyunlaşdırma əsaslı öyrənmə müasir təhsil sistemində motivasiyanın artırılması, öyrənmə prosesinin effektivliyinin yüksəldilməsi və şagird nailiyyətlərinin yaxşılaşdırılması üçün güclü bir vasitədir. Bu yanaşma öyrənməni passiv prosesdən aktiv və maraqlı fəaliyyətə çevirir. Oyunlaşdırmanın uğurlu tətbiqi üçün onun elmi əsaslara söykənməsi, tədris

**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

məqsədləri ilə uzlaşdırılması və müəllimlərin bu sahədə bacarıqlarını davamlı inkişaf etdirməsi vacibdir. Gələcəkdə oyunlaşdırma əsaslı öyrənmənin daha geniş tətbiqi təhsil sistemlərinin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynaya bilər.

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 105-108
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 105-108
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

**Гамид Тагиев**
Бакинский Славянский Университет
магистрант
https://orcid.org/0009-0004-6481-1870
gammafk@mail.ru

# Основные проблемы перевода компьютерных терминов

***Ключевые слова:*** *перевод компьютерной терминологии, фонетические заимствования, калькирование, буквальный перевод, отсутствие эквивалентов*

***Açar sözlər:*** *kompüter terminologiyasının tərcüməsi, fonetik borclanmalar, kalkulyasiya (və ya sözün mənasını köçürmə), sözbəsöz tərcümə, ekvivalentlərin olmaması*

***Keywords:*** *translation of computer terminology, phonetic borrowings, calquing, literal translation, lack of equivalents*

Перевод компьютерной терминологии представляет собой одну из наиболее сложных задач в современной лингвистике и переводоведении. Специфика ИТ-лексики обусловлена высокой динамичностью, непрерывным появлением новых понятий и глобальной практикой использования английского языка как международного средства профессиональной коммуникации. Основные трудности перевода компьютерных терминов связаны с фонетико-графическими заимствованиями, калькированием и буквальным переводом, а также отсутствием точных эквивалентов в русском языке. Фонетические и графические заимствования представляют собой первую и наиболее очевидную проблему при адаптации англоязычных терминов. Английский и русский языки имеют принципиально

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 105-108
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 105-108
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

различающиеся фонетические системы, и многие английские звуки не имеют точных аналогов в русском языке. Звуки [θ], [ð], [æ], [ŋ] и [ʒ] воспроизводятся в русском языке приблизительно, что приводит к множеству вариантов произношения и написания одного и того же термина. Например, звук [θ] в слове *thread* чаще всего передаётся как «т», хотя по артикуляции он ближе к «с». Подобная фонетическая адаптация порождает разночтения и усложняет формирование единых стандартов в профессиональной лексике. Кроме того, английская графика часто не соответствует правилам фонетического письма, что создаёт дополнительную трудность для русификации терминов. Буквенные сочетания th, ch, gh, sh, ea, ou и ui могут передаваться разными способами. Например, ch может соответствовать «ч» (*cache* → кэш), «к» (*architecture* → архитектура), или «ш», а gh может не читаться (*night*), произноситься как [f] (*laugh*), или входить в состав диграфа, что создаёт варианты написания, такие как *high-level* → хай-левел, или хайлевел. Подобные фонетико-графические колебания создают неоднородность терминологии и затрудняют стандартизацию. Калькирование и буквальный перевод представляют собой второй важный источник проблем. Калькирование предполагает перенос значения английского термина с использованием русских языковых средств. Например, *operating system* становится «операционной системой», а *cloud computing* — «облачными вычислениями». Несмотря на сохранение смысла, буквальные переводы иногда теряют специфику профессионального значения, или создают громоздкие и трудночитаемые конструкции. В некоторых случаях калькирование может приводить к неправильной интерпретации термина, особен-

*Elm və Təhsil Tədqiqatları* **XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 105-108**
*Research in Science and Education* **XII Republican Scientific Conference / 12 february 2026 / 105-108**
**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

но если в русском языке отсутствует контекстуальный эквивалент.

Например, *rollback strategy* как «стратегия отката» понятна специалистам, но для широкой аудитории может быть неполностью прозрачной. Кроме того, буквальный перевод новых сложносоставных терминов, таких как *feature toggle* или *event sourcing*, часто затрудняет понимание, так как русский язык не обладает эквивалентной концептуальной моделью.

Третьей проблемой является отсутствие точных соответствий в русском языке. Многие английские термины обозначают специфические технологические процессы, конструкции или паттерны, которых не существует в русской практике. Например, термины *sharding*, *monorepo*, *CQRS* и *serverless architecture* не имеют прямых аналогов, что вынуждает использовать заимствования, или создавать описательные конструкции. Отсутствие точных эквивалентов усложняет работу переводчиков и авторов документации, а также может приводить к неоднозначному пониманию текста в профессиональной среде. Иногда попытки создать русские аналоги приводят к возникновению конкурирующих вариантов, что увеличивает вариативность терминов и снижает стандартизацию: *router* встречается как «роутер» и «рутер», *cache* — как «кэш», «кеш», или «кэш-память».

Перевод компьютерной терминологии представляет собой многоуровневую задачу, требующую учета фонетических, графических и семантических особенностей. Проблемы фонетических и графических заимствований, риски калькирования и буквального перевода, а также отсутствие точных соответствий в русском языке создают сложную систему препятствий для точной передачи

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 105-108
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 105-108
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

понятий. Для успешного перевода необходимо сочетать несколько стратегий: аккуратное фонетическое и графическое заимствование, калькирование с пояснением и использование описательных эквивалентов, что позволяет сохранить точность, ясность и функциональность терминов в русскоязычной профессиональной среде.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

**Aynurə Babayeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0004-8928-8684
baynure99@mail.ru

# Yeniyetmələrin şəxsiyyət inkişafı: psixoloji mexanizmlərin təhlili və formalaşma prosesində ətraf mühitin rolu

***Açar sözlər:*** *yeniyetmə, şəxsiyyət inkişafı, psixoloji əsaslar, ətraf mühit, emosional tənzimləmə*
***Keywords:*** *adolescent, personality development, psychological foundations, environment, emotional regulation*

Yeniyetməlik dövrü insan həyatında olduqca vacib və məsuliyyətli bir mərhələdir. Bu mərhələ, uşaqlıqdan yetkinliyə keçid prosesini əhatə etməklə yanaşı, fərdin şəxsiyyətinin əsas konturlarının müəyyənləşdiyi dövr hesab olunur. Yeniyetmənin emosional, sosial və intellektual inkişafı məhz bu mərhələdə özünün ən fəal və dinamik ifadəsini tapır. Bu səbəbdən də yeniyetmələrin psixoloji inkişaf xüsusiyyətlərinin və şəxsiyyət formalaşmasının elmi baxımdan öyrənilməsi, təhsil və tərbiyə prosesində düzgün yanaşmaların seçilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Yeniyetmə şəxsiyyətinin formalaşmasına təsir edən amillər çoxşaxəlidir. Ailə mühiti, məktəb, müəllim-şagird münasibətləri, həmyaşıdlarla ünsiyyət, cəmiyyətin mənəvi dəyərləri, sosial mühit və texnoloji təsirlər bu prosesdə əsas rolu oynayır. Bu yaş dövründə gənclər öz mənliklərini axtarır, kim olduqlarını və gələcəkdə kim olmaq istədiklərini müəyyənləşdirməyə çalışırlar. Bu isə onların davranışlarında qeyri-sabitlik, ziddiy-

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

yətli hisslər və tez-tez fikir dəyişiklikləri ilə müşayiət oluna bilər. Psixoloji yanaşmalar yeniyetmələrin bu çətin və mürəkkəb inkişaf dövrünü daha yaxşı anlamağa və düzgün istiqamətləndirməyə kömək edir.

Yeniyetmələrin şəxsiyyət inkişafında ən mühüm məqamlardan biri də emosional sabitliyin formalaşmasıdır. Bu dövrdə gənclərin özlərini ifadə etmə tələbatı artır, onlarda müstəqil qərarvermə və məsuliyyət hissi inkişaf etməyə başlayır. Psixoloji cəhətdən isə bu, fərdin öz emosiyalarını tənzimləmə bacarığının, empati qurma qabiliyyətinin və sosial rolları dərk etməsinin əsasını təşkil edir. Müxtəlif tədqiqatlar göstərir ki, bu mərhələdə düzgün psixoloji dəstək almayan yeniyetmələrdə özgüvən əskikliyi, aqressiv davranışlar və ya sosial izolasiya halları müşahidə oluna bilər. Buna görə də psixoloqlar və pedaqoqlar yeniyetmələrlə işləyərkən onların fərdi xüsusiyyətlərini və sosial ehtiyaclarını nəzərə almalıdırlar.

Təhsil mühiti yeniyetmənin şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Müəllimlərin və valideynlərin düzgün pedaqoji və psixoloji yanaşmaları, onların özlərinə olan münasibəti və onlara verilən dəyər, yeniyetmələrin daxili aləminə birbaşa təsir göstərir. Müsbət nümunələr, mənəvi dəstək, şəxsiyyətə hörmət və azadlığa verilən dəyər bu yaş dövründə mühüm stimullaşdırıcı faktorlar sırasındadır. Müasir dövrdə texnologiyanın və sosial medianın təsiri də bu sahədə xüsusi diqqət tələb edir. Yeniyetmələrin informasiyaya açıq olması həm inkişaf üçün imkan yaradır, həm də müəyyən risklər doğurur. Bu səbəbdən onların rəqəmsal mühitdəki davranışları da psixoloji yanaşmalarla müşahidə və tənzim olunmalıdır.

Beləliklə, yeniyetmə şəxsiyyətinin formalaşmasının psixoloji əsaslarının dərin öyrənilməsi, onlara fərdi yanaşmanın formalaşdırılması və sağlam sosial münasibətlərin qurulması üçün əhəmiyyətli zəmindir. Psixoloji biliklərin tədris və tərbiyə

**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

prosesinə inteqrasiyası yeniyetmələrin harmonik inkişafına, özünüdərk və sosial adaptasiya bacarıqlarının güclənməsinə xidmət edir. Bu sahədə aparılan tədqiqatlar və elmi yanaşmalar, yeniyetmələrin cəmiyyətə sağlam, özünə güvənən və sosial məsuliyyətli fərdlər kimi qazandırılması baxımından strateji əhəmiyyət daşıyır.

*Elm və Təhsil Tədqiqatları* **XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 112-114**
***Research in Science and Education*** **XII Republican Scientific Conference / 12 february 2026 / 112-114**
**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

**Nəzrin Zeynalova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0000-7911-0373
nazrinzeynalova2002@gmail.com

# İnteraktiv təlim metodlarının müasir dərsin təşkilində rolu

***Açar sözlər:*** *interaktiv təlim, müasir dərs, şagirdyönümlü təlim, fəal öyrənmə, kompetensiya, innovativ metodlar*
***Keywords:*** *interactive learning, modern lesson, student-centered learning, active learning, competence, innovative methods*

Dünya təhsil sisteminə inteqrasiya interaktiv metodların təlim prosesinin ayrılmaz tərkib hissəsinə çevrilməsində böyük rol oynadı. İnteraktiv sözü "qarşılıqlı təsir", "əməkdaşlıq" mənasını verir. İnteraktiv təlim metodları təlim prosesinin iştirakçıları – müəllim və şagird, eləcə də şagirdlər arasında aktiv qarşılıqlı əlaqəyə əsaslanır. Bu yanaşmanın əsas məqsədi biliklərin hazır şəkildə verilməsi deyil, onların birgə kəşf edilməsi və mənimsənilməsidir. Müasir təlim texnologiyalarının tətbiqi ilə təlimin həm təhsilləndirici, həm inkişafetdirici, həm tərbiyələndirici funksiyaları özünü daha qabarıq şəkildə göstərdi, həmçinin, təlimin keyfiyyətinin yüksəldilməsində rol oynayan mühüm amilə çevrildi. Yeni yanaşmaların mahiyyəti budur ki, artıq şagirdlər dərs prosesində yeni məlumatları mənimsəməklə birlikdə, məntiqi, yaradıcı, tənqidi təfəkkür fəaliyyətlərini də inkişaf etdirirlər. Artıq məktəbdə əsas məqsəd yalnız informasiyanı ötürmək deyil, onu dərk edən, tətbiq edə bilən, müstəqil və tənqidi düşünən fərd yetişdirməkdir. Məhz bu

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 112-114
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 112-114
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

səbəbdən interaktiv təlim metodları müasir pedaqoji prosesin əsas tərkib hissəsinə çevrilmişdir. Bu metodlar şagirdin dərsdə passiv dinləyici yox, aktiv subyekt kimi çıxış etməsinə, idrak fəaliyyətinin canlanmasına, ünsiyyət və əməkdaşlıq bacarıqlarının inkişafına şərait yaradır.

Müasir təhsil sistemində şagirdlərin fəal iştirakını təmin edən, onların tənqidi və yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirən metodlara xüsusi önəm verilir. Bu baxımdan interaktiv təlim metodları ən effektiv vasitələrdən biri hesab olunur. Tezisdə interaktiv təlim anlayışı, onun nəzəri-metodoloji əsasları, müasir dərsin strukturu daxilində rolu, tətbiq formaları və təlim nəticələrinə təsiri geniş şəkildə təhlil olunur. Eyni zamanda, interaktiv metodların şagird fəallığı, motivasiyası və sosial-psixoloji inkişafı üzərində yaratdığı müsbət təsirlərdən bəhs edilir. Araşdırmamızda müəllimin müasir rolu – fasilitator və istiqamətverici kimi çıxış etməsi məsələsinə də xüsusi yer ayrılmışdır.

Təcrübələr göstərir ki, tədris prosesində tətbiq edilən üsul və vasitələrin yenilənməsi aparılan axtarışların optimal nəticəsi kimi meydana çıxmış və son onillikdə interaktiv təlim metodları kimi xarakterizə edilən bu metodlardan hansı məqamlarda və necə istifadə edilməsi məsələsi aktual problem kimi diqqət mərkəzinə gətirilmişdir.

Hər bir müəllim fəal təlim metodlarından istifadə edərkən dərsin məzmununa və xarakterinə, şagirdlərin yaş və bilik səviyyələrinə, ümumi maddi-texniki bazaya və s. məsələlərə əsaslanaraq düzgün seçimlər etməlidir. Əks halda, istənilən nəticəyə nail olmaq çətinləşəcəkdir. Məsələ metodlardan istifadə edilməsi deyil, onlardan düzgün istifadə edilməsidir. Çünki müxtəlif dərs tipləri mövcuddur və hər dərsdə reallaşması gərək olan standartlar müəyyən edilmişdir. Həmin standartlar üzrə nəzərdə tutulan təlim nəticələrinin əldə edilməsində müəllim-

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 112-114
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 112-114
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

lərin üzərinə böyük məsuliyyət düşür. Buna görə də müəllimlər bu məsuliyyəti dərk etməli, dərsə qarşı ciddi yanaşmalıdırlar.

Elmi araşdırmalar göstərir ki, interaktiv metodlardan istifadə zamanı şagirdin dərsə marağı artır, yadda saxlama səviyyəsi yüksəlir, özünə inam formalaşır, tənqidi və yaradıcı düşünmə inkişaf edir, müstəqil öyrənmə bacarığı yaranır.

İnteraktiv təlim metodlarının tətbiqi müəllimin rolunu da dəyişdirir. O artıq sadəcə məlumat verən yox, aşağıdakı funksiyaları yerinə yetirən şəxs olur: -Fasilitator (yolu göstərən); -Bələdçi; -Koordinator; -Motivator; -Dəstəkçi.

İnteraktiv metodların tətbiqində müəllimlər bəzən bu problemlərlə qarşılaşa bilirlər: -Vaxtın məhdudluğu; -Şagirdlərin passivliyi; -Sinifdə say çoxluğu; -Texniki imkanların zəifliyi.

Nəticə olaraq qeyd edə bilərik ki, interaktiv təlim metodları müasir dərsin təşkilində əvəzolunmaz rol oynayır. Bu metodlar tədris prosesinin keyfiyyətini artırır, şagirdləri fəallaşdırır, onları müstəqil və yaradıcı düşünən, sosial məsuliyyətli şəxsiyyət kimi formalaşdırır.

İnteraktiv metodların geniş tətbiqi təhsil sisteminin daha çevik, daha effektli və çağdaş tələblərə uyğun fəaliyyət göstərməsinə imkan yaradır. Buna görə də müasir müəllimin əsas vəzifələrindən biri təlim prosesində bu metodları məqsədyönlü və sistemli şəkildə tətbiq etməkdir.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

**Mədinə Mütəllimova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0004-1718-0447
mutllimovamdin@gmail.com

# Azərbaycan dili dərslərində şagirdlərin koqnitiv bacarıqlarının formalaşdırılmasının pedaqoji əsasları

***Açar sözlər:*** *koqnitiv bacarıqlar, Azərbaycan dili dərsləri, pedaqoji yanaşmalar, tənqidi düşünmə, interaktiv təlim, mətnlə iş*

***Keywords:*** *cognitive skills, Azerbaijani language lessons, pedagogical approaches, critical thinking, interactive learning, text analysis*

Azərbaycan dili dərsləri şagirdlərin yalnız dil və nitq bacarıqlarını deyil, həm də onların idrak fəaliyyətini, məntiqi düşünmə qabiliyyətini və tənqidi yanaşma vərdişlərini formalaşdıran əsas fənlərdən biridir. Koqnitiv bacarıqların inkişafı ümumi təhsilin prioritet istiqamətlərindən biri kimi şagirdlərin düşünmək, təhlil etmək, ümumiləşdirmək və nəticə çıxarmaq kimi yüksək səviyyəli intellektual fəaliyyətlərini stimullaşdırır. Azərbaycan dili dərslərinin düzgün təşkil olunması koqnitiv proseslərin təkmilləşdirilməsində mühüm pedaqoji baza yaradır.

"Koqnitiv bacarıqların formalaşdırılmasının pedaqoji əsaslarını müəyyən edərkən konstruktivizm, fəaliyyət yönümlü təlim, inkişafetdirici tədris və kommunikativ yanaşma kimi müasir təlim nəzəriyyələri xüsusi əhəmiyyət kəsb edir. Şagird bilikləri hazır şəkildə qəbul edən deyil, onu aktiv şəkildə mənimsəyən, araşdıran və tətbiq edən subyekt kimi qəbul olunur. Azərbaycan

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 115-118
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 115-118
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

dili dərslərində şagirdin mətnlə işləməsi, qrammatik materialları təhlil etməsi, söz ehtiyatını genişləndirməsi və müxtəlif nitq fəaliyyəti növlərində iştirak etməsi onun idrak proseslərini dairəvi şəkildə inkişaf etdirir. Dərslərdə mətn əsaslı fəaliyyətlərin təşkili koqnitiv bacarıqların formalaşdırılmasının əsas pedaqoji şərtlərindən biridir." Mətn üzərində aparılan analiz, səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi, ideyanın və mövzunun tapılması, personajların davranış motivlərinin izahı kimi tapşırıqlar şagirdlərin analitik düşünmə, məntiqi nəticə çıxarma və qiymətləndirmə qabiliyyətini artırır. Bu prosesdə müəllimin sualvermə strategiyası – xüsusilə açıq tipli suallar – koqnitiv fəaliyyətin stimullaşdırılmasında həlledici rol oynayır.

Azərbaycan dili dərslərində interaktiv metodların tətbiqi də pedaqoji əsasların mühüm hissəsini təşkil edir. Qrup işləri, dialoqlar, rollu oyunlar, debatlar və müzakirələr şagirdlərin tənqidi və yaradıcı düşünməsini fəallaşdırır, onları müstəqil fikir yürütməyə sövq edir. "Bu fəaliyyətlər zamanı şagirdlər həm fikir formalaşdırır, həm də arqumentləşdirilmiş şəkildə əsaslandırma bacarıqlarını inkişaf etdirirlər. Koqnitiv bacarıqların formalaşdırılmasının digər bir pedaqoji əsası problemli təlimdir. Dərsdə yaradılan problem situasiyaları şagirdləri araşdırma aparmağa, fərziyyə irəli sürməyə, müxtəlif həll yollarını müqayisə etməyə yönəldir. Problemli təlim tənqidi düşüncə ilə yanaşı, qərarvermə və yaradıcı düşünmə kimi yüksək idrak bacarıqlarını gücləndirir."

Vizual təşkilatçılar – klaster, konsept xəritəsi, Venn diaqramı, balıq sümüyü modelləri – şagirdlərin informasiyanı strukturlaşdırmaq, əlaqələr qurmaq və məlumatı mənalandırmaq bacarıqlarını inkişaf etdirən effektiv pedaqoji vasitələrdir. Bu vasitələr koqnitiv proseslərin mərhələli şəkildə qurulmasını təmin edir və şagirdlərin abstrakt düşünməsini inkişaf etdirir. Azərbaycan dili dərslərində koqnitiv bacarıqların formalaş-

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

dırılması sistemli, məqsədyönlü pedaqoji fəaliyyəti tələb edir. Müəllimin dərsin strukturunu düzgün planlaşdırması, şagirdi fəal öyrənmə prosesinə cəlb etməsi, çoxşaxəli təlim metodlarından istifadə etməsi və qiymətləndirmə prosesini formativ xarakterdə qurması koqnitiv inkişafın əsas təminatçılarıdır. Bu yanaşmaların tətbiqi ümumilikdə şagirdlərin intellektual müstəqilliyini artırır, onların dili dərindən mənimsəməsinə və geniş təfəkkür tərzi formalaşdırmasına imkan yaradır.

Azərbaycan dili dərslərində koqnitiv bacarıqların formalaşdırılması təkcə təlim prosesinin məqsədyönlü şəkildə qurulması ilə deyil, həm də dilin özünün psixolinqvistik xüsusiyyətləri ilə bağlıdır. Dil düşüncənin ötürülməsi vasitəsi olmaqla yanaşı, həm də onun formalaşması üçün baza yaradır. Azərbaycan dili dərsləri şagirdlərin təfəkkür mexanizmlərinə birbaşa təsir edən ən güclü tədris sahələrindən biridir. Koqnitiv bacarıqların inkişafında söz ehtiyatı və semantik təhlilin rolu xüsusi vurğulanmalıdır. Şagird yeni sözləri öyrəndikcə, onların mənalarını kontekstə görə müəyyən etdikcə semantik əlaqələr qurur, məna çalarlarını müqayisə edir və nəticədə dil-məna əlaqəsi əsasında dərin düşüncə vərdişləri inkişaf edir. Sinonim, antonim, omonimlər üzərində aparılan fəaliyyətlər dilin məntiqi strukturunu şagirdin təfəkküründə daha da dəqiqləşdirir.

Koqnitiv inkişafın mühüm pedaqoji amillərindən biri də şagirdlərin nitq fəaliyyətinin çoxşaxəli təşkilidir. Şagirdə yalnız oxuma və yazma deyil, həm də danışma və dinləmə bacarıqlarını inkişaf etdirən inteqrativ tapşırıqlar təqdim edildikdə, o, informasiyanı müxtəlif kanallarla qəbul edir və emal edir. Bu isə koqnitiv proseslərin – diqqət, yaddaş, təhlil, sintez – daha intensiv inkişafına səbəb olur. Məsələn, dinlədiyi mətnə əsaslanaraq plan tərtib edən şagird həm eşitmə yaddaşını, həm məntiqi ardıcıllığını, həm də ümumiləşdirmə bacarığını gücləndirir. Azərbaycan dili dərslərində koqnitiv bacarıqların

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 115-118
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 115-118
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

formalaşmasına təsir edən mühüm pedaqoji əsaslardan biri diferensial təlimdir. Şagirdlərin yaş, inkişaf səviyyəsi, təcrübəsi və psixoloji xüsusiyyətləri nəzərə alınmaqla verilən tapşırıqlar koqnitiv inkişafı daha səmərəli edir. Məsələn, bir şagirddə məntiqi ardıcıllıq güclüdürsə, digərində vizual düşüncə üstünlük təşkil edir və müəllim bu xüsusiyyətləri nəzərə alaraq fərdiləşdirilmiş tapşırıqlar təqdim etməklə hər birinin idrak potensialını aktivləşdirə bilər.

"Koqnitiv bacarıqların inkişafında qiymətləndirmə mexanizmləri də pedaqoji baxımdan xüsusi əhəmiyyətə malikdir. Formativ qiymətləndirmə – rubriklər, özünüqiymətləndirmə cədvəlləri, geribildirim vərəqləri – şagirdə öz düşüncə prosesini dərk etməyə, öyrənmə strategiyalarını təkmilləşdirməyə və metakoqnitiv bacarıqlarını inkişaf etdirməyə imkan verir. Bu proses şagirdin öz öyrənməsinə nəzarət etmə və şüurlu şəkildə tənzimləmə bacarıqlarını formalaşdırır ki, bu da koqnitiv inkişafın ən yüksək mərhələlərindəndir. Müəllimin təlim mühiti yaratması, sualvermə mədəniyyətini formalaşdırması, şagirdin fikrinə hörmətlə yanaşması, onu müstəqil araşdırmaya yönəltməsi koqnitiv batareyaların "oyanması"na səbəb olur." Belə mühitdə şagird sadəcə öyrənən deyil, düşünən, araşdıran və yaratmağa çalışan aktiv subyektə çevrilir. Koqnitiv bacarıqların formalaşdırılmasının pedaqoji əsasları yalnız dərs daxilində deyil, dərsdənkənar mütaliə, layihə işi, təqdimatlar və yaradıcı tapşırıqlarla da dəstəklənməlidir. Şagird geniş oxuduqca, araşdırdıqca, müzakirələrə qatıldıqca beynində analitik və tənqidi düşüncə sferası formalaşır, dil isə bu inkişafın fundamental alətinə çevrilir.

*Elm və Təhsil Tədqiqatları* **XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 119-122**
***Research in Science and Education*** **XII Republican Scientific Conference / 12 february 2026 / 119-122**
**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

**Arifə Sadıxova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0006-3618-4966
arifa.sadigova78@gmail.com

# İngilis dili dərslərində nitq bacarıqlarının öyrədilməsində autentik mətnlərin tətbiqi üsulları

***Açar sözlər:*** *autentik materiallar, autentik mətnlər, ingilis dili tədrisi, nitq bacarıqları, dinləmə, danışıq*
***Keywords:*** *authentic materials, authentic texts, English language teaching, speaking skills, listening, speaking*

Autentik mətn anlayışı metodik ədəbiyyatda müxtəlif formalarda şərh olunur. Ümumilikdə autentik mətnlər tədris məqsədi üçün xüsusi olaraq hazırlanmayıb, real kommunikativ ehtiyaclar əsasında formalaşan və ana dil daşıyıcıları tərəfindən yaradılan dil materiallarıdır. Bu mətnlər dilin təbii istifadəsini, danışıq üslubunun xüsusiyyətlərini, mədəni və sosiolinqvistik aspektləri özündə əks etdirir.

Nitq bacarıqlarının inkişafı baxımından autentik mətnlərin əhəmiyyəti bir neçə aspektdə özünü göstərir. İlk növbədə, bu mətnlər öyrənənlərə dil vahidlərinin kontekstdə istifadəsini müşahidə etmək imkanı yaradır. İkincisi, autentik materiallar danışıq dilinə xas olan ifadələr, kollokasiyalar və diskurs markerləri ilə zəngindir ki, bu da öyrənənlərin nitqinin təbii və axıcı olmasına şərait yaradır. Üçüncüsü isə autentik mətnlər motivasiyaedici xarakter daşıyır və öyrənənlərin real ünsiyyətə marağını artırır.

Autentik mətnlərin nitq bacarıqlarının inkişafında effektiv tətbiqi onların məqsədyönlü və elmi əsaslara söykənən şəkildə

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

seçilməsini tələb edir. Mətn seçimi prosesində bir sıra metodik, psixoloji və pedaqoji meyarlar nəzərə alınmalıdır.

Əsas meyarlardan biri dil çətinliyidir. Mətnin leksik və qrammatik strukturu öyrənənlərin mövcud dil səviyyəsinə uyğun olmalıdır. Həddindən artıq mürəkkəb mətnlər nitq fəaliyyətində çətinlik yarada və öyrənənlərin ünsiyyətə marağını azalda bilər. Kraşenin "Input Hypothesis" nəzəriyyəsinə əsasən, təqdim olunan dil materialı öyrənənlərin mövcud səviyyəsindən bir qədər yüksək olmalı, lakin anlaşılan qalmalıdır.

Mətnin kommunikativ dəyəri də nəzərə alınmalıdır. Autentik mətn real ünsiyyət məqsədlərinə xidmət etməli, müzakirə, fikir mübadiləsi və qarşılıqlı əlaqə yaratmağa imkan verməlidir. Bundan əlavə, mədəni komponent daşıyan mətnlər öyrənənlərin interkultural kommunikativ bacarıqlarının formalaşmasına töhfə verir.

*Diskussiya və debat üsulu ilə autentik mətnlərin tətbiqi.* Diskussiya və debat üsulları nitq bacarıqlarının inkişafında ən çox tətbiq olunan kommunikativ metodlardan hesab olunur. Autentik mətnlər bu üsulların tətbiqi üçün zəngin mənbə rolunu oynayır. Qəzet və jurnal məqalələri, müsahibələr, analitik yazılar və sosial problemlərə dair reportajlar müzakirə üçün əlverişli materiallar hesab olunur. Diskussiya prosesi öyrənənlərin sərbəst fikir ifadə etmə, qarşı tərəfin mövqeyinə reaksiya vermə və arqumentlərini əsaslandırma bacarıqlarını formalaşdırır. Bu üsulda nitq fəaliyyəti spontan xarakter daşıyır və real ünsiyyətə maksimum yaxınlaşdırılır. Debat zamanı isə öyrənənlər müəyyən mövqeni müdafiə edir, bu da nitqin məntiqi strukturlu qurulmasına və leksik ehtiyatın aktivləşdirilməsinə səbəb olur.

Metodik baxımdan diskussiya və debatlar müəllimin rəhbərliyi altında mərhələli şəkildə təşkil olunmalıdır. İlkin mərhələdə autentik mətnlə tanışlıq, əsas ideyaların müəyyənləşdirilməsi və leksik hazırlıq aparılır. Əsas mərhələdə isə

tələbələr müzakirəyə cəlb olunur. Son mərhələdə nitq fəaliyyəti təhlil edilir və refleksiya aparılır.

*Rol oyunları və situativ nitq tapşırıqları.* Rol oyunları və situativ tapşırıqlar autentik mətnlər əsasında təşkil olunan nitq fəaliyyətinin ən effektiv formalarından biridir. Bu üsul real həyat situasiyalarının sinif mühitində modelləşdirilməsinə imkan yaradır. İşgüzar görüşlər, xidmət sahəsində ünsiyyət, səyahət zamanı dialoqlar və akademik müzakirələr bu tip tapşırıqların əsas mövzularını təşkil edir.

Rol oyunları zamanı öyrənənlər müəyyən sosial rolları icra edir və bu prosesdə dilin funksional aspektlərini mənimsəyirlər. Bu üsul öyrənənlərin psixoloji gərginliyini azaldır və onlarda ünsiyyətə inam yaradır. Harmer qeyd edir ki, rol oyunları öyrənənlərin nitq bacarıqlarının inkişafında motivasiyaedici amil kimi çıxış edir. Situativ tapşırıqlar, həmçinin, öyrənənlərin problemləri dil vasitəsilə həll etmə bacarığını formalaşdırır. Bu isə nitqin yalnız struktur deyil, eyni zamanda, kommunikativ funksiya daşımasına şərait yaradır.

*Pre-speaking, while-speaking və post-speaking mərhələləri.* Nitq bacarıqlarının inkişafında autentik mətnlərin tətbiqi mərhələli şəkildə təşkil olunmalıdır. Pre-speaking mərhələsində öyrənənlər mövzu ilə tanış edilir, açar sözlər və əsas anlayışlar müzakirə olunur. Bu mərhələ nitq fəaliyyətinə psixoloji və dil baxımından hazırlıq funksiyasını yerinə yetirir. While-speaking mərhələsində əsas nitq fəaliyyəti həyata keçirilir. Öyrənənlərdən dialoq qurmaq, fikir bildirmək və ya təqdimat etmək tələb olunur. Post-speaking mərhələsində isə rəy bildirmə, refleksiya və səhvlərin təhlili aparılır. Bu mərhələlər nitq bacarıqlarının sistemli şəkildə inkişafına xidmət edir.

*Audio və video autentik mətnlərin nitq bacarıqlarına təsiri.* Audio və video materiallar nitq bacarıqlarının inkişafında xüsusi əhəmiyyətə malikdir. Podkastlar, televiziya müsahibələri və film

**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

fraqmentləri öyrənənlərin intonasiya, tələffüz və danışıq sürətini mənimsəməsinə kömək edir. Dinlənilən materiallar əsasında aparılan şifahi xülasə və müzakirələr nitqin axıcılığını artırır.

Beləliklə, autentik mətnlərin ingilis dili dərslərində nitq bacarıqlarının öyrədilməsində tətbiqi kommunikativ səriştənin formalaşmasında mühüm rol oynayır. Bu mətnlər real ünsiyyət mühitini modelləşdirərək öyrənənlərin dili funksional və məqsədyönlü şəkildə mənimsəməsinə şərait yaradır.

*Elm və Təhsil Tədqiqatları* **XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 123-130**
***Research in Science and Education*** **XII Republican Scientific Conference / 12 february 2026 / 123-130**
**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

**Ceyhun Məmmədov**
Azərbaycan Universiteti
magistrant
https://orcid.org/0009-0006-9720-1766
comammadov@gmail.com

# Kommersiya banklarının səmərəliliyinin idarə edilməsi

***Açar sözlər:*** *kommersiya bankları, səmərəlilik, strateji idarəetmə, balanslaşdırılmış göstəricilər sistemi, idarəetmə paneli*
***Keywords:*** *commercial banks, efficiency, strategic management, balanced scorecard, management panel*

Müasir iqtisadi şəraitdə kommersiya banklarının fəaliyyəti yalnız mənfəət göstəriciləri ilə ölçülmür. Bank sektorunda rəqabətin artması, müştəri gözləntilərinin dəyişməsi, texnoloji yeniliklər və tənzimləyici tələblərin sərtləşməsi bank menecmentindən daha çevik, sistemli və uzunmüddətli yanaşmalar tələb edir. Bu baxımdan, bank fəaliyyətinin səmərəliliyinin strateji idarə edilməsi müasir iqtisadi ədəbiyyatda mühüm tədqiqat mövzularından birinə çevrilmişdir. Xüsusilə, maliyyə menecmenti sistemində səmərəliliyin idarə olunması üçün tətbiq edilən modellərin araşdırılması və onlardan ən optimalının seçilməsi bankların dayanıqlı inkişafı baxımından böyük əhəmiyyət daşıyır. Bu modellər əsasında müştəriyönümlülüyün bank menecmentinin səmərəliliyinə təsirinin öyrənilməsi və Azərbaycanın bank sisteminin inkişaf strategiyasının GZİT (SWOT) təhlili aktual elmi və praktiki əhəmiyyət kəsb edir. Hazırda bank fəaliyyətinin qiymətləndirilməsində yalnız maliyyə nəticələrinə əsaslanan yanaşmalar kifayət hesab

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 123-130
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 123-130
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

edilmir. Əksinə, bankın fəaliyyətini kompleks, hərtərəfli və sistemli şəkildə ölçməyə imkan verən müasir səmərəlilik idarəetmə modellərinə üstünlük verilir.

*1.Kommersiya banklarında səmərəliliyin strateji idarə edilməsi modelləri.* Kommersiya banklarında səmərəliliyin strateji idarə olunması ilə bağlı nəzəri əsaslar, ilk növbədə, Kaplan və Nortonun tədqiqatlarında ətraflı şəkildə izah edilmişdir. Müəlliflər balanslaşdırılmış göstəricilər sistemini təşkilat strategiyasının ölçülə bilən göstəricilər vasitəsilə həyata keçirilməsini təmin edən effektiv idarəetmə aləti kimi təqdim edirlər. Bank fəaliyyətində keyfiyyətin və davamlı inkişafın qiymətləndirilməsi məsələləri Avropa Keyfiyyət Fondu modelinə həsr olunmuş elmi araşdırmalarda geniş şəkildə işıqlandırılmışdır. EFQM yanaşması təşkilatların yalnız maliyyə nəticələrini deyil, eyni zamanda, müştəri məmnuniyyətini, insan resurslarının rolunu və sosial məsuliyyəti nəzərə almağın vacibliyini vurğulayır. Aparılan elmi araşdırmalar göstərir ki, kommersiya banklarının səmərəliliyinin strateji idarə olunmasında bir sıra müasir idarəetmə modelləri xüsusi əhəmiyyət kəsb edir. Bu modellər sırasında balanslaşdırılmış göstəricilər sistemi (BGS), Tableau de Bord, Avropa Keyfiyyət Fondu modeli (EFQM), səmərəlilik prizması və biznes proseslərinin idarə edilməsi sistemi (BPM) daha perspektivli yanaşmalar kimi qiymətləndirilir. Sözügedən modellər bankların həm maliyyə nəticələrinin, həm də qeyri-maliyyə amillərinin kompleks şəkildə idarə olunmasına imkan yaradır. Balanslaşdırılmış göstəricilər sistemi XX əsrin 90-cı illərində R.Kaplan və D.Norton tərəfindən irəli sürülmüş və strateji idarəetmədə geniş tətbiq olunan yanaşmalardan biridir. Bu modelin əsas üstünlüyü bank fəaliyyətində maliyyə və qeyri-maliyyə göstəriciləri arasında səbəb-nəticə əlaqələrinin müəyyən edilməsinə imkan verməsidir. BGS vasitəsilə bank strategiyası konkret, ölçülə

bilən və nəzarət oluna bilən göstəricilər sisteminə çevrilir ki, bu da strateji məqsədlərin icrasını asanlaşdırır. Balanslaşdırılmış göstəricilər sistemi dörd əsas istiqaməti əhatə edir: maliyyə göstəriciləri, müştəri-yönümlülük, daxili biznes prosesləri, habelə təlim və inkişaf. Bu istiqamətlər bir-biri ilə sıx qarşılıqlı əlaqədə olmaqla bankın ümumi səmərəliliyinin artırılmasına xidmət edir. Maliyyə göstəriciləri əsasən keçmiş fəaliyyətin nəticələrini əks etdirdiyi halda, müştəri məmnuniyyəti, insan kapitalının inkişafı və daxili proseslərin effektivliyi bankın gələcək uğurunun əsas amilləri kimi çıxış edir. Azərbaycan bank sektorunda balanslaşdırılmış göstəricilər sisteminə maraq 1990-cı illərin ortalarından etibarən formalaşmışdır. Praktikada bu sistem bank əməkdaşlarının fəaliyyətinin daha obyektiv qiymətləndirilməsi, strategiyanın icrasına nəzarətin gücləndiril-məsi, eləcə də motivasiya və mükafatlandırma mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə tətbiq olunur. Bununla yanaşı, BGS-in səmərəli tətbiqi bank daxilində uyğun korporativ mədəniyyətin və çevik idarəetmə strukturunun mövcudluğunu zəruri edir. Tableau de Bord modeli bankın strateji məqsədləri ilə cari idarəetmə qərarları arasında əlaqənin təmin olunmasına xidmət edən idarəetmə aləti kimi xarakterizə olunur. Bu model maliyyə və qeyri-maliyyə göstəricilərindən istifadə etməklə menecerlərin fəaliyyətinə operativ nəzarəti mümkün edir. Əvvəllər əsasən ali idarəetmə səviyyəsi üçün nəzərdə tutulmuş bu model müasir bank praktikalarında bütün idarəetmə pillələrində tətbiq edilir. Tableau de Bord modelinin əsas üstünlüklərindən biri göstəricilərin sərt struktur üzrə qruplaş-dırılmaması və bankın daxili proseslərinə daha çevik yanaşma təqdim etməsidir. Bu model menecerlərə həm fərdi, həm də kollektiv fəaliyyət nəticələrini qiymətləndirməyə imkan verir. Praktiki baxımdan Tableau de Bord balanslaşdırılmış göstəri-cilər sistemi ilə müqayisədə daha sadə və operativ idarəetmə

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

aləti hesab olunur. Avropa keyfiyyət fondu modeli bank fəaliyyətinin hərtərəfli qiymətləndirilməsinə yönəlmiş yanaşma kimi çıxış edir. EFQM modeli bankın güclü və zəif tərəflərini müəyyən etməklə onun davamlı inkişafını dəstəkləməyi hədəfləyir. Model çərçivəsində müştəri məmnuniyyəti, personalın maraqları və bankın cəmiyyətə təsiri əsas qiymətləndirmə meyarları sırasında yer alır. EFQM bank nəticələrinin həm daxili, həm də xarici mühitlə müqayisəli təhlilinə şərait yaradır. Bu modelin fərqləndirici cəhəti onun sosial yönümlü olmasıdır. Məhz bu xüsusiyyət EFQM modelinin yalnız kommersiya banklarında deyil, eyni zamanda, dövlət və qeyri-hökumət təşkilatlarında da geniş tətbiq edilməsinə imkan verir.

*Biznes proseslərinin idarə edilməsi sistemi (BPM).* Biznes proseslərinin idarə edilməsi konsepsiyası Hammer və Champy tərəfindən aparılmış tədqiqatlarda əsaslandırılmış və təşkilatlarda proses yanaşmasının səmərəliliyin artırılmasında mühüm rol oynadığı göstərilmişdir. Müəlliflər BPM yanaşmasını xərclərin azaldılması və əməliyyat effektivliyinin yüksəldilməsi üçün əsas vasitələrdən biri kimi qiymətləndirirlər.

Maraqlı tərəflərin gözləntilərinə əsaslanan idarəetmə yanaşmaları isə Neely və onun həmkarlarının araşdırmalarında öz əksini tapmışdır. Səmərəlilik prizması modeli bank fəaliyyətinin müxtəlif maraqlı tərəflərin baxış bucağından qiymətləndirilməsinin strateji qərarların keyfiyyətini artırdığını əsaslandırır. Biznes proseslərinin idarə edilməsi sistemi (Business Process Management – BPM) kommersiya banklarında səmərəliliyin artırılmasına yönəlmiş ən müasir idarəetmə yanaşmalarından biri hesab olunur. BPM bank fəaliyyətinin həm strateji, həm də əməliyyat səviyyəsində kompleks şəkildə idarə olunmasını təmin edən inteqrasiya olunmuş sistem kimi çıxış edir. Bu yanaşmanın əsas məqsədi bank daxilində mövcud olan biznes

proseslərinin şəffaflaşdırılması, optimallaşdırılması və nəticə etibarilə resurslardan daha səmərəli istifadənin təmin edilməsidir. BPM modeli bankın əsas biznes proseslərinin – kreditləşmə, depozitlərin cəlb edilməsi, ödəniş və hesablaşmalar, risklərin idarə edilməsi, müştəri xidmətləri və digər əməliyyatların mərhələlər üzrə təsvirini və modelləşdirilməsini nəzərdə tutur. Proseslərin bu şəkildə strukturlaşdırılması bank rəhbərliyinə hər bir mərhələdə yaranan gecikmələri, xərcləri və riskləri müəyyən etməyə, həmçinin, alternativ qərar variantlarını qiymətləndirməyə imkan verir. Nəticədə idarəetmə qərarları daha əsaslandırılmış və məlumatlara söykənən formada qəbul edilir. Biznes proseslərinin idarə edilməsi sistemi yalnız cari fəaliyyətin təhlili ilə məhdudlaşmır, eyni zamanda, gələcək inkişaf perspektivlərinin formalaşdırılmasında da mühüm rol oynayır.

BPM vasitəsilə banklar maliyyə axınlarını, əməliyyat xərclərini və gəlirləri əvvəlcədən modelləşdirə, müxtəlif ssenarilər üzrə mümkün nəticələri proqnozlaşdıra bilirlər. Bu xüsusiyyət xüsusilə qeyri-sabit iqtisadi şəraitdə fəaliyyət göstərən banklar üçün risklərin azaldılması və strateji dayanıqlığın təmin edilməsi baxımından əhəmiyyətlidir. BPM sistemlərinin tətbiqi bank menecmentinə tam idarəetmə dövrü çərçivəsində nəzarət imkanı yaradır. Bu dövr proseslərin planlaşdırılması, icrası, monitorinqi və qiymətləndirilməsi mərhələlərini əhatə edir. Beləliklə, bankda həyata keçirilən hər bir əməliyyat davamlı nəzarət altında saxlanılır və əldə olunan nəticələr əsasında proseslərin təkmilləşdirilməsi üçün operativ tədbirlər görülür. Bu yanaşma bankın fəaliyyətində çevikliyi artırmaqla yanaşı, müştəri məmnuniyyətinin yüksəldilməsinə də müsbət təsir göstərir. BPM sistemləri eyni zamanda rəqəmsallaşma prosesləri ilə sıx bağlıdır. Müasir banklarda BPM informasiya texnologiyaları ilə inteqrasiya olunaraq avtomatlaş-

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

dırılmış proseslərin qurulmasına şərait yaradır. Bu isə insan faktorundan asılılığı azaldır, əməliyyat səhvlərinin qarşısını alır və xidmətlərin göstərilmə müddətini qısaldır. Nəticədə, banklar həm vaxt, həm də maliyyə baxımından əhəmiyyətli qənaət əldə edirlər. Bununla yanaşı, biznes proseslərinin idarə edilməsi sistemlərinin tətbiqi müəyyən çətinliklərlə də müşayiət oluna bilər. Bu sistemlərin qurulması və saxlanılması yüksək maliyyə xərcləri tələb edir, eyni zamanda bank daxilində təşkilati strukturun və iş üsullarının yenidən qurulmasını zəruri edir. Əməkdaşların yeni proseslərə uyğunlaşdırılması, müvafiq təlimlərin keçirilməsi və dəyişikliklərə qarşı müqavimətin aradan qaldırılması BPM-in uğurlu tətbiqi üçün vacib şərtlər sırasındadır.

Ümumilikdə, biznes proseslərinin idarə edilməsi sistemi kommersiya banklarında səmərəliliyin artırılması, xərclərin optimallaşdırılması və strateji məqsədlərə nail olunması baxımından mühüm idarəetmə aləti kimi qiymətləndirilə bilər. Bu sistemin effektiv tətbiqi bankların rəqabət qabiliyyətinin yüksəldilməsinə, maliyyə dayanıqlığının möhkəmləndirilməsinə və uzunmüddətli inkişafın təmin edilməsinə əhəmiyyətli töhfə verir. Aparılmış araşdırma göstərir ki, kommersiya banklarında səmərəliliyin idarə olunması məsələsi müasir iqtisadi şəraitdə çoxşaxəli yanaşma tələb edir. Yalnız maliyyə nəticələrinə əsaslanan klassik idarəetmə mexanizmləri bank fəaliyyətinin real vəziyyətini tam əks etdirmir və strateji qərarların qəbulunda məhdud imkanlar yaradır. Rəqabət mühitinin dərinləşməsi, texnoloji yeniliklərin sürətlə yayılması və müştəri gözləntilərinin dəyişməsi bankların idarəetmə sistemlərinə daha çevik və analitik yanaşmaların tətbiqini zəruri edir. Tədqiqat çərçivəsində nəzərdən keçirilən müasir idarəetmə modelləri kommersiya banklarının fəaliyyətinin qiymət-ləndirilməsində fərqli baxış bucaqları təqdim edir. Balanslaşdırılmış

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 123-130
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 123-130
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

göstəricilər sistemi bank strategiyasının ölçülə bilən hədəflər vasitəsilə reallaşdırılmasına şərait yaradır və maliyyə göstəriciləri ilə qeyri-maliyyə amilləri arasında əlaqəni ön plana çıxarır. Tableau de Bord modeli isə idarəetmə prosesində operativliyi artıraraq menecerlərin gündəlik fəaliyyətə daha effektiv nəzarət etməsinə imkan verir. EFQM modeli bank fəaliyyətinin keyfiyyət aspektlərini və sosial məsuliyyət amillərini nəzərə almaqla davamlı inkişaf yanaşmasını gücləndirir. Səmərəlilik prizması maraqlı tərəflərin gözləntilərinin uzlaşdırılmasına əsaslanaraq idarəetmə qərarlarının balanslı şəkildə formalaşdırılmasını təmin edir. BPM sistemi isə bankın daxili proseslərinin optimallaşdırılması və resurslardan rasional istifadənin təmin olunmasında mühüm alət kimi çıxış edir.

Fikrimizcə, kommersiya bankları səmərəliliyin idarə olunması prosesinə başlamazdan əvvəl mövcud idarəetmə mexanizmlərinin hərtərəfli təhlilini aparsınlar. Bu təhlil bankın zəif və güclü tərəflərinin müəyyən edilməsinə, habelə prioritet inkişaf istiqamətlərinin seçilməsinə imkan verə bilər. Seçilən idarəetmə modellərinin uğurlu tətbiqi üçün korporativ mədəniyyətin gücləndirilməsi, əməkdaşların dəyişikliklərə adaptasiyası və motivasiya mexanizmlərinin təkmilləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, rəqəmsal texnologiyaların imkanlarından istifadə edərək biznes proseslərinin avtomatlaşdırılması və monitorinq mexanizmlərinin gücləndirilməsi bankların əməliyyat xərclərinin azaldılmasına və xidmət keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərə bilər. İdarəetmə göstəricilərinin mütəmadi olaraq təhlil edilməsi və əldə olunan nəticələr əsasında çevik qərarların qəbul edilməsi səmərəliliyin davamlı xarakter almasına şərait yaradır. Beləliklə, kommersiya banklarında səmərəliliyin strateji idarə olunması sistemli yanaşma, məqsədyönlü planlaşdırma və davamlı nəzarət mexanizmlərinin tətbiqini tələb edir. Müasir idarəetmə

*Elm və Təhsil Tədqiqatları* **XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 123-130**
*Research in Science and Education* **XII Republican Scientific Conference / 12 february 2026 / 123-130**
**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

modellərinin düzgün seçilməsi və effektiv inteqrasiyası bankların maliyyə dayanıqlığının möhkəmləndirilməsinə, rəqabət üstünlüklərinin formalaşdırılmasına və uzunmüddətli inkişafın təmin edilməsinə imkan yaradır.

**Нурлана Кулиева**
Бакинский Славянский Университет
магистрант
https://orcid.org/0009-0006-5185-9423
nurlana.quliyeva.03@mail.ru

# Влияния стиля общения на сплоченность и конфликтность коллектива

***Ключевые слова:*** *стиль общения, коллектив, групповая сплочённость, конфликтность, коммуникация, психологический климат*
***Açar sözlər:*** *ünsiyyət tərzi, komanda, qrup birliyi, münaqişə, ünsiyyət, psixoloji iqlim*
***Keywords:*** *communication style, team, group cohesion, conflict, communication, psychological climate*

В данной работе анализируется роль стиля общения в формировании уровня сплочённости и конфликтности коллектива. Рассматриваются особенности различных коммуникативных стилей и их влияние на межличностные отношения, социально-психологический климат и результативность совместной деятельности. Особое внимание уделяется значению конструктивного общения как условия предупреждения конфликтов и укрепления внутригруппного взаимодействия. Подчёркивается важность развития коммуникативной культуры участников коллектива для создания благоприятной и устойчивой рабочей среды.

Стиль общения занимает важное место в системе межличностных отношений и оказывает заметное воздействие на функционирование коллектива. В процессе совместной деятельности характер коммуникации во

многом определяет качество взаимодействия между членами группы, степень доверия, взаимопонимания и готовности к сотрудничеству. Эффективное коммуникативное взаимодействие способствует формированию позитивной атмосферы в коллективе, тогда как неудачные способы общения могут провоцировать напряжённость и конфликты. В рамках психологических исследований стиль общения рассматривается как относительно устойчивая совокупность приёмов и способов взаимодействия с окружающими, отражающая индивидуальные особенности личности и её отношение к другим людям. В зависимости от преобладающих характеристик выделяются авторитарный, демократический и либеральный стили общения, каждый из которых по-разному влияет на процессы, происходящие внутри коллектива.

Авторитарный стиль общения, характеризующийся жёстким контролем и ограничением инициативы участников, нередко приводит к снижению уровня доверия и росту скрытого недовольства в коллективе. В подобных условиях усиливается эмоциональное напряжение, что отрицательно сказывается на сплочённости группы и эффективности совместной деятельности. В отличие от него, демократический стиль общения, основанный на диалоге, уважении и учёте мнений членов коллектива, способствует развитию сотрудничества, взаимной поддержки и ответственности за общий результат.

Существенную роль в снижении конфликтности играет открытость и конструктивность общения. Способность корректно выражать собственную позицию, готовность слышать партнёра и стремление к поиску взаимоприемлемых решений позволяют предупреждать развитие конфликтных ситуаций. В сплочённом коллективе возни-

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 131-133
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 131-133
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

кающие конфликты, как правило, носят конструктивный характер и могут способствовать развитию межличностных отношений.

Либеральный стиль общения, отличающийся минимальным уровнем контроля и отсутствием чёткой регуляции взаимодействия, может привести к снижению организованности и возникновению противоречий между членами коллектива. Недостаток координации и обратной связи зачастую становится причиной недопонимания и роста конфликтности внутри группы.

Таким образом, стиль общения является значимым фактором, определяющим уровень сплочённости и конфликтности коллектива. Формирование навыков конструктивного взаимодействия, развитие культуры общения и ориентация на сотрудничество создают условия для благоприятного социально-психологического климата и повышения эффективности коллективной деятельности.

*Elm və Təhsil Tədqiqatları* **XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 134-138**
*Research in Science and Education* **XII Republican Scientific Conference / 12 february 2026 / 134-138**
**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

**Ziba Asadova**
"Simurq" High School
https://orcid.org/0009-0009-0366-6151
zibaasadova94@gmail.com

# Learner Engagement in Language Classes through Multimedia Instructions

***Keywords:*** *language learning, multimedia instruction, educational technology, student motivation, interactive learning, differentiated instruction*

***Açar sözlər:*** *dil öyrənmə, multimedia təlimi, təhsil texnologiyası, tələbə motivasiyası, interaktiv öyrənmə, fərdiləşdirilmiş təlim*

Language learning is a complex process that requires sustained motivation, active participation, and meaningful interaction with peers and instructors (Dörnyei & Ushioda, 2011). Traditional teaching methods, which often rely heavily on textbooks, lectures, and rote memorization, may fail to fully engage students, leading to decreased retention and lower learning outcomes. In contrast, multimedia instruction—using videos, audio recordings, images, animations, and interactive digital tools—offers opportunities to stimulate multiple senses, capture attention, and support diverse learning preferences (Mayer, 2009).

Research shows that multimedia instruction can improve cognitive engagement by presenting information in multiple formats, thereby enhancing comprehension and retention (Liu &

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

Chu, 2010). For instance, combining visual and auditory stimuli in a single lesson can help learners understand pronunciation, intonation, and cultural context in a more effective way than traditional methods alone. Multimedia tools also provide instant feedback and interactive experiences, which can foster higher levels of motivation and self-directed learning (Chen & Hsu, 2008).

Previous studies have highlighted the benefits of multimedia in education, particularly in language learning. Mayer (2009) argued that multimedia learning enables students to process information through both verbal and visual channels, which can reduce cognitive overload and improve understanding. Similarly, Liu and Chu (2010) found that multimedia-based games and interactive lessons increased student motivation, engagement, and performance in English listening and speaking courses. Chen and Hsu (2008) emphasized the role of personalized learning experiences, where students could learn at their own pace using mobile-assisted multimedia tools. These studies suggest that multimedia instruction is particularly effective in fostering active learning, where learners are not passive recipients of information but active participants in constructing knowledge.

In addition to cognitive benefits, multimedia can support affective engagement by making lessons more enjoyable and relevant to students' interests. For example, educational videos that include cultural references, real-life dialogues, or storytelling elements can create emotional connections, encouraging students to participate actively and retain information more effectively (Dörnyei & Ushioda, 2011).

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

This study employed a qualitative research approach to examine the effects of multimedia instruction on learner engagement. A total of 60 secondary school students from three different language classes participated in the study. Over a period of six weeks, the classes incorporated various multimedia materials, including: -Short educational videos illustrating real-life conversations and cultural contexts; -Audio dialogues for listening comprehension and pronunciation practice; -Interactive quizzes to reinforce vocabulary and grammar skills; -Visual aids and infographics to explain complex language structures. Data were collected using classroom observations, student questionnaires, and interviews. Observations focused on participation, attention, and collaborative behaviors, while questionnaires measured students' perceptions of engagement, motivation, and learning effectiveness. The data were analyzed thematically to identify patterns in learner engagement and assess the impact of multimedia instruction on learning outcomes (Liu & Chu, 2010).

The study found that multimedia instruction had a significant positive impact on learner engagement: Increased Participation: Students were more willing to participate in class activities, answer questions, and engage in discussions when multimedia tools were used. Interactive quizzes, in particular, stimulated competition and collaboration, encouraging even shy students to contribute. Improved Attention and Focus: Multimedia lessons that combined videos, audio, and visuals captured students' attention more effectively than traditional lectures. Students reported that lessons felt more dynamic and enjoyable, reducing distractions and off-task behaviors. Enhanced Comprehension and Retention: Audio and video materials improved listening

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

skills and pronunciation. Visual aids helped learners understand complex grammatical structures and vocabulary. Students demonstrated better recall in post-lesson assessments compared to traditional methods.

The findings align with previous research suggesting that multimedia instruction enhances cognitive, affective, and behavioral engagement in language learning (Mayer, 2009; Chen & Hsu, 2008). By stimulating multiple senses and providing interactive experiences, multimedia supports diverse learning styles and accommodates students with varying abilities.

Teachers play a critical role in maximizing the benefits of multimedia. Effective integration requires careful planning, ensuring that multimedia tools complement learning objectives rather than serve as mere entertainment. For example, videos should be short, focused, and aligned with lesson goals, while interactive quizzes should provide immediate feedback to reinforce learning. Incorporating multimedia instruction in language classes significantly improves learner engagement, motivation, and comprehension (Liu & Chu, 2010; Mayer, 2009). Multimedia tools—ranging from videos and audio materials to interactive quizzes—stimulate attention, promote active participation, and support diverse learning needs. Educators are encouraged to integrate multimedia thoughtfully into lesson plans to create interactive and stimulating learning environments.

Future research could explore long-term effects of multimedia instruction, its applicability across different age groups, and the role of emerging technologies such as virtual reality and AI-based language tools. Understanding these

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

aspects will help educators design effective, engaging, and inclusive language learning experiences.

## References

1. Chen, C. M., & Hsu, S. H. (2008). Personalized English-auxiliary learning system with mobile technology. Educational Technology & Society, 11(3), 143-157.
2. Dörnyei, Z., & Ushioda, E. (2011). Teaching and Researching Motivation (2nd ed.). Routledge.
3. Liu, T. Y., & Chu, Y. L. (2010). Using ubiquitous games in an English listening and speaking course: Impact on learning outcomes and motivation. Computers & Education, 55(2), 630-643.
4. Mayer, R. E. (2009). Multimedia Learning (2nd ed.). Cambridge University Press.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Elnurə Səfərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-4151-1750
seferovaelnure@mail.ru
**Zərifə İsmayılova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-9700-0116
zarifa.ismayilova93@gmail.com

## Dekorativ və bostan bitki zərərvericilərinin bioekologiyası və təsərrüfat əhəmiyyəti

***Açar sözlər:*** *dekorativ, bostan, zərərverici, bioekologiya, təsərrüfat*
***Keywords:*** *decorative, vegetable, pest, bioecology, agricultural significance*

Dekorativ və bostan bitkilərində zərərverici həşəratların müxtəlifliyi onların bioekoloji xüsusiyyətlərinin öyrənilməsini zəruri edir. Aparılan tədqiqatlar nəticəsində bu bitkilərdə 35 əsas zərərverici növ qeydə alınmış, onların içərisindən 17 dominant növün bioekoloji xüsusiyyətləri, yayılma arealı və təsərrüfat əhəmiyyəti öyrənilmiş, həmçinin, 10 növün təbii düşmənləri müəyyən edilmişdir. Bu zərərvericilər bitkilərin vegetativ orqanlarını zədələyərək məhsuldarlığı azaldır, bəzən isə bitkilərin tam məhvinə səbəb olur.

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 139-142
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 139-142
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

*Fillireya ağqanadlısı (*Siphoninus phillyreae *Hal.)* müxtəlif meyvə və dekorativ bitkilərin yarpaqlarında yumurta qoyaraq inkişaf edir. Yumurtaları çox xırda, oval formalı olub yarpağın alt səthinə saplaq vasitəsilə bərkidilir. Sürfələr üç inkişaf mərhələsi keçir, pupari mərhələsindən sonra yetkin fərdlər əmələ gəlir. Bioloji inkişaf dövrü yumurta, sürfə, pupari və imaqo mərhələlərindən ibarətdir. Zərərverici yarpaqların şirəsini soraraq bitkilərin fotosintez qabiliyyətini zəiflədir, nəticədə bitkinin böyüməsi ləngiyir və məhsuldarlıq azalır. Onun populyasiyasının azalmasında yırtıcı böcəklər və parazit xalsidlər mühüm rol oynayır. Yarpaqların vaxtından əvvəl saralması və tökülməsi məhsulun keyfiyyətini aşağı salır, bazar dəyərini azaldır.

*Kələm ağqanadlısı (*Aleyrodes brassicae *Wal.)* əsasən kələm və digər tərəvəz bitkilərinin yarpaqlarında yumurta qoyur. Yumurtalar dairəvi və ya topa halında yerləşdirilir, sayı yüzlərlə ola bilər. Sürfələr az hərəkətli olub yarpağın şirəsi ilə qidalanır, iki dəfə qabıq dəyişdikdən sonra pupari mərhələsinə keçir. Yetkin fərdlər puparidən çıxaraq yarpaqları zədələyir, bitkinin fotosintezini zəiflədir. İnkişaf prosesi temperatur və rütubətdən asılı olaraq dəyişir. İsti şəraitdə inkişaf sürətlənir, sərin şəraitdə isə uzanır. Əlverişli bioloji mühitdə ağqanadlılar bir neçə həftə yaşayaraq bitkilərə ciddi ziyan vururlar. Kütləvi çoxalma hallarında yarpaqların tamamilə saralması və bitkinin zəifləməsi müşahidə olunur.

Ağqanadlıların populyasiya dinamikası mövsümi xarakter daşıyır. Yazın sonu və yayda kütləvi çoxalma müşahidə olunur, payızda isə azalır. Yumurtaların inkişaf müddəti 12-14 gün arasında dəyişir, sürfələrin inkişafı isə 2-3 mərhələdə başa çatır. Pupari mərhələsi zərərvericinin ən davamlı dövrü hesab olunur, bu mərhələdə bitki üzərində uzun müddət qala bilir. Bioloji mübarizə üsulları – yırtıcı böcəklərin və parazitlərin fəaliyyəti

*Elm və Təhsil Tədqiqatları* XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 139-142
*Research in Science and Education* XII Republican Scientific Conference / 12 february 2026 / 139-142
https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

zərərvericilərin sayını təbii şəkildə azaldır. Kimyəvi mübarizə yalnız kütləvi çoxalma hallarında tətbiq edilməlidir, çünki təbii düşmənlərin fəaliyyətinə mənfi təsir göstərə bilər.

Dekorativ və bostan bitkilərində ağqanadlıların bioekoloji xüsusiyyətləri onların sürətli çoxalma qabiliyyətini və geniş yayılmasını göstərir. Bu zərərvericilər yarpaqların şirəsini soraraq bitkilərin fizioloji funksiyalarını zəiflədir, məhsuldarlığı aşağı salır. Onların populyasiyasının tənzimlənməsində təbii düşmənlərin rolu böyükdür. Mübarizə tədbirlərində bioloji üsulların üstünlüyü nəzərə alınmalı, kimyəvi mübarizə isə yalnız zəruri hallarda tətbiq edilməlidir.

Nəticə olaraq, dekorativ və bostan bitkilərində müşahidə olunan ağqanadlı zərərvericilər yüksək adaptasiya qabiliyyətinə malikdir, sürətlə çoxalır və müxtəlif bitkilərin vegetativ orqanlarını zədələyərək məhsuldarlığı əhəmiyyətli dərəcədə azaldır. Onların bioekoloji xüsusiyyətləri göstərir ki, yumurta, sürfə, pupari və imaqo mərhələləri boyunca bitki ilə sıx əlaqədədirlər və qidalanma prosesi əsasən yarpaqların şirəsinin sorulması ilə həyata keçirilir. Bu, fotosintezin zəifləməsinə, yarpaqların vaxtından əvvəl saralmasına və tökülməsinə səbəb olur.

Aparılan müşahidələr sübut edir ki, ağqanadlıların populyasiya dinamikası mövsümi xarakter daşıyır: yay aylarında kütləvi çoxalma baş verir, payızda isə azalır. Əlverişli iqlim şəraiti və qida bitkilərinin bolluğu onların geniş yayılmasına şərait yaradır. Bununla yanaşı, təbii düşmənlərin – yırtıcı böcəklərin və parazitlərin fəaliyyəti populyasiyanın azalmasında mühüm rol oynayır.

Təsərrüfat baxımından bu zərərvericilər məhsulun miqdarını və keyfiyyətini aşağı salaraq iqtisadi ziyan törədirlər. Mübarizə tədbirlərində bioloji üsulların üstünlüyü nəzərə alınmalı,

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

kimyəvi mübarizə isə yalnız kütləvi çoxalma hallarında tətbiq edilməlidir.

Beləliklə, ağqanadlıların bioekoloji xüsusiyyətlərinin öyrənilməsi onların yayılma dinamikasının izlənməsi və effektiv mübarizə strategiyalarının hazırlanması üçün mühüm əhəmiyyət kəsb edir.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

**Qumru Balaxanova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-1709-1442
19_bq_91@mail.ru

# Antropogen təsirlərlə zədələnmiş ərazilərdə biomüxtəliflik və ekoloji funksionallıq

***Açar sözlər:*** *antropogen təsir, biomüxtəliflik, ekosistem funksionallığı, dayanıqlılıq, habitat parçalanması, bərpa tədbirləri*
***Keywords:*** *anthropogenic impact, biodiversity, ecosystem functioning, resilience, habitat fragmentation, restoration measures*

İnsan fəaliyyəti müasir dövrdə ekosistemlər üzərində ən əhəmiyyətli təsirləri yaradır. Sənaye, kənd təsərrüfatı, urbanizasiya və nəqliyyat infrastrukturu kimi antropogen amillər torpaq örtüyünü dəyişdirir, təbii habitatları parçalayır və yerli flora və fauna icmalarını ciddi təzyiqlərə məruz qoyur. Bu dəyişikliklər biomüxtəlifliyin azalmasına, funksional növlərin itirilməsinə və ekosistem xidmətlərinin pozulmasına səbəb olur. Antropogen təsirlərlə zədələnmiş ərazilərin öyrənilməsi biomüxtəlifliyin qorunması və ekosistemlərin dayanıqlılığının qiymətləndirilməsi üçün mühüm elmi əhəmiyyət kəsb edir.

Biomüxtəliflik, ekosistemdə növ zənginliyi və növlərarası qarşılıqlı təsirlərin müxtəlifliyini ifadə edir. Yüksək biomüxtəliflik ekosistemin dayanıqlığını və funksional stabilliyini təmin edir. Antropogen təsirlər nəticəsində bir çox növ ya məhv olur, ya da populyasiyaları kəskin şəkildə azalır. Bu vəziyyət isə ekoloji funksionallığın zəifləməsinə gətirib çıxarır. Məsələn,

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

torpaqda mikroorqanizmlərin azalması qida maddələrinin dövranını ləngidir, bitki örtüyünün zəifləməsi isə torpaq eroziyası və su rejiminin dəyişməsi kimi proseslərə təsir edir. Zədələnmiş ərazilərdə ekosistem funksionallığının qorunması və bərpası üçün müxtəlif metodlardan istifadə olunur. İlk növbədə, biomonitorinq vasitəsilə icmalarda mövcud növ tərkibi və funksional qruplar müəyyən edilir. Daha sonra ekosistemdə funksional ehtiyatlılıq, yəni eyni ekoloji rolu yerinə yetirən bir neçə növün mövcudluğu qiymətləndirilir. Funksional ehtiyatlılıq yüksək olan ərazilər antropogen təsirlərə qarşı daha dayanıqlıdır və ekosistem xidmətlərini uzun müddət təmin edə bilir. Tədqiqatlar göstərir ki, antropogen zədələnmiş ərazilərdə bərpa tədbirləri yalnız yerli növlərin əkilməsi və ya qorunması ilə kifayətlənməməlidir. Ərazinin strukturu, torpaq keyfiyyəti və su rejimi kimi ekoloji amillər də bərpa prosesinə inteqrasiya edilməlidir. Belə tədbirlər biomüxtəlifliyin bərpasını sürətləndirir, ekosistem funksiyalarını bərpa edir və antropogen təsirlərə qarşı dayanıqlığı artırır.

Nəticə olaraq, antropogen təsirlərlə zədələnmiş ərazilərdə biomüxtəliflik və ekoloji funksionallığın qorunması müasir ekoloji tədqiqatların və idarəetmə strategiyalarının əsas istiqamətlərindən biridir. Yüksək biomüxtəliflik və funksional ehtiyatlılıq ekosistemlərin dayanıqlığını təmin edir və ekoloji xidmətlərin davamlılığını qoruyur. Ekosistem bərpası və davamlı idarəetmə tədbirləri, həmçinin, monitorinq sistemləri, bu ərazilərin sağlamlığının qorunması üçün zəruridir.

Tədqiqatın aparılması üçün antropogen təsirlərlə zədələnmiş müxtəlif ərazilər seçilmişdir. Bu ərazilər şəhər yaxınlığı, sənaye zonaları və intensiv kənd təsərrüfatı fəaliyyətinə məruz qalmış torpaq sahələrini əhatə edir. Seçim zamanı biomüxtəlifliyin təhlilinə və ekosistem funksionallığının qiymətləndirilməsinə əlverişli sahələr prioritet olaraq nəzərə alınmışdır.

Sahə tədqiqatları zamanı bitki örtüyü və torpaq nümunələri toplanmış, ekoloji göstərici növlər və funksional qruplar müəyyən edilmişdir. Bitki nümunələri müxtəlif növ qrupları üzrə sayılmış və növ zənginliyi, bolluq və paylanma göstəriciləri qeydə alınmışdır. Torpaq nümunələri üzərində fiziki-kimyəvi analizlər aparılaraq torpaq strukturu, rütubət, pH və üzvi maddə tərkibi öyrənilmişdir. Bu analizlər ekosistem funksionallığını qiymətləndirmək və torpağın dayanıqlıq səviyyəsini müəyyən etmək üçün istifadə edilmişdir.

Eyni zamanda, sahələrin peyk təsvirləri və coğrafi informasiya sistemləri vasitəsilə analiz edilmişdir. Bu üsullar habitat parçalanması, ərazi əlaqəliliyi və insan təsirinin intensivliyi barədə məlumat əldə etməyə imkan vermişdir. Təhlil zamanı sahələr arasındakı əlaqəlilik indeksi və parçalanmış ərazilərin miqyası hesablanmışdır.

Ekosistem funksionallığının qiymətləndirilməsi üçün funksional ehtiyatlılıq nəzərə alınmışdır. Yəni, eyni ekoloji rolu yerinə yetirən bir neçə növün mövcudluğu araşdırılmış, bu göstərici əsasında ekosistem stabilliyi və adaptasiya potensialı qiymətləndirilmişdir. Növ zənginliyi və funksional qrupların paylanması Shannon və Simpson biomüxtəliflik indeksləri vasitəsilə hesablanmışdır. Bundan əlavə, sahə məlumatları və ədəbiyyat analizi əsasında ekosistem xidmətlərinin qorunması və bərpası üçün potensial strategiyalar müəyyən edilmişdir. Analiz nəticələri antropogen təsirlərlə zədələnmiş ərazilərin biomüxtəlifliyi və funksionallığı barədə elmi əsaslı məlumat təqdim etmiş və idarəetmə üçün tövsiyələr formalaşdırmağa imkan yaratmışdır.

Aparılan nəticələrdən aydın oldu ki, antropogen təsirlərlə zədələnmiş ərazilərdə biomüxtəliflik və ekosistem funksionallığı zəifləyir. Yüksək biomüxtəliflik və funksional ehtiyatlılıq olan sahələr antropogen stresslərə qarşı müqavimət

*Elm və Təhsil Tədqiqatları* **XII Respublika Elmi Konfransı / 12 fevral 2026/ 143-146**
***Research in Science and Education*** **XII Republican Scientific Conference / 12 february 2026 / 143-146**
**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

göstərir, parçalanmış və təsirə məruz qalmış ərazilər isə həssasdır. Ekosistem funksionallığının qorunması və bərpası üçün elmi əsaslı idarəetmə və bərpa tədbirləri vacibdir. Uzunmüddətli monitorinq və ekoloji qiymətləndirmə sistemləri ekosistemlərin dayanıqlılığını və xidmətlərini qorumağa imkan verir.

**https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026**

**Həsən Əliyev**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0002-3217-3654
hesen.cahangir@gmail.com

# Zərbə dalğasının təsirindən yaranan zədələnmələr və bu zaman ilk tibbi yardım

***Açar sözlər:*** *zərbə dalğası, tibbi yardım, yaralanma, zədələnmə, qanaxma, sınıqlar, çıxıqlar*
***Keywords:*** *blast wave, medical aid, injury, trauma, bleeding, fractures, dislocations*

Zərbə dalğasının təsirindən qapalı və açıq zədələnmələr (bədənin müxtəlif nahiyələrində), daxili orqanların zədələnməsi, müxtəlif növ qanaxmalar, beyin silkələnməsi, əzilməsi və sıxılması, dağıntıların altında qalmaq nəticəsində boğulma və s. müşahidə oluna bilər. Buna görə də ixtisasından asılı olmayaraq hər bir insan hətta tibbi vasitələr olmadıqda belə, əl altında olan vasitələrdən istifadə edərək zədələnmələr zamanı özünə və başqasına ilk tibbi yardım göstərməyi bacarmalıdır.

Açıq zədələnmələr və ya yaralar. Mexaniki təsir nəticəsində dəri və selikli qişaların, o cümlədən onların altında yerləşən toxumaların və ayrı-ayrı üzvlərin tamlığının pozulmasına açıq zədələnmələr, yaxud yara deyilir. Yaranın üç əsas əlaməti var: - ağrı; -qanaxma; - yara kənarlarının aralanması.

Ağrı hissiyyatı yara nahiyəsində sinirlərin kəsilməsi və inkişaf edən toxuma arası ödemlə sinir uclarının sıxılması nəticəsində yaranır. Yara nahiyəsində ağrıların intensivliyi, davam etmə müddəti və bədəndə törətdiyi dəyişikliklər ağrı reseptorlarının çox olmasından (dəri, büzdüm, sümüküstlüyü, barmağın ucu) və iri sinir kötüklərinin zədələnməsindən asılıdır.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

Qanaxma. Zədə təsirindən toxumalardakı qan və limfa damarlarının tamlığı pozulur və damardan axan qan limfa yara kanalı ilə dəri və selikli qişa səthinə axır. Zədələnmiş damarın anatomik quruluşundan və diametrindən asılı olaraq qanaxmanın intensivliyi zəif və ya güclü ola bilər. Məsələn damar şəbəkəsi çox güclü olan nahiyələrdə (baş, sifət, boyun, əllər) və aorta damarlarının divarı zədələndikdə qanaxma güclü olur. Əzilmiş, didilmiş yaralarda hipotoniya vəziyyətində, magistral qan damarları sıxıldıqda qan zəif axır.

Yara kənarlarının aralanması - yaraların ölçüsü ilə təyin edilir. Yaranın böyük və kiçikliyi dərinin elastik liflərinin istiqamətindən də asılıdır. Dəridə yerləşən kobud lifli toxumaların istiqamətinə paralel törənən kəsiklərdə yara kənarının aralanması böyük olur.

Növünə görə zərbə dalğası nəticəsində zədələyici amildən asılı olaraq kəsilmiş, əzilmiş, cırılmış, didilmiş, zəhərlənmiş və kombinə edilmiş yaralar rast gəlinə bilər.

İlk tibbi yardım. İlk növbədə, qanaxma saxlanılmalı və yarada infeksiyalaşmanın qarşısını almaq üçün tədbirlər aparılmalıdır. Yarada güclü arterial qanaxma olarsa, qanaxmanı müvəqqəti, xəstəxanaya çatdırılana qədər saxlamaq vacibdir. Bunun üçün ən effektiv üsül jqut (turna) qoyulmasıdır. Yaranın ətrafına 5% -li yod məhlulu çəkilməli, yarada sərbəst yerləşən yad cisimlər xaric edilməli və yaraya aseptik sarğı qoyulmalıdır. Venoz və kapilyar qanaxmalarda sarğı sıxıcı olmalıdır. Yaranı barmaq və ya alətlə xəstəxanaya qədərki dövrdə müayinə etmək olmaz, çünki yaraya infeksiya düşə bilər.

Zərbə dalğası təsirindən yaranan zədələnmələrdən biri də dağıntılar zamanı yaranan uzunmüddətli sıxılma sindromudur. Buna Kraş sindromu da deyilir.

Kraş sindromu uzun müddət böyük mexaniki qüvvənin təziqi altında bədənin yumşaq toxumalarının (dəri, piy qatı,

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

əzələ) zədələnməsi nəticəsində inkişaf edir. Sindromun meydana çıxmasına səbəb müxtəlif travmalar ola bilər. Ağır mexaniki qüvvə təsirindən sıxılan yumşaq toxumada əzilmə, dağılma baş verir. Bunun nəticəsində yaranan ağrı zərərçəkmişin sinir, ürək-damar, tənəffüs sistemində ciddi pozuntular yaradır. Eyni zamanda, əzilmə nəticəsində qansızmalar əmələ gəlir. Sıxılma müddəti uzandıqca sıxılmış toxumaların qan təminatı azaldığı üçün məhv olmağa başlayır. Nəticədə zədə nahiyəsində zəhərli maddələr –toxumaların çürümə maddələri toplanır. Zədələnmiş şəxs dağıntı altında belə bir vəziyyətdə uzun müddət yaşaya bilər. Dağıntıdan azad edildikdən sonra zədə nahiyəsindən qana sovrulmağa başlayır ki, nəticədə həyat üçün vacib orqanlar-ürək, böyrəklər, qara ciyər, beyin zədələnir. Belə şəxslər çox zaman erkən travmatik şokdan, sonralar isə böyrək çatışmamazlığından vəfat edirlər. Kraş sindromunun müalicəsi çətin və az effektlidir. Zədələnənlərin 40%-dən çoxunu xilas etmək mümkün olmur. Bədən səthində zədələnən nahiyyə nə qədər böyükdürsə, xəstəliyin əlamətləri bir o qədər ağır olur. Eyni zamanda xəstənin vəziyyətinin ağırlığına və xəstənin proqnozuna həm də sıxılmanın müddəti təsir edir: -yüngül hal – zədələnmiş şəxs dağıntı altında 4 saatdan az qaldıqda; -orta ağırlıqda - 6 saat qaldıqda; -ağır hal - 6-8 saat qaldıqda; -çox ağır hal - 8 saatdan çox qaldıqda. Dağıntı altında 4-8 saat qalan hər 10 nəfərdən biri, 8 saatdan çox qalan 10 nəfərdən 5-i ölür.

*Kraş sindromu zamanı ilk tibbi yardım* - kompleks şəklində aparılır: 1.Qısa müddət ərzində zədələnən şəxsin dağıntı altından çıxarılması; 2.Elastik kompresiya, zədələnmiş nahiyənin soyudulması, ətrafın immobilizasiyası; 3.Travmatik şok əlehinə tədbirlər; 4.Xəstənin vaxt itirmədən hospitalizasiyası. Zərərçəkmişin dağıntı altından çıxarılması qarşılıqlı köməklə edilir. Düzgün ilkin yardım göstərmək üçün şəxsin dağıntı altında qalma müddətini bilmək vacibdir. Bu onun vəziyyətinin

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

ağırlığına və xəstəliyin proqnozuna təsir edir. Zərərçəkəni dağıntının altından azad edərkən dərhal zədələnmiş ətraflara damarsıxıcı jqut qoyulur. Jqut olmadıqda əl altında olan vasitələrdən istifadə edilir. Jqutun qoyulması zədələnmiş nahiyələrdən toxumaların çürümə məhsulunun geri qayıtmasının qarşısını alır. Düzgün qoyulmuş jqut zədələnmiş ətrafda ödemin azalmasına səbəb olur. Eyni zamanda, qoyulmuş jqut qanaxma təhlükəsini aradan qaldırır. Zədələnmiş ətrafda şişkinliyin aradan qaldırılması üçün elastik kompressiyadan istifadə edilir. Zərərçəkən dağıntı altından çıxarıldıqdan dərhal sonra elastik bintin köməyi ilə barmaqlarından başlayıb mərkəzə doğru tamamilə bintlənir. Elastiki bint qansaxlayıcı jquta nisbətən yüngül və sərbəst bağlanır. Zərərçəkənin immobilizasiyası ilk tibbi yardım göstərilən zaman böyük əhəmiyyətə malikdir. İmmobilizasiya zədələnmiş ətrafın əlin və ya ayağın şinalardan istifadə etməklə tam hərəkətsizləşdirilməsi deməkdir. Hətta sınıq olmadıqda belə immobilizasiya mükəmməl aparılmalıdır. Düzgün aparılmış immobilizasiya xəstənin transferi zamanı ağrını azaldır. İlk tibbi yardım kompleksinə yerli hipotermiya – soyudulma da daxildir. Yerli hipotermiya zədələnmiş nahiyyənin soyudulmasıdır. Zədələnmiş toxumanı soyutduqda onlarda maddələr mübadiləsinin intensivliyi aşağı düşür, oksigenə tələbat azalır. Bu səbəbdən qan təminatı müvəqqəti dayanır, dağılmamış yumuşaq toxumalar məhv olmur. Bundan başqa hipotermiya ətraflarda şişkinliyi azaldır, ağrını zəiflədir. Bunun üçün yayda soyuq suda isladılmış dəsmallar, qışda isə qarla doldurulmuş paketlər zədələnmiş nahiyəyə qoyulur. Bud və baldır nahiyələrinə 4-6 belə paket tələb olunur. Paketlər ətrafa üstdən və yanlardan düzülür və 2-4 gün müddətində davam etdirilir. Sıxılma sindromu zamanı soyudulma fasiləsiz aparılmalıdır. Zərərçəkən azad edildikdən dərhal sonra başlamalı, ilk tibbi yardım və transfer zamanı

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

davam etdirilməlidir. Cəld aparılan ilk tibbi yardım, düzgün immobilizasiya, yerli soyudulma travmatik şokun inkişafını ləngidir, gələcək ağırlaşmaların qarşısını alır. Zərərçəkmişə ümumi ağrısızlaşdırılmanın aparılması da vacibdir. İlk tibbi yardım göstəriləndən sonra vaxt itirmədən zərərçəkən yaxınlıqdakı xəstəxananın cərrahiyyə şöbəsinə çatdırılmalıdır. İlk tibbi yardım düzgün göstərilməzsə zədələnmiş nahiyədə qanqrena baş verə bilər. Zədələnmələr zamanı ilk tibbi yardımın düzgün göstərilməsindən yaralının həyatı və xəstəxanaya çatdırıldıqdan sonra müalicəni effektliliyi bilavasitə asılıdır. Buna görə də heç bir tibbi təhsili olmayanlar əl altında olan materiallardan istifadə edərək ilk tibbi yardımı göstərməyi bacarmalıdırlar.

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

**Xədicə Məmmədova**
Naxçıvan Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0009-9465-258X
xmmmdova820@gmail.com

# *PLANTAGO MAJOR* L. – iri bağayarpağı növünün dərman əhəmiyyətli xüsusiyyətləri

***Açar sözlər:*** *Plantago major L., dərman bitkisi, flavanoid, bioloji aktiv birləşmələr, antioksidant*
***Keyswords:*** *Plantago major L., medicinal plant, flavonoid, biologically active compounds, antioxidant*

Bəşər tarixi boyunca xəstəliklərin müalicə edilməsində təbii vasitələrdən istifadə edilmişdir. Bitkilərin müalicəvi xüsusiyyətləri tədqiqatçılar tərəfindən dəqiqliklə araşdırılmış, tərkibindəki kimyəvi birləşmələrə görə əczaçılıq sektorunda istifadə olunmağa başlayıb. Ənənəvi tibbdə istifadə edilən potensial bitkilərdən biri də İri bağayarpağı növüdür.

*Plantago major* L. növü əsrlər boyu dünyanın demək olar ki, hər yerində yara sağaldıcı və bir çox xəstəliklərin müalicəsində istifadə edilmişdir. Biktidən əsasən dəri, tənəffüs, həzm orqanları, reproduktiv sistem, qan dövranı xəstəlikləri, infeksiyalar və xərçəng xəstəliyinin müalicəsində istifadə edilir.

İri bağayarpağı bitkisinin tərkibində polisaxaridlər, lipidlər, kofein turşusu törəmələri, flavonoidlər kimi bioloji aktiv maddələr var. Bitkidən alınan ekstraktlardan yara sağaltma, iltihab əleyhinə, ağrıkəsici, antioksidant, zəif antibiotik və xora əleyhinə istifadə edilir.

İri bağayarpağı - *Plantago major* L. növü Bağayarpağıkimilər fəsiləsinin Bağayarpağı cinsinə daxil olub, Yer

https://doi.org/10.36719/2789-6919/XII/RK/ET/2026

kürəsinin mülayim iqlim qurşaqlarında yayılan qısa vegetasiya müddətinə malik çoxillik ot bitkisidir. *Plantago major* L. növü əsasən Avropa, Orta Asiya və Şimali Afrikada yabanı halda geniş yayılmış alaq otudur.

İri bağayarpağı bitkisi əsrlər boyu müxtəlif dərman məqsədləri üçün, son zamanlarda həm də yem bitkisi kimi də istifadə edilmişdir. Bitki əsasən 15 sm-dək hündürlükdə olur, lakin yaşayış mühitindən asılı olaraq ölçüsü dəyişir. Yarpaqları rozet şəkilli, oval ellipsvari formalı, paralel damarlıdır. Yarpaqların üzəri çılpaq, kənarları dişdişlidir. Çiçəkləri kiçik ölçülü olub, qəhvəyi-yaşıl rəngli, budaqlanmamış uzun gövdələrdə yerləşir.

*Plantago major* L. növü fenolitik birləşmələr, flavonoidlər, alkaloidlər, C vitamini, antioksidantlar və iltihab əleyhinə maddələr ehtiva edən dərman bitkisidir.

Bağayarpağıkimilər fəsiləsinin Bağayarpağı cinsinin Yer kürəsinin mülayim və tropik zonalarında yayılan 250-dən çox birillik və çoxillik növləri məlumdur. Bəzi növləri bir çox ölkələrin farmakopeyalarında təhlükəsiz bitkilər kimi qeyd olunur, digərləri isə qida və heyvan yemi kimi istifadə olunur. Cinsin tərkibinə daxil olan *Plantago major* L. növü bəzi ədəbiyyatlarda alaq otu kimi təsvir olunmasına baxmayaraq, əsrlər boyu xalq təbabətində və ənənəvi tibbdə dərman bitkisi kimi istifadə edilir.

İri bağayarpağı növünün yarpaqlarından yara sağaldıcı və bir çox xəstəliklərin müalicəsində istifadə edilir. Bundan başqa bitkinin yarpaqlarından hazırlanan ekstraktlardan dəri, tənəffüs orqanları, həzm orqanları, reproduktiv sistem, qan dövranı ilə əlaqəli xəstəliklər, infeksiyalar və xərçəngin müalicəsində, həmçinin, ağrıkəsici kimi geniş istifadə olunur. Tayvanda iri bağayarpağı bitkisinin toxumlarından xalq təbabətində tənəffüs yolları, sidik və həzm yolları ilə əlaqəli yoluxucu xəstəliklərin

müalicəsi üçün istifadə olunur. Çində isə ənənəvi tibbdə bitkinin yarpaqları, gövdələri və toxumlarının 50% etanol ekstraktının siçanlarda limfositik leykemiyaya qarşı in vivo aktivlik göstərdiyi aşkar edilmişdir. Aparılan tədqiqatlarda *Plantago major* L. növündən alınan preparatların profilaktik onkologiya üçün skrininq sistemində təsirli olduğu müəyyən olunmuşdur. Təsirə siçanlarda şiş metastazı modellərində antimetastatik aktivlik daxildir. Başqa bir tədqiqatda sulu ekstraktın siçanlarda döş xərçənginə qarşı profilaktik təsir göstərdiyi göstərilmişdir.

İri bağayarpağı növünün qurudulmuş yarpaqlarının sulu ekstraktı prostat iltihabı zamanı iltihab əleyhinə və ağrıkəsici təsir göstərir. Nəticələr göstərir ki, Plantago major sulu ekstraktı effektiv iltihab əleyhinə və ağrıkəsici təsirlərə malikdir.

Apardığımız tədqiqatlar və ədəbiyyat məlumatlarına əsasən məlum olmuşdur ki, İri bağayarpağı növünün ənənəvi tibbdəki rolu potensial antioksidan, iltihab əleyhinə və yara sağaldıcı təsirlərə malikdir. Bitkinin toxumlarından əldə edilən polisaxa-ridlərin müxtəlif farmakoloji xüsusiyyətlərə malik olduğu öyrənilmişdir.

# İÇİNDƏKİLƏR
# CONTENTS

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES

**Vaqif Qurbanov**
Filologiya təlimində ənənəvilik, qeyri-standartlıq və müasirlikdən inteqrativ nəticələrə ............................................ 7
**Həcər Hüseynova**
Azərbaycan dili dialekt və şivələrinin funksional cəhətləri .... 10
**Sevinc Sadıqova**
İşgüzar kommunikasiyanın spesifik cəhətləri .......................... 13
**Məsmə İsmayılova**
Dialoqlar ünsiyyət forması kimi.............................................. 15
**Aynurə Quliyeva**
Asəf Zeynallının yaradıcılığına bir nəzər ................................ 20
**Yaqub Səmədov**
Tədris prosesində tərbiyə işinin təşkilinin əhəmiyyəti ............ 25
**Fidan Məmmədova**
Gənc nəsil və dünyagörüşü...................................................... 28
**Arzu Huseynli**
Strategies to Minimize L1 Interference in Foreign Language Learning .................................................................................. 32
**Tural Mehdiyev**
Əmək bazarında işdən məmnunluğun sosial-iqtisadi determinantları və milli iqtisadiyyatın empirik analizi ............ 36
**Aytən Əliyeva**
Süni intellekt və prosessual ədalət: beynəlxalq tənzimləmə modellərinin analizi................................................................ 41

**Natavan Pashayeva**
Multicultural Family Pedagogy: Bridging Intergenerational and Intercultural Gaps ........ 47
**Gunay Gudratli**
Legal Status of the Subject in the Offense of Non-Repatriation of Foreign Currency Funds: Normative Regulation ........ 51
**Nərmin Qocayeva**
Müstəqillik dövründə Azərbaycan bədii nəsrində xrononimlərin işlənmə xüsusiyyətləri ........ 57
**Nigar Qasımova**
Viktor Hüqonun "Səfillər" əsərinin qısa təhlili ........ 60
**Tamara Dərziyeva**
Fizika tədrisində STEM/STEAM yanaşmasının tətbiqi: fizika ilə digər fənlərin inteqrasiyasının imkanları və çağırışları ........ 65
**İlahə Əsgərli**
İngilis dilinin inkişafında müasir texnologiyaların rolu ........ 68
**Elvin Məmmədov**
Azərbaycanda turizmin inkişafının mövcud vəziyyəti və dinamikası ........ 72
**Rəfail Həsənli**
Azərbaycanda qeyri-neft sektorunda investisiyaların maliyyələşdirilməsi ........ 80
**Nəzrin Məmmədova**
Təlim prosesində 3-4-cü sinif şagirdləri üçün dəstəkləyici mühitin pedaqoji-psixoloji əsasları ........ 88
**Gəray Əsədov**
Kredit resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsi ........ 90
**Nərmin Bağırova**
Ailə-məktəb əməkdaşlığında münaqişələrin aradan qaldırılmasının pedaqoji yolları ........ 98

**Sima Məmmədova**
Oyunlaşdırma əsaslı öyrənmə modelinin təhsildə əhəmiyyəti ........ 101
**Гамид Тагиев**
Основные проблемы перевода компьютерных терминов ........ 105
**Aynurə Babayeva**
Yeniyetmələrin şəxsiyyət inkişafı psixoloji mexanizmlərin təhlili və formalaşma prosesində ətraf mühitin rolu ........ 109
**Nəzrin Zeynalova**
İnteraktiv təlim metodlarının müasir dərsin təşkilində rolu .. 112
**Mədinə Mütəllimova**
Azərbaycan dili dərslərində şagirdlərin koqnitiv bacarıqlarının formalaşdırılmasının pedaqoji əsasları ........ 115
**Arifə Sadıxova**
İngilis dili dərslərində nitq bacarıqlarının öyrədilməsində autentik mətnlərin tətbiqi üsulları ........ 119
**Ceyhun Məmmədov**
Kommersiya banklarının səmərəliliyinin idarə edilməsi...... 123
**Нурлана Кулиева**
Влияния стиля общения на сплоченность и конфликтность коллектива ........ 131
**Ziba Asadova**
Learner Engagement in Language Classes through Multimedia Instructions ........ 134

## TƏBİƏT ELMLƏRİ
## NATURAL SCIENCES

**Elnurə Səfərova, İsmayılova Zərifə**
Dekorativ və bostan bitki zərərvericilərinin bioekologiyası və təsərrüfat əhəmiyyəti ........ 139

**Qumru Balaxanova**
Antropogen təsirlərlə zədələnmiş ərazilərdə biomüxtəliflik və ekoloji funksionallıq ........................................................... 143
**Həsən Əliyev**
Zərbə dalğasının təsirindən yaranan zədələnmələr və bu zaman ilk tibbi yardım ............................................................ 147
**Xədicə Məmmədova**
*PLANTAGO MAJOR* L. – iri bağayarpaği növünün dərman əhəmiyyətli xüsusiyyətləri ......................................... 152

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 99 806 67 68
+994 99 808 67 68
e-mail: tedqiqat.rek@aem.az

**Editorial address**
AZ1073, Baku,
Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House, 6th floor
Phone: +994 99 806 67 68
+994 99 808 67 68
e-mail: tedqiqat.rek@aem.az

İmzalandı: 05.02.2026
Onlayn çap: 12.02.2026
Kağız formatı: 60x84, 1/16
H/n həcmi: 10 ç.v.
Sifariş: 136

---

aem.az saytında çap edilmişdir.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 12 510 63 99
e-mail:zengezurda1868@mail.ru

Signed: 05.02.2026
Online publication: 12.02.2026
Format: 60/84, 1/16
Stock issuance: 10 p.s.
Order: 136

---

It has been published on aem.az
Address: Baku city, Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House, 6th floor
Phone: +994 12 510 63 99
e-mail: zengezurda1868@mail.ru